

# SƏMAVİ HƏDİYYƏLƏR

7-ci kitab

بسم الله الرحمن الرحيم

Bismillahir Rəhmanir Rəhim

# Səmavi hədiyyələr

## İslam təlim-tərbiyəsi

### Yeddinci kitab

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَى وَهُوَ مُؤْمِنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

**Bismillahir Rəhmanir Rəhim**
**Bağışlayan və mehriban Allahın adı ilə.**
**O, insana Quranı, öyrətdi. Həqiqət axtarmaq nemətini və Özünü tanımaq nemətini bəxş etdi.**

O Allahın adı ilə ki, həqiqətarama, öyrənmə və özünütanıma kimi bir neməti bizə təqdim etmişdir. Həmçinin İslamı təlim və tərbiyə sahəsində müdirlər, müəllimlər, şagirdlər və valideynlərinə xidmət göstərmək nemətini bizə nəsib etmişdir.

Bu kitabın ərsəyə gəlməsinin əsas qayəsi böyük alimlərin rəhbərliyi altında təhsil standartlarını təmin etməklə yanaşı, İslam məktəbləri üçün əhatəli təlim proqramını təmin etməkdir.

Onun perspektivası İslami təlim və tərbiyəyə giriş sahəsində bü günkü nəslin inkişafı, kamiliyyə doğru hərəkəti və gələcək üçün qərarverici qabiliyyətə malik olması istiqamətində müəllim, valideyn və şagirdlərlə birgə işləməkdir.

Əziz oxucular, bu kitabın ərsəyə gəlməsində əsas məqsəd cəmiyyətin ilkin dini biliklərlə tanış olması və İslami təhsil ocaqlarının təlim və təhsil fənn və sahələri ilə tanışlıqdır. Eyni zamanda bizim digər amal və məqsədimiz aşağıdakılardan ibarətdir:

Məktəblərdə İslam təhsili üçün aydın və etik hədəfin müəyyən edilməsi;

Təxəssüs və təcrübə resurslarının mübadiləsi üçün geniş bir şəbəkənin təqdim edilməsi;

Mənəvi, fiziki, emosional və mental dirçəlişə hərtərəfli yanaşmanın təşviq edilməsi;

Düzgün İslami bilik və interaktiv metodologiya əsasında kadr və müəllim hazırlığının təmin olunması;

Tədqiqatçılar, hövzə və seminariya mərkəzləri ilə ünsiyyətin yaradılması;

İslami təlim və təhsil üçün kursların tərtibatı, məzmunu, metodları və dəyərləndirmə sistemi üçün güclü zəminin yaradılması.

Bu kolleksiyanın əsas hədəfi İslam təlimini ehtiva edən mükəmməl dizaynlı kitablar toplusunu təqdim etməkdir. Allaha şükürlər olsun ki, bir qrup mütəxəssislərin əməkdaşlığı ilə belə böyük bir əsər ərsəyə gəlib.

Bu dərsliklər silsiləsi dolayı və cəlbedici üsullardan istifadə etməklə, əsasən İslam təlim və gündəlik məktəb proqramının metoduna uyğun olaraq tərtib edilmişdir. Elmi vəsait, mötəbər İslam mənbələrinə əsaslanaraq ümumi əqidə, əxlaq və əhkam əsaslarının öyrədilməsi üçün təlif edilib.

Bu kolleksiya əsasən İslam perspektivinin əsas prinsiplərinə - rasionallıq, mənəviyyat, mötədillik, ədalət və sülhə əsaslanır.

Yeri gəlmişkən bu böyük layihədə əməkdaşlıq edən bütün mütəxəssislərə, xüsusən də professor Ərafi, cənab İmanipur və cənab Fəyaziyə təşəkkür edir, minnətdarlığımızı bildiririk.

**Gürcüstan Müsəlmanları İdarəsi**

## Mündəricat


**Birinci fəsil:** Allahı tanımaq

| | | |
|---|---|---|
| **Dərs 1:** | Yaradılış möcüzələri | 15 |
| **Dərs 2:** | İki dəyərli sərmayə | 23 |
| **Dərs 3:** | Allahdan yardım istəmək | 31 |

**İkinci fəsil:** Yol və azuqə

| | | |
|---|---|---|
| **Dərs 4:** | Din: sonsuz xəzinə | 41 |
| **Dərs 5:** | Asiman nərdivanı | 49 |
| **Dərs 6:** | Qızıl bir fürsət | 57 |

**Üçüncü fəsil:** Məad

| | | |
|---|---|---|
| **Dərs 7:** | Acı və ya şirin | 67 |
| **Dərs 8:** | Xoşbəxtlik yolu | 75 |

**Dördüncü fəsil:** Rəhbəri tanımaq

| | | |
|---|---|---|
| **Dərs 9:** | Övliyaların ziyarəti | 85 |
| **Dərs 10:** | Gizli günəş | 93 |

**Beşinci fəsil:** Əxlaq

| | | |
|---|---|---|
| **Dərs 11:** | Cənnət ağacından bir budaq | 101 |
| **Dərs 12:** | Vərdişlər və zərərlər | 107 |
| **Dərs 13:** | Əməyin dəyəri | 115 |

**Altıncı fəsil:** İslam cəmiyyəti

| | | |
|---|---|---|
| **Dərs 14:** | Həqqünnas (insanın haqqı) | 125 |
| **Dərs 15:** | İzzət nişanəsi | 135 |
| **Dərs 16:** | Ümumi məsuliyyət | 143 |

**Allahın adı ilə**

**Hörmətli müəllimlər!**

Məlum olduğu kimi, bütün Peyğəmbərlərin (ə) missiyası gələcək nəsillərə yol göstərməkdir. Bu dəyərli vəzifəni öz öhdənizə götürdüyünüzə görə Sizləri təbrik edirik! Şübhəsiz, bu işi saf niyyətlə və səmimi şəkildə yerinə yetirmək dünyada ölçüyə gəlməyən bir missiyadır və onun mükafatını təbiət aləmində ödəmək mümkünsüzdür.

Cəmiyyətdə heç bir peşə bu məqama çatmaz, çünki dünyada heç bir varlıq insan qədər şərafətli deyil və insan müəllimin əlində əmanətdir. Müəllimin rolu insanları azğınlıq zülmətindən çıxarıb hidayət nuruna və doğru yola yönəltməkdir. Müəllim yaxşı və pisin ilk eskizlərini şagirdlərin ağappaq və yazılmamış zehin lövhəsinə yaza bilən bir kəsdir və beləcə, müəllimin bacarıqlı əlləri gələcək perspektivin rəsmini çəkir. Müəllim cəmiyyəti cəsur və ya qorxaq, səxavətli və ya xəsis, fədakar və ya eqoist, elm əhli və ya elmdən qaçan, ismətli və ya əxlaqsız edə bilər. Buna görə də əgər cəmiyyət islah olunmalı və düzəlməlidirsə, bu düzəliş məktəbdən başlanmalıdır.

Əmirəl-möminin Əli (ə) buyurur: **"Hidayət edən və öyrədən şəxs başqalarına öyrətməkdən çox özünü islah etməlidir və onun rəftarı ilə öyrətdikləri söz ilə öyrətdiklərindən çox olmalıdır".**[1] Müəllimin sinifdəki bütün hərəkətləri, baxışı, işarəsi, gülümsəməyi, qaşqabağı, geyimi və ... şagirddə iz buraxır və hər bir kəs öz həyatında ən dərin hissləri və duyğuları öz müəllimindən öyrənir. Buna görə də həzrət Peyğəmbərin (s) İmam Əliyə (ə) buyurduğu aşağıdakı cümlə daim qulağımızda sırğa olmalıdır: **"Ya Əli! Əgər Allah sənin vasitənlə bir insanı hidayət etsə, sənin üçün günəşin üzərinə saçdığı hər bir şeydən yaxşıdır".**[2]

---

1 Vəsailuş-şiə, c.16, səh. 150.
2 Kafi, c.5, səh. 28; Əl-mustədrək ələs-səhiheyn, c.3, səh.691, hədis: 6537

**Hörmətli həmkarlar!**

Qarşınızda olan bu kitab müxtəlif dini və tərbiyəvi sahələrdə çoxsaylı ekspertlərin çoxillik zəhmətinin nəticəsidir ki, siz dəyərli müəllimlərin rəyləri əsasında ərsəyə gəlmişdir. Ümid edirik ki, bu kitabda sizin fədakar səylərinizlə müsəlman övladlarımızın İslami təlim-tərbiyəsində daha çox təsirə malik olacaqdır.

Gördüyünüz kimi, "Səmavi hədiyyələr" kitabı məzmun və yazı üslubu baxımından fərqli olmaqdan əlavə yeni növ təlim-tərbiyə yanaşmalarına malikdir. Aydındır ki, bu kitabın hədəflərinə çatmaq siz əziz həmkarların tədris mərhələlərində bu yanaşmalara diqqət yetirməyinizdən asılıdır.

Şagirdləri fəal iştiraka cəlb etmək və tədris mərhələlərində onların payını artırmaq bu kitabın əsas yanaşmalarındandır. Buna əsasən kitabın ən yaxşı tədris metodu aktiv tədris metodudur ki, burada hər bir dərsin ən az iyirmi dəqiqəsi şagirdin bəhslərdə aktiv iştirakına və öz fikrini bildirməsinə ayrılır. Yaxşı olar ki, hörmətli müəllimlər bu vaxtı yalnız şagirdləri doğru səmtə yönəltməyə və onların öz fikirlərini bildirərkən yol verdikləri mümkün səhvlərini düzəltməyə sərf etsinlər. Sinifdəki şagirdlərin qruplara bölünməsi, onların suallarını cavablandırmaq üçün münasib zamanın ayrılması, şagirdlərin öz aralarında müzakirə aparmaları və bir-birinin fikirlərini dəyərləndirmələri üçün münasib şəraitin yaradılması bu metodun tələblərindəndir.

Tədrisi yalnız mühazirə ilə məhdudlaşdırmaq və şagirdi sırf dinləyiciyə çevirmək dini tərbiyənin hədəflərinə ziddir və bu metod şagirddə əzbərçilik bəlasının yaranması ilə nəticələnə bilər.

Hazırkı kitab "İslam mədəniyyəti və dini təlimlər" kitabının və onun qiymətləndirmə metodologiyasının təhlili əsasında yeni bir yanaşma ilə hazırlanmışdır. Burada "Orta təhsil dövrü dini təlim-tərbiyə proqramının bələdçisi"ndən götürülmüş qiymətləndirmə metodologiyasının ən mühüm bəndləri təqdim olunur və bu mövzular daha geniş şəkildə yuxarıda qeyd olunan bələdçidə mövcuddur:

**Qiymətləndirmə metodologiyasının əsasları**

Dərs proqramının və öyrənmə prosesinin ən mühüm sütunlarından biri qiymətləndirmədir. Bu, iki məqsəd üçün yerinə yetirilir:

1. Öyrətmək və öyrənmək hədəflərinin gerçəkləşmə dərəcəsini təyin etmək;
2. Öyrənilənləri möhkəmləndirmək.

Buna görə də qiymətləndirmə öyrənmə prosesinin bir hissəsidir və onun müxtəlif mərhələlərində keçirilir. Müəllim və şagird də davamlı olaraq onunla əlaqədədirlər. Qiymətləndirmə öyrənmənin hədəflərinə diqqət yetirir və hədəflərin gerçəkləşmə dərəcəsini ölçdüyü qədər bu hədəfin gerçəkləşməsinə də kömək edir, yəni şagirdləri elə fəaliyyətlərə sövq edir ki, bu fəaliyyətlər ona hədəfə çatmaqda yardım edir.

Dini təlim-tərbiyə aşağıdakı üç məqsədi güdür və şagirdlərin bu məqsədlərə çatmasına çalışır:

1. Dinin əsasları, maarifi və vəzifələri haqqında məntiqi bilik əldə etmək;
2. Bu əsaslara, maarifə və vəzifələrə iman gətirmək;
3. Vəzifə və məsuliyyətlərə əməl etmək.

Hərçənd bu üç məqsəd arasında bir növ ardıcıllıq mövcuddur, lakin bir-birinə təsir göstərirlər. Bu üç məqsəd arasında insanın rəftarına və əməlinə aid olan fəaliyyətlər qiymətləndirmə dairəsində yerləşmir. Lakin bu, sözügedən fəaliyyətlərin təhsil mühitində nəzərə alınmaması mənasında deyil. Şagirdlərin camaat namazında, xeyriyyə və xilasetmə fəaliyyətlərində iştirak etməsi, başqalarını yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək və bu kimi digər fərdi və ictimai dini fəaliyyətləri dərs proqramında nəzərdə tutula və şagirdlər öz istəyi ilə bu işləri yerinə yetirməyə dəvət oluna bilərlər. Buna görə də dini təlim-tərbiyədə şagirdin qiymətləndirilməsi aşağıdakı fəaliyyət sahələrində olmalıdır:

1) Ağıl və təfəkkürü inkişaf etdirən fəaliyyətlərin qiymətləndirilməsi;

2) İman və dini hissi gücləndirən fəaliyyətlərin qiymətləndirilməsi.

Orta təhsil dərəcəsində dini təlim-tərbiyə dərsinin qiymətləndirilməsi “Summativ qiymətləndirmə” və “Yekun qiymətləndirmə” olaraq iki formada keçirilir və son qiymət bu iki qiymətləndirmənin cəmindən əldə olunur.

Summativ qiymətləndirilmədə daha çox bacarıqlara diqqət yetirilməli, keyfiyyət və təsviri xarakter daşımalıdır. Belə ki, summativ qiymətləndirilmə öyrənmənin keyfiyyətinə xidmət edə biləcək səmərəli bir qiymətləndirmədir.

Müəllim qiymətləndirmə vərəqində hər şagirdin öyrənmə səviyyəsini və onun təhsil fəaliyyətini yerinə yetirməsini yazır və öz rəyini qeyd edir. Bundan əlavə, görülmüş fəaliyyətlərə uyğun olaraq şagirdin öyrənmə səviyyəsini kəmiyyət vasitəsinə çevirərək müəyyən olunmuş bal şkalası ilə qiymətləndirir.

Yekun qiymətləndirmə yazılı imtahan formasında keçirilir. Bu sınaqda dərsin məzmununun öyrənilməsi qiymətləndirilir. Sınaq sualları tədrisin bütün səviyyəsini müvafiq şəkildə əhatə etməli və yuxarı səviyyələrə daha çox diqqət yetirilməlidir. Məfhumları dərk etmək, onları işlətmək, analiz qabiliyyəti, tərkib, müqayisə, tətbiq, düşünmə və mühakimə bacarığı diqqət yetiriləsi ən mühüm səviyyələrdir.

**Qiymətləndirmə metodologiyasının icra forması**

1. Summativ qiymətləndirmə (istər yazılı, istər şifahi) 12 ballıq şkala ilə, yekun yazılı qiymətləndirmə isə 8 ballıq şkala ilə hesablanır.

2. Birinci rübün yekun qiymətləndirməsi elə həmin rüb ərzində tədris olunmuş mövzular, ikinci rübün yekun qiymətləndirməsi isə kitabın bütün mövzuları əsasında həyata keçirilir.

3. Hər rübün summativ qiymətləndirməsinin qiymət cədvəli (12 bal) aşağıdakı kimidir:

a) Müəllimin kitabdakı mətndən çıxardığı suallara cavab: 4 bal;

b) Kitabın mətnində olan sinif işlərinin yerinə yetirilməsi: 3 bal;

c) Hər dərsin sonundakı suallara cavab vermək: 3 bal;

d) Tədris prosesində fəal olmaq və iştirak etmək: 2 bal.

4. Hər rübün yekun qiyməti həmin rübün summativ (12 bal) və yekun qiymətləndirmə (8 bal) ballarının cəmidir.

5. “Səmavi hədiyyələr” dərsinin yekun qiymətləndirmə nəticələrini şagirdlərin qiymət kitabçasında aşağıdakı iki formada yazmaq olar:

a) Summativ qiymətləndirmənin (12) və yekun qiymətləndirmənin (8) nəticələri 20 ballıq şkala ilə hesablanaraq müvafiq sütunlara qeyd edilir;

b) Summativ qiymətləndirmə (12) və yekun qiymətləndirmənin (8) hər birinin nəticələri toplanaraq summativ və yekun qiymətləndirmə sütunlarında qeyd edilir.

6. Bütün qiymətləndirmələrdə (summativ və ya yekun) əsas meyar məfhum və anlayışın dərk edilməsidir. Buna görə də şəxs adları, tarix, məkan və daha çox əzbərçiliyə söykənən bu kimi sualların tərtib edilməsi məqsədəuyğun deyil.

7. Şagirdlərin Quran ayələri və hədislərin ərəb dilində olan mətnlərini, eləcə də onların tərcümələrini əzbərləməsi məcburi deyil və qiymətləndirmələrdə yalnız ayə və hədislərin məzmunu, məfhumu və mesajı soruşula bilər.

8. "Sinif işi" bölməsi şagirdlərin tədris prosesində iştirakını artırmaq üçün nəzərdə tutulub və şagirdin qiymətləndirilməsində mühüm rol oynaya bilər.

9. Hər dərsdə olan "Daha çox bilək" bölməsi yalnız şagirdlərin məlumatını artırmaq məqsədini daşıyır. Müəllim dərsi izah etmək üçün bundan istifadə edə və ya bu bölmə üçün həvəsləndirici qiymətləndirmə balı nəzərdə tuta bilər. Lakin summativ və yekun qiymətləndirmədə bu hissəyə aid sual verilə bilməz.

10. Dərslərin "Təklif" bölməsi şagirdlərə nəzərdə tutulan hədəflərə çatmaqda kömək edə bilər. Bu hissədə müəllim, yaxud şagird tərəfindən təklif olunan fəaliyyətlərin yerinə yetirilməsi tamamilə könüllüdür və buna görə şagirdə yalnız həvəsləndirici qiymət verilə bilər. Belə ki, 12 ballıq summativ qiymətləndirməyə maksimum 2 bal əlavə oluna

bilər və summativ qiymətləndirməni tamamlamaq üçün istifadə olunmalıdır. Bu, yekun qiymətləndirmə balına əlavə oluna bilməz.

11. Bəzi dərslərin sonunda olan "İlahi" adlı bölmə həmin dərsə yekun vurmaq üçün nəzərdə tutulub; summativ və yekun qiymətləndirmədə bu hissədən sual salına bilməz.

**Əziz şagirdlər, salam!**

Keçən ilki təhsil ilini uğurla başa vurduğunuza və təhsil həyatınızda yeni bir mərhələyə qədəm qoyduğunuza görə əhsən sizə!

Uca Allaha bu uğura görə şükür edirik!

Mehriban Allah gözəl Cənnətini sənin üçün, onu sevən və onu əldə etmək üçün çalışan hər bir kəs üçün yaradıb.

O, bütün varlıqları insanın xoşbəxtliyi üçün xəlq edib. Onları insanın doğru yolu tapması və kamala çatması yolunda qərar verib ki, dünyada və axirətdə xoşbəxt olsun və sonu Onun gözəl Cənnəti olan səadət yolunu qət etsin.

Bu kitab sizin bir neçə mühüm sualınıza cavab tapmağa çalışır:

- Haradan gəlmişəm?

- Haraya gedəcəm?

- Doğru yolu kimdən soruşmalıyam?

- Bu yolda mənə kim yoldaşlıq edə bilər?

- Məqsədə sağ-salamat çatmaq üçün yol azuqəsi olaraq özümlə nə götürməliyəm?

Ümid edirik ki, bu mərhələni də əvvəlki mərhələlər kimi başıuca keçəcək və öyrəndiklərinizə əməl etməklə hər an qarşınızda olan gözəl məqsədə daha da yaxınlaşacaqsınız.

Dərslərinizi yaxşı öyrənməyə çalışın. Öyrəndikləriniz haqqında düşünün və onların barəsində sinif yoldaşlarınızla danışın. Əgər təklifiniz olsa, hökmən onu bildirin. Bilin, Allah sizə elə bir güc verib ki, istəsəniz, hər bir işin öhdəsindən gələ bilərsiniz. Elə isə Uca Allahdan kömək istəyin və çalışmağa başlayın. Daha bir uğur üçün çalışın...

# Birinci fəsil: Allahı tanımaq

Hazırki fəsil üç dərsdən təşkil olunub: "Yaradılış möcüzələri", "İki qiymətli sərmayə" və "Allahdan yardım istəmək".

• Birinci dərs yaradılış dünyasında və insan bədənində mövcud olan nizam-intizamı, qanunauyğunluğu təhlil etməklə Allahın elm və hikmətini bəyan edir, Allahın bu yaradılışdan məqsədinə işarə edir.

• İkinci dərs insanın sahib olduğu iki dəyərli nemət - həyatın fürsəti və düşüncə qüdrətini, o cümlədən bu iki nemətin əbədi xoşbəxtliyə çatmaqda təsirini bəyan edir.

• Üçüncü dərs yalnız Allahın başqalarına kömək edə biləcəyini vurğulamaqla yanaşı Allahın daha çox bizə kömək etməsinə səbəb olacaq işləri araşdırır.



# Birinci dərs

## Yaradılış möcüzələri

Əgər saatın şüşəsini təmizlədiyimiz zaman kimsə bizdən soruşursa: “Saat neçədir?”, - biz adətən bu halda yenidən saata baxırıq və sonra cavab veririk. Bilirsinizmi niyə?

Bizim ətrafımızdakı hadisələrə və əşyalara baxışımız adətən tez və ötəri olur. Bu səbəbdən də ilk baxışda bir çox xırdalıqlar gözümüzdən qaçır. Yaradılış aləminin möcüzələri (onların bir çoxu biz insanların bədənində də vardır) bu gözəl dünyanın görməli şeylərinin bir hissəsidir ki, biz adətən onların yanından diqqətsiz keçirik. Dünyaya baxışımızı ən azı bir gün dəyişməklə bəzi möcüzələri ilk dəfə görə bilərik.

**Bənzərsiz**

Həmid dünən dayısı ilə birlikdə getdiyi sərgi barədə ətraflı danışırdı:

“Uşaqlar, inanmazsınız! Bir böyük videokamera gördüm ki, altında çarxı var idi. Deyirdilər çarxsız və xüsusi üçayaqlısı olmadan onu tərpətmək olmur. Üçayaqlını da demə! Kameranın özündən də ağır idi. Başqa bir kamera da var idi ki, deyirdilər lent olmadan bir neçə saat çəkiliş apara bilir! Çox qəribə linzaları var idi, deyirdilər əgər bunlar olmasa, az işıqda (məsələn qürub vaxtı) çəkiliş etmək olmaz. Kameraları saxlamaq üçün böyük qutular, linzaları yumaq üçün müxtəlif mayelər, kameraları və lentləri korlamasın deyə güclü işığın qarşısını almaq üçün xüsusi vasitələr, kameranın elektrik xəttinə qoşulmadan bir neçə saat işləməsi üçün batareyalar, qaranlıq və az işıqlı yerlərdə çəkiliş aparmaq üçün çox böyük projektorlar ...

Dayımla kameralara cavabdeh olan şəxsin yanına gedib soruşdum:
- Sərginin ən qabaqcıl kamerasını bizə göstərə bilərsinizmi?

Dedi: - Siz dünyanın ən qabaqcıl və möcüzəvi kamerasını tanımırsınızmı? Bu kamera çox yüngül və gözəldir, rahatlıqla hərəkət edir. Heç bir lentə ehtiyac olmadan onilliklər ərzində heç bir problem olmadan çəkiliş edə bilir. Əgər onun içinə toz-torpaq düşsə, öz-özünə işə düşüb özünü təmizləyir. Hətta bəzən problem yarandıqda öz-özünü təmir edir və tənzimləyir. Güclü işıqda linzası bağlanır, zəif işıqda isə avtomatik şəkildə linzası açılır. Sahibi ondan istifadə etmək istəmədikdə öz-özünə sönüb bağlanır...

Mən sevincək dedim: - Mümkünsə elə indi bu möcüzəvi kameranı bizə göstərin!

Dedi: - Bir dəfə güzgüyə diqqətlə baxmaq kifayətdir ki, dünyanın ən yaxşı kamerasını görəsən!



İndiyədək öz gözlərinizin yaradılışına diqqət etmisinizmi?

Hikmət sahibi olan Allah gözləri üzün çökəkliyində yerləşdirib ki, yanağın, alnın və burnun sümükləri ilə onu qorusun. Əgər bu sümük hasarı gözün ətrafını qorumasaydı, gözə tərəf gələn hər bir zərbə insanı həmişəlik görmək nemətindən məhrum edə bilərdi.

Qaşlarınıza baxın. Üzünüzə gözəllik bəxş edən bu qısa tüklər çətir kimi kəskin günəş şüasının gözə düşməsinin qarşısını almaqla yanaşı alın tərinin gözə tökülməsinə də imkan vermir.

İndi təsəvvür edin, əgər gözlər çökəklikdə yerləşməsəydi, əgər qaşlar olmasaydı, əgər kirpiklər hər an toz-torpağın gözə daxil olmasının qarşısını almasaydı, əgər göz qapaqları açılıb-bağlanmasaydı, əgər gözlərin forması badamı olmasaydı və göz yaşı oradan xaric olmasaydı, əgər... nə baş verərdi?!

Bütün bu möcüzələr böyük alimlər və ixtiraçıların Allahın bu yaratdığından nümunə götürüb kameralar, dəqiq mikroskoplar və teleskoplar icad etmələrinə səbəb olub.

İndi özünüz deyin! Bu kiçik bədən üzvü belə Yaradanın əzəmət və hikmətini göstərmirmi?!

Əmirəl-möminin həzrət Əli (ə) insanın xilqəti haqqında buyurur:

*“Bu insanın (xilqətindən) təəccüb edilməlidir: piy parçası ilə görür, ət parçası ilə danışır və bir neçə (kiçik) sümüklə eşidir”.*[1]

1. Nəhcül-bəlağə, Hikmətli sözlər, 8-ci hikmət.

## Sinif işi

1. Toxunduğumuz məsələ dünyamızın sonsuz möcüzələrinin yalnız bir nümunəsi idi. Siz də dostlarınızla müzakirə edin və bu möcüzələrdən başqa nümunələri sadalayın.
2. Yaradılış dünyasında nizam-intizamı, hikməti və sonsuz möcüzələri müşahidə edərkən nə anlayırıq?

**Yaradılışın hədəfi**

Bir az fikirləşin: Elmli və hikmətli Allah bu gözəl və möcüzəli dünyanı əbəs yerə və məqsədsiz yarada bilərmi?

Sizcə, bu möcüzəli dünyanı yaratmağın hədəfi nədir?

Əmirəl-möminin Əli (ə) bu sualın cavabında buyurur:[1]

*"Allah yerdə olanların hamısını sizin üçün yaradıb ki, onlar barədə düşünəsiniz və onlardan istifadə etməklə Cənnətə daxil olub özünüzü Cəhənnəm əzabından xilas edəsiniz".*

Mehriban Allah bizim ehtiyaclarımızı hər kəsdən yaxşı bilir və bu dünyanı bizim orada ən yaxşı şəkildə yaşaya bilməmiz üçün yaradıb. Rəbbimiz Özünün elm və qüdrət nişanələrinə baxmamız üçün bizə göz bəxş edib, gördüyümüz şeylər barədə düşünməyimiz və bizi əhatə edən dünyadan Allahı tanımaq dərsi öyrənməyimiz üçün bizə ağıl verib.

O bizi Öz nemətləri və gözəlliklərinə qərq edib ki, Onun bizi nə qədər sevdiyini anlayaq. Elə isə biz də Uca Allahı sevək və Ona itaət edək. Bu, sonu Allahın gözəl Cənnətinə çatan o yoldur.

---

1 Uyuni əxbar ər-Rza (ə), c. 2, səh.12.

## Özünü sına

İndi deyin görək, Yeri bütün möcüzələri ilə bizim üçün yaradan mehriban Allah bizi unuda, çətinliklərdə və ehtiyaclı olduğumuzda tək qoya bilərmi?

1. Elə bir bədən üzvünün adını çəkə bilərsizmi, orqanizmin normal fəaliyyətinə təsir göstərməsin?
2. Həzrət Əlinin (ə) kəlamını nəzərə alaraq, yerdə və göydə sonsuz möcüzələrin yaradılmasının səbəbini izah edin.

## Təklif

Aşağıdakı mətni diqqətlə oxuyun:

Qarışqanın kiçik bədəninə baxın! Onun yaradılışı o qədər incədir ki, göz onu görmür və ağıl onu dərk etmir. Görün necə yerdə hərəkət edir, öz ruzisini əldə etmək üçün çalışır və yuvasına daşıdığı dənələri xüsusi yerdə saxlayır. Mərhəmətli Allah heç vaxt onu unutmur, Öz səxavətindən məhrum etmir, hətta o, möhkəm bir daşın və ya qayanın içində olsa belə.

Əgər qarışqanın həzm sistemi və qarnının içindəki qığırdaqlara fikir versən və ya başında yerləşən göz və qulağını tədqiq etsən, onun yaradılışından heyrətə gəlib bu bapbalaca məxluqu vəsf etməkdə çətinlik çəkərsən.

Yaxşıca düşünsən, aydın dəlillərin sayəsində anlayacaqsan ki, kiçik qarışqanı yaradan elə böyük xurma ağacını yaradanın özüdür. O kəs ki, bütün ağır və yüngül, böyük və kiçik, güclü və zəif varlıqları yaratmaq Onun üçün eynidir.[1]

1. Nəhcül-bəlağə, 185-ci xütbə.

## Daha çox biləк

Oxuduqlarımız Əmirəl-möminin Həzrət Əlinin (ə) qarışqanın yaradılışının möcüzələri haqqında buyurduqlarının bir hissəsi idi. Siz özünüz də Allahın yaratdıqlarından biri (məsələn arı) haqqında araşdırma apara və nəticəni sinifdə dostlarınız üçün oxuya bilərsiniz.

Heç indiyədək bədəni qoruyan zirehi yaxından görmüsünüzmü? Zirehin nədən hazırlandığını bilirsinizmi?

Sizcə, dünyanın ən böyük "zirehinin" qalınlığı nə qədər olar? 10 sm, ya yarım metr, yaxud 1 metr?

Dünyanın ən qalın zirehi yüz min metr qalınlığındadır və bütün Yer kürəsini əhatə edir. Çox incə və lətif hava təbəqəsi olan bu zireh o qədər möhkəm və keçilməzdir ki, Yer kürəsinə nüfuz edən yad cismləri planetimizə çatmamış məhv edir.

Meteoritlər də belə cismlərin sırasına daxildir və saniyədə 50 km (yəni güllənin sürətindən yüz dəfə çox) sürətlə fəzada hərəkət edirlər. Alimlərin dediyinə görə məhz bu sürətin sayəsində səmada hərəkətdə olan çox kiçik daşda atom bombasına bərabər bir güc yaranır. Bu səbəbdən də onlar qarşılarına çıxan hər bir cisimlə toqquşduqda böyük bir enerji azad edir və partlayırlar.

Yerin atmosferinin əhəmiyyətini daha aydın anlamaq üçün onu qeyd edək ki, hər gecə və gündüz milyonlarla meteorit atmosferlə toqquşur və yerin səthinə çatmamış partlayaraq qaz və buxara çevrilir.

Bu, Yerin müdafiə zirehininin missiyasının yalnız bir hissəsidir. Atmosfer kosmos daşlarından əlavə qalaktikanın ölümcül şüalarının, ultrabənövşəyi şüaların və güclü kosmik maqnit cərəyanlarının da qarşısını kəsir və onları Yerə çatmamışdan əvvəl zərərsizləşdirir. Beləliklə, Yer kürəsinin sakinlərini digər böyük təhlükələrdən qoruyur. Əgər bu möhkəm zireh Yeri qorumasaydı, planetimizin sakinlərinin nə ilə qarşılaşacağını gözləcəyini təxmin edə bilərsənmi?

İndi Allahın bu nurani kəlamlarının mənasını daha yaxşı dərk edə bilərik, buyurur:

| | |
|---|---|
| *“Göyü mühafizə olunan bir tavan etdik. Onlar isə oradakı dəlillərimizdən üz çevirirlər”.* [1] | وَجَعَلْنَا السَّمَاءَ سَقْفًا مَحْفُوظًا وَ هُمْ عَنْ آيَاتِهَا مُعْرِضُونَ |

1 Ənbiya surəsi, 32-ci ayə. (Bu haqda daha ətraflı məlumat almaq üçün sözügedən ayənin təfsirinə baxa bilərsiz “Nümunə Təfsiri”, c. 13.

**Allahım!**
Sənə şükürlər olsun məni yaratdığın üçün,
məni dadlı südlə qidalandırdığın üçün,
anamın qəlbini mənə qarşı mehriban etdiyin üçün,
beşikdə zəif bir körpə olduğum zaman məni qoruduğun üçün,
keçən hər il məni böyütdüyün üçün,
məni cürbəcür yeyəcək və geyim ilə bəhrələndirdiyin üçün,
böyüdükdə Sənə şükür etməyi mənə öyrətdiyin üçün,
Səni tanımağı mənə ilham etdiyin üçün,
Peyğəmbərlərinin dediklərini qəbul etməyi mənim üçün asanlaşdırdığın üçün!

**İlahi!**
Sənin nemətlərini necə hesablayım və bəxşişlərinə necə təşəkkür edim, bir halda ki, nemətlərin saysız-hesabsızdır.[1]

Arzu edirsənsə sən də bir neçə cümlə Allahla danış.

.......................................................................................
.......................................................................................

1. İmam Hüseynin (ə) Ərəfə günü etdiyi duanın bir hissəsi.



# İkinci dərs

## İki qiymətli sərmayə

Aşağıdakı ədədləri bir dəfə oxuyun:
1001
1002
1003
1004
1005
Beş saniyə keçdi!
İndiyədək buludların hərəkətinə fikir vermisinizmi?

Buludlar böyük sürətlə külək vasitəsilə hərəkət edir, lakin biz adətən onların hərəkətinin sürətinə diqqət etmirik. Ötüb keçmələri buludların hərəkətinə bənzəyən başqa nələri tanıyırsınız?

... Yarışın başlanmasını bildirən fit çalındı və oyun başladı!

Birinci komandada oyunçuların hər biri öz vəzifəsini yaxşı bilir və oyunun başlaması ilə məşqçilərinin göstərişlərini bir-bir oyun meydançasında yerinə yetirməyə hazırdırlar. Onların yarışda qalib gəlmək üçün planı budur ki, elə ilk dəqiqədən bütün gücləri ilə oynasınlar və heç bir fürsəti əldən verməsinlər.

Lakin ikinci komandanın oyunçuları hələ də oyunu ciddi qəbul etməyib və bir o qədər də səy göstərmirlər. Onlar öz-özünə deyirlər: "Hələ 90 dəqiqə vaxtımız var..."

Bəs bu oyunun nəticəsini necə proqnozlaşdırırsınız?

Təsəvvür edin ki, oyunu sonlandıran fit çalındıqda fürsəti əldən vermiş ikinci komandanın oyunçuları hakimin ətrafına toplaşıb deyirlər: "Biz oyunun vaxtına fikir vermirdik və onun necə bitdiyinin fərqinə belə varmadıq! Əldən verdiyimiz mövqelərimizi geri qaytarmaq üçün bizə bir neçə dəqiqə möhlət verin. Oyunun davam etdirilməsi üçün yenə fit çalın!.."



## Sinif işi

Sizcə, yarışın hakimi bu istəyə nə cavab verəcək?
Necə düşünürsüz, bizim dünyadakı həyatımızın bir futbol yarışı ilə hansı oxşarlıqları var?
Bu ikisinin fərqi nədir?

**Həyatın fürsətləri**

Uca Allah ömürlərinin qədrini bilməyən və həyatın fürsətlərini əbəs yerə əldən verib bu dünyadan əliboş gedənlər barədə buyurur:

حَتّىٰ إِذا جاءَ أَحَدَهُمُ الْمَوتُ قالَ رَبِّ ارجِعونِ لَعَلّي أَعمَلُ صالِحًا فيما تَرَكتُ كَلّا إِنَّها كَلِمَةٌ هُوَ قائِلُها.

*Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə tərk etdiyim yaxşı əməlləri edəm". Xeyr! Onun bu dedikləri ancaq dildə deyilmiş bir sözdür".*[1]

Doğrudan da Cənnət nemətlərinin insanın bu dünyadakı əməllərinin mükafatı olduğunu bilən kəs əlindəki fürsətlərdən necə istifadə edir?
Ümumiyyətlə, bu dünyada (axirət) yolu üçün azuqə toplamağa nə qədər vaxtı olduğunu kimsə bilirmi?
Həzrət Əli (ə) buyurur:

*"Fürsətlər buludlar tək keçir, elə isə yaxşı fürsətləri qənimət bilin!"*[2]

1. Muminun surəsi, 99 və 100-cü ayələr.
2. Nəhcül-bəlağə, Hikmətli sözlər, 22-ci hikmət.

## Sinif işi

Aşağıdakı halların hər birində həyatın fürsətlərini əldən verən şəxslə uzaqgörən şəxsin rəftarını müqayisə edin.

| | |
|---|---|
| Kiçik qardaşı Quranın qısa surələrindən birini ona öyrətməsini xahiş etdikdə... | 1. Uzaqgörən şəxs. . . |
| | 2. Diqqətsiz şəxs . . . |
| Müəllim sinifdə dərsi izah etdikdə... | 1. |
| | 2. |
| Azan səsi eşidildikdə... | 1. |
| | 2. |
| Sevimli televiziya proqramının saat neçədə başlayacağını bildikdə. | 1. |
| | 2. |
| İmtahan gününə bir aydan az vaxt qaldıqda... | 1. |
| | 2. |

Beləliklə, bizim dünya və axirət xoşbəxtliyimiz üçün birinci dərəcəli sərmayəmiz həyatda olan fürsətlərdir və əgər kimsə bunlardan məhrum olsa, digər nemətlərdən də istifadə edə bilməz. Görəsən, sadəcə yaşamaq neməti bizim dünya və axirət xoşbəxtliyimiz üçün kifayət edərmi?

Bir az düşünsək görərik ki, pis əməl sahibi olan insanlar, hətta heyvanlar da yaşamaq nemətinə malikdirlər və bir müddət dünyada həyat sürürlər. Görəsən, onlar da saleh əməl sahibləri kimi dünya və axirət səadətinə çata bilərlərmi? Səbəb nədir?

İnsanın heyvanlar və bitkilərdən fərqinin biri də təfəkkür və düşünmək qüdrətidir. Biz insanlar bu dəyərli nemətdən istifadə etməklə dünyada xoşbəxtliyə çatmaqla yanaşı, daha yaxşı həyatda yaşamaq üçün düşünə və İlahi peyğəmbərlərin köməyi ilə öz xoşbəxtliyimiz üçün ən yaxşı yolu seçə bilərik.

İslam dinində İlahi nişanələrin üzərində haqqında təfəkkür etmək o qədər əhəmiyyətlidir ki, sevimli peyğəmbərimiz həzrət Muhəmməd (s) bunu bir çox digər ibadətlərdən daha üstün hesab etmiş və buyurmuşdur:[1]

*"Allahın nişanələri haqqında bir saat təfəkkür etmək saatlarla ibadət etməkdən daha üstündür".*[2]

Təəssüf ki, insanlar arasında düşünmə qabiliyyətinə malik olub Allahın bu nemətindən istifadə etməyənlər də vardır. Onların gözü var, lakin gördüklərindən ibrət almırlar; qulağı var, amma (Allahın əmrlərini) eşitmək üçün ondan istifadə etmirlər.

Mütaal Allah (qəlbləri) kar və lal olan bu dəstədən olan insanları heyvanlardan da azğın hesab etmiş[3] və onları canlıların ən pisi olaraq[4] tanıtdırmışdır.

Necə düşünürsüz, nə üçün İslam dini təfəkkür və düşünməyə bu qədər əhəmiyyət verir?

Görəsən, dünyada yaşamaq üçün düşünmədən doğru yol seçmək olarmı?

## Özünü sına

1. Buludların hərəkəti ilə zamanın keçməsi arasında hansı oxşarlıqlar var?
2. Sadəcə ömür sürmək bizim dünyada və axirətdə xoşbəxtliyimiz üçün kifayətdirmi? İzah edin.
3. Hikmətli Allah kimləri heyvanlardan daha azğın hesab edir? Nə üçün?

---

1. Kafi, c. 2, səh. 54.
2. Unutmaq olmaz ki, İslam dinində gündəlik namazlar kimi vacib əməlləri əvəz edə biləcək heç bir əməl yoxdur.
3. Furqan surəsi, 44-cü ayə.
4. Ənfal surəsi, 22-ci ayə.

**Daha yaxşı anlamağın yolu**

Tarix boyu öz təfəkkür və düşüncə qüdrətini mehriban Allah tərəfindən bəxş edilən bir hədiyyə hesab edən imanlı mütəfəkkirlər bu dəyərli nemətin inkişafı və qorunması üçün dualar etmiş, öz münacatlarında daim Allahdan istəmişlər ki, doğru düşünmək və məsələləri düzgün anlamaq üçün onlara kömək olsun.

Dahi İran filosofu və alimi İbn Sina deyir: "Müxtəlif mürəkkəb fəlsəfi məsələlərin həlli barədə uzun müddət düşündükdən sonra aciz qaldıqda və bütün qapılar üzümə bağlandıqda məscidə gedər və iki rəkət namaz qılardım. Namazdan sonra Allaha dua edər və Ondan istəyərdim ki, məsələlərin həllində mənə yardım etsin. Beləcə, bir çox elmi məsələləri Uca Allahın köməyi ilə həll edirdim".



**İlahi!**
Ey mehriban Yaradan, şükür Sənə!
Şükür Sənə ki, mənə həyat vermisən
Səni tanıyım və sevim deyə.
**Allahım!**
Ey mənə düşünmək qüdrəti bəxş edən kəramət sahibi!
Düşünmədən bir iş görməməyim üçün mənə kömək ol!
**Pərvərdigara!**
Ey böyük Alim!
Ey O kəs ki, təfəkkürü mənim üçün sərmayə qərar verdin
və heç bir ibadəti ondan üstün hesab etmədin,
Muhəmməd və Ali Muhəmmədə salavat göndər
və düşüncəmi hidayət olunmağım üçün vasitə qərar ver![1]
Arzu edirsənsə, sən də bir neçə cümlə ilə Allahla danış.

..............................................................................
..............................................................................
..............................................................................

---
1. Bu dua ixtisarla "Mənim Allahım" kitabından götürülmüşdür.



# Üçüncü dərs

## Allahdan kömək istəmək

Bir gün Harunun (Abbasilərin məğrur və zülmkar xəlifələrindən biri) saray əyanı onun hüzurunda oturub yaltaqlıqla məşğul olanda öz hazırcavablığı ilə məşhur olan Bəhlul içəri daxil oldu.

Harun üzünü Bəhlula tutub dedi: "Ey Bəhlul! Bizi çoxdandır tanıyırsan, sarayımıza gəlirsən, lakin başqalarının əksinə bizdən bir şey istəməmisən. Bu gün bizdən bir şey istə, onu sənə verək!"

Bəhlul bir az fikirləşib dedi: "Ey böyük xəlifə! Mən günahlarıma görə nigaranam, qorxuram Qiyamətdə əzab görməyimə səbəb olsunlar. Sizdən günahlarımı bağışlamanızı istəyirəm".

Xəlifə ucadan gülüb dedi: "Ey nadan! Mən özüm bilmirəm Qiyamət günü vəziyyətim necə olacaq, həmin gün səni necə xilas edə bilərəm?! Başqa bir şey istə!"

- Ey xəlifə, mənim bədənim çox zəifdir və tez xəstələnirəm. Sizdən istəyirəm ki, xəstəlikləri məndən uzaqlaşdırasınız.

Harun bu dəfə narahatlıqla dedi: "Bu iş də mənim əlimdən gəlməz, başqa bir şey istə".

- Hörmətli xəlifə, bu geniş ölkə və bütün sakinləri sizə tabedir, düzdür?
- Əlbəttə, biz bu torpaqların soltanıyıq.
- Mən istirahət etmək istədikdə ağcaqanadlar və milçəklər mənə mane olur, qoymurlar yatım. Mümkünsə, onlara əmr edin ki, mənimlə işləri olmasın, mən də rahatca istirahət edə bilim.

Əsəbindən nəzarətini itirən Harun qışqırdı: "Nadan! Bunlar nədir məndən istəyirsən?! Nə üçün məndən heç kəsin öhdəsindən gələ bilməyəcəyi şeyləri istəyirsən? Olmaya bizi ələ salırsan?"

Bəhlul sakit, lakin möhkəm səslə dedi: "Hörmətli xəlifə, mən sizi ələ salmaq istəmirdim. Fəqət ..."

Bəhlul bu sözü dedikdən sonra ətrafdakıların sükut və heyrəti arasında sarayı tərk etdi.

Sizcə, Bəhlul bu istəkləri dilə gətirməklə nə demək istəyirdi?

Biz müsəlmanlar gün ərzində ən azı on dəfə "Həmd" surəsini oxuyuruq və orada belə deyirik:

*"(İlahi!) Yalnız Sənə ibadət edirik və yalnız Səndən imdad diləyirik!"*
*(Fatihə surəsi, 5-ci ayə)*

اِيّاکَ نَعبُدُ وَاِيّاکَ نَستَعين

**Bilirsiniz nə üçün belə deyirik?**

Əgər həyatımız barədə bir az düşünsək, anlayarıq ki, biz bütün gündəlik ehtiyaclarımızı təkbaşına qarşılaya bilmərik və çətinlikləri həll etmək üçün başqalarının köməyinə möhtacıq.

Digər tərəfdən, başqa insanlar da bizim kimidir. Yalnız uca və bənzərsiz Allah başqalarına möhtac olmadan hamıya kömək edə bilər. Deməli, hamının Allahdan kömək diləməsi təbiidir. Bəs biz Allahın köməyindən daha çox necə bəhrələnə bilərik?

Allahdan necə yardım istəyək?

**1. Dua etmək**

Allahdan yardım və kömək diləməyin ən mühüm və sadə yolu dua etməkdir. Mehriban Allah Qurani-kərimdə buyurur:

*"Bəndələrim Məni səndən soruşanda (de ki,) Mən (onlara) yaxınam. Məni çağıranda çağıranın səsinə səs verirəm".*
*(Bəqərə surəsi, 186-cı ayə)*

وَ اِذا سَألَکَ عِبادی عَنّی فَاِنّی قَريبٌ اُجيبُ دَعوَةَ الدّاعِ اِذا دَعانِ

Bu ayə aydın şəkildə göstərir ki, Allah bəndələrinin heç birinin duası Yaradandan gizlin qalmır və O heç kəsin istəyini cavabsız qoymur. Düzdür, bəzən Allahdan məsləhətli olmayan şeylər də istəyirik. Allah həmin istəyin bizim xeyrimizə və ya zərərimizə olduğunu hər kəsdən daha yaxşı bilir və onun əvəzində daha faydalı, daha münasib bir şey bəxş edir.

Allahın Rəsulu (s) bu növ dualar barədə buyurur:

*“Allah Ona dua edən hər bir müsəlmanın duasını ya bu dünyada müstəcab edər, ya həmin duanı Qiyamətdə onun üçün saxlayar, yaxud da həmin duanın müqabilində onun günahlarının bir hissəsini bağışlayar”.* *(Biharul-ənvar, c. 90, səh. 378)*

**Duanın qəbul olunmasında olan maneələr**

Mehriban Allah Öz lütfü və rəhməti ilə bütün məxluqlarına qarşı diqqətlidir və heç bir dua Ondan gizlin deyil, lakin bəzi əməllər Allahın nəzərində yanında o qədər pisdir ki, kimsə onları yerinə yetirsə, həmin şəxsin duası qəbul olunmaz.

❀❀❀

"...İsrail oğulları qıtlıq və quraqlıqla üzləşdi, çaylar və bulaqlar qurudu, bütün əkinlər və heyvanlar tələf oldu. Qıtlıq o qədər uzun çəkdi ki, insanlar aclıqdan hətta ölü heyvanların ətini də yeyirdilər.

Camaat Allahdan kömək istəmək üçün bir yerə toplaşıb səhraya getdi və ah-zar ilə dua etməyə başladı. Üstündən xeyli müddət keçsə də yağışdan əsər-əlamət olmadı və insanlar kor-peşman evlərinə qayıtdılar.

Allah Öz peyğəmbərinə vəhy göndərib buyurdu ki, İsrail oğullarının yanına gedib belə desin: “Evlərində başqalarının əlindən zorla aldıqları mallar var. Onları sahiblərinə qaytarmayınca, hər nə qədər dua etsələr də qəbul olunmayacaq.”

İsrail oğulları qəsb etdikləri və haram yolla əldə etdikləri malları sahiblərinə qaytarmağa başladı. Bütün mallar öz sahiblərinə qaytarıldıqdan sonra göydə yağış buludları peyda olmağa başladı və uzunmüddətli quraqlıqdan sonra Allahın rəhməti həmin torpaqlara nazil oldu".

## Sinif işi

İsrail oğullarının başına gələn hadisə duanın qəbul olunmasına mane olan halların birinə (haram yolla var-dövlət əldə etmək) işarə edir. Siz də sinifdə hörmətli müəlliminizin köməyi ilə duanın qəbul olunmasına mane olan digər hallar barədə danışın.

Namaz dua üçün ən yaxşı məqamdır. Namaz qılan şəxs bu ibadətin müxtəlif hissələrində (Fatihə surəsi, qunut, ruku və səcdələrdə) Allahla danışır və Ondan kömək istəyir. Bu zaman insanın Allaha diqqəti daha çox olur, Allah isə daha çox rəhmət və lütfü ilə onunla davranır.

İmam Sadiq (ə) buyurur:

*"Həzrət Əli böyük çətinliklərlə üzləşdikdə namaza sığınırdı. Elə isə dünyanın çətinliklərindən biri sizi qəmləndirdikdə dəstəmaz alın və məscidə gedib iki rəkət namaz qılaraq hacətlərinizi Allaha deyin".* *(Vəsailuş-şiə, c. 8, səh. 139)*

**2. Səbir və təqva**

Duadan başqa, Allahın köməyinə səbəb ola biləcək daha hansı əməlləri tanıyırsınız?

Məlum olduğu kimi, Uhud müharibəsindən sonra müsəlmanların gücü-qüvvəsi tükənmişdir. Çox sayda şəhid var idi, qalanları da ağır yaralanmışdı.

Müşriklər Məkkəyə qayıdarkən yarı yolda öz özlərinə fikirləşdilər: "İndi ki qalib gəlmişik, niyə işi kökündən həll etməyək? Yaxşı olar ki, Mədinəyə hücum edib sağ qalan müsəlmanları da öldürək və şəhəri qarət edək. Bununla da həmişəlik Muhəmməd və onun tərəfdarlarından qurtulmuş olarıq..."

Bir müddət keçdikdə müsəlmanlara xəbər çatdı ki, müşriklər yenidən onlara tərəf hərəkət edir. Çox çətin bir şərait yaranmışdı. Onların döyüşməyə taqəti qalmamışdı.

Müsəlmanlar ümidsiz olduqları zaman vəhy mələyi həzrət Peyğəmbərə (s) mühüm bir xəbər gətirdi. Bu xəbər müsəlmanlara elə bir ruh yüksəkliyi verdi ki, hətta bədənində onlarla yarası olan da kafirlərlə mübarizəyə qoşuldu:

بَلَىٰ إِن تَصبِروا وَ تَتَّقوا وَ يَأتوكُم مِن فَورِهِم هٰذا يُمدِدكُم رَبُّكُم بِخَمسَةِ آلافٍ مِنَ المَلائِكَةِ مُسَوِّمينَ

*"Bəli, əgər (bu gün də) dözümlülük göstərib təqvalı olsanız, onlar qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan və əlaməti olan mələklə sizə yardım edər".*

*(Ali-İmran surəsi, 125-ci ayə)*

Bu ayələr nazil olduqdan sonra müsəlmanlar var gücü ilə döyüş meydanına doğru hərəkət etdilər. Müşriklər inana bilmirdilər ki, bu böyük ruh yüksəkliyi olan ordu elə həmin məğlub edilmiş ordudur. Onlar üzərlərinə gələnləri yeni döyüşçülər sanıb qorxudan qaçmağa başladılar.

## Sinif işi

Dostlarınızla bu mövzunu müzakirə edin və Uhud müharibəsindən sonra baş verən hadisələrdə səbir və təqva nümunələrini bəyan edin.

**Oruc - səbrin təzahürü**

İnsanın səbrini möhkəmləndirən və onu təqvalı edən əməllərdən biri də oruc tutmaqdır.

Oruc tutan mömin ixtiyarında su və yemək olduğu və onlardan istifadə edə bildiyi halda Allahın razılığı üçün aclığa və susuzluğa dözür. O, bu işlə səbir və dözüm nümayiş etdirir və Allahın istəyini öz istəyindən üstün tutur. Aydındır ki, mehriban Allah belə bir şəxsə digərlərindən daha çox kömək və onu öz işlərində müvəffəq edər.

İmam Sadiq (ə) buyurur:

*"Hər kim böyük bəla ilə üzləşsə, oruc tutsun. Belə ki, Allah-taala buyurur: "Səbirdən yardım alın". Burada "səbir" dedikdə oruc tutmaq nəzərdə tutulur".* *(Kafi, c.4, səh. 63)*

## Özünü sına

1. İzah edin: Nə üçün Bəhlul heç vaxt Harundan bir şey istəmirdi?
2. Bəzən insanlar dualarında özlərinin zərərinə olan bir şey istəyirlər. Allah bu duaları qəbul edirmi? Həzrət Muhəmməd Peyğəmbərin (s) bu haqda buyurduğu sözlərini izah edin.
3. Müsəlmanların yeni güc almasına və müşriklərin qaçmalarına səbəb olan Allahın mühüm kəlamını qısa şəkildə bəyan edin.
4. Oruc tutmağın necə Allahın köməyindən daha çox bəhrələnməmizə səbəb olduğunu izah edin.

## Təklif

"Fil" surəsini oxuyun və məna baxımından Uhud döyüşü ilə oxşar cəhətlərini müəyyən edin. Bu oxşarlıqları qeydə alın və bu haqda sinif yoldaşlarınızla müzakirə edin.

Tarixdə təkrar-təkrar baş vermiş bu kimi hadisələrdən nə anlayırıq?



## İlahi!

**Allahım!**
Sənə şükürlər olsun ki, ən kamil dini mənə nəsib etdin və məni dinini sevən qərar verdin.
Ey Alim, ey Qadir,
Sən Özün insanı hər kəsdən yaxşı tanıyırsan,
onun zəif və güclü cəhətlərini bilirsən.
Onu da bilirsən ki, elmi az, qanunları isə naqisdir.
**İlahi!**
Elə isə Muhəmməd və onun ailəsinə salavat göndər və mənə kömək ol.
Kömək ol ki, Sənin qanununu, yəni dinini tanıyım,
daim onu sevim,
və ona əməl edim,
Ey mərhəmətlilərin ən mərhəmətlisi ...

Arzu edirsənsə, sən də bir neçə cümlə ilə Allahla danış.

................................................................................
................................................................................
................................................................................

# İkinci fəsil: Yol və azuqə

Əvvəlki fəsildə öyrəndik ki, yaradılış aləmi bütün genişliyi və möcüzələri ilə insanın ondan faydalanması və ixtiyarında olan dəyərli sərmayələrlə (məsələn: yaşamaq fürsəti, düşünmək qabiliyyəti) Allahın Cənnətinə doğru hərəkət etməsi üçün yaradılıb.

Bu fəsildə hədəfimizə çatmaq üçün bizə kömək edə biləcək əməlləri bəyan edəcəyik.

Hazırkı fəsil üç dərsdən təşkil olunub: **Din: sonsuz xəzinə, "Səmanın nərdivanı" və "Bir qızıl fürsət".**

• Dördüncü dərs (Din: sonsuz xəzinə) dinsiz cəmiyyətlərin bəzi problemlərini göstərməklə dinin insanların xoşbəxtliyində təsiri və bizim bu İlahi nemət qarşısında məsuliyyətimizi bəyan edir.

• Beşinci dərs (Səmanın nərdivanı) namazın bəzi qaydalarını və onların üstünlüklərini bəyan etməklə yanaşı namaz qılanın geyimi və məkanı məsələlərini izah edir.

• Altıncı dərs (Bir qızıl fürsət) əvvəlcə Ramazan ayının bəzi xüsusiyyətlərini, oruc tutmağın faydalarını və sonda oruca aid hökmləri bəyan edir.



# Dördüncü dərs

## Din: sonsuz xəzinə

Sizə təəccüblü gələcək....

İyirmi birinci əsrdə, bəşərin inkişafın zirvəsinə çatdığını iddia etdiyi bir zamanda, uca və gözəl binalarını, yollarını müxtəlif kütləvi informasiya vasitələrində izlədiyimiz bəzi nəhəng və inkişaf etmiş ölkələrdə bizim inanmayacağımız hadisələr baş verir. Onlardan bəzilərini qeyd edək:

Dünyanın ən böyük və ən çox əhalisi olan ölkələrdə hələ də insanların bir hissəsi heyvanlara, cansız bütlərə pərəstiş edirlər.

İl ərzində bütün dünya üzrə 40 milyondan çox körpə dünyaya göz açmamış analarının istəyi ilə öldürülürlər. Bu vəhşi əməl dünyanın əksər inkişaf etmiş ölkələrində tamamilə qanunidir.

ABŞ-da hər 31 saniyədə bir nəfər qətlə yetirilir. Bu ölkədə il ərzində 800 mindən çox uşaq yoxa çıxır ki, onların da yalnız yarısının cəsədi tapılır, qalanlarından isə heç vaxt xəbər çıxmır.[1]

Dünyada hər saatda 266 nəfər spirtli içki qəbul etdiyinə görə həyatını itirir.

Sionist işğalçılar fələstinli uşaqları və cavanları həbsxanalarda öldürməmişdən əvvəl onların daxili orqanlarını çıxarıb satırlar.

Bəzi avropa ölkələrində əhalinin yarısından çoxu itlərinə ailə üzvlərindən daha çox bağlıdır.

Bu xoşagəlməz vəziyyət sizə tarixin hansı dövrünü xatırladır?

❀❀❀

Ərəb yarımadasının cahiliyyə dövründəki vəziyyətini xatırlayırsınızmı?

Həmin dövrdə qılıncların səsi və acı çəkən anaların ah-naləsi heç vaxt kəsilmirdi. Çox sayda körpələri məhz qız olduqlarına görə amansızcasına diri-diri torpağa basdırılırdı.

---

1. ABŞ-ın əhalisi təqribən 310 milyon nəfərdir. Bu dövlətin ədliyyə nazirliyinin və federal polisin (FBİ) verdiyi məlumata görə, ölkədə il ərzində 4 milyon nəfər ölür . 4 milyondan 1 milyon nəfərdən çoxu qətlə yetirilirlər. Qeyd olunan məlumatlar ABŞ-ın ədliyyə nazirliyinin saytına (www.justice.gov) istinadən təqdim edildi.

İnsanların yeməyi - iylənmiş leş əti, həmdəmi ilanlar və kərtənkələlər idi.
Xəyanət etmək - fəxr, öldürmək isə güc-qüdrət əlaməti idi.

Həzrət Əli (ə) bu dövr haqqında buyurur:

*"Allah dünya əhlini İlahi əzabla qorxudan və özünə nazil edilənə əmin olan Muhəmmədi göndərdi. Siz, ey ərəb qövmü, o vaxt ən pis (şirk və bütpərəstlik olan) dinə etiqad edir, ən pis yerdə yaşayırdınız. Çirkab suyu içir, ikrah doğuran yeməklər yeyir, bir-birinizin qanını tökür, qohumlardan uzaq gəzirdiniz. Siz fəsad və günaha mürtəkib olmuşdunuz".* *(Nəhcül-bəlağə, 26-cı xütbə)*

## Sinif işi

Sizcə, bu iki dövrdə yaşayan insanların rəftarında hansı oxşarlıqlar var?
Bu oxşarlıqların səbəbini nədə görürsünüz?

**Xoşbəxtlik yolu**

Həzrət Muhəmməd peyğəmbərin (s) besətindən sonra qısa müddət ərzində hər şey dəyişdi.

Uzun illər düşmən olanlar səmavi din olan İslamı qəbul etməklə bir-birinin din qardaşına çevrildilər. Yalnız barmaqla sayıla bilən qədər yazıb-oxumağı bacaran bir diyarda az müddət ərzində minlərlə tələbə və müəllim yetişdi. Bu məmləkətdə daha qızlar diri-diri torpağa basdırılmır, daş və ağac heykəllərə pərəstiş edilmir və kimsə dərisinin rənginə görə təhqir olunmurdu.

Bunlar dinin insanlara verdiyi saysız-hesabsız töhfələrinin yalnız bir hissəsi idi.

Qurani-kərim bu mühüm məsələni möminlərə xatırladaraq buyurur:

وَاذْكُرُواْ نِعْمَتَ اللّهِ عَلَيْكُمْ إِذْ كُنتُمْ أَعْدَاءً فَأَلَّفَ بَيْنَ قُلُوبِكُمْ فَأَصْبَحْتُم بِنِعْمَتِهِ إِخْوَانًا وَكُنتُمْ عَلَىَ شَفَا حُفْرَةٍ مِّنَ النَّارِ فَأَنقَذَكُم مِّنْهَا.

*"Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlbləriniz arasında ülfət yaratdı və Onun neməti sayəsində qardaş oldunuz. Siz oddan olan bir quyunun kənarında ikən, O sizi oradan xilas etdi".*[1]

Əsrlər keçməsinə baxmayaraq, hal-hazırda da bəziləri güman edir ki, onların elmi inkişafı xoşbəxtlik yolunu tapmaq üçün kifayətdir. Bu səbəbdən də mehriban Allahın hidayətinə ehtiyac duymur və Peyğəmbərlərin təlimlərinə etinasızdırlar. Onlar xoşbəxtliyə çatmaq üçün hər yolu sınayırlar, lakin yenə də düşdükləri təəssüfedici vəziyyətdən özlərini xilas edə bilmirlər. Belə ki, yalnız özlərinin məhdud təcrübə və elmlərinə söykənirlər.

Hikmətli Allah bu yanlış təsəvvürü aradan aparmaq üçün buyurur:

كَما أَرسَلنا فيكُم رَسولاً مِنكُم يَتلو عَلَيكُم آياتِنا وَ يُزَكّيكُم وَ يُعَلِّمُكُمُ الكِتابَ وَ الحِكمَةَ وَ يُعَلِّمُكُم ما لَم تَكونوا تَعلَمونَ.

*"Həmçinin (qibləni dəyişməklə nemətimi tamamladığım kimi) sizə ayələrimizi oxumaq, sizi təmizləmək, kitabı, hikməti və bilmədiklərinizi öyrətmək üçün sizə öz içərinizdən bir peyğəmbər göndərdik".*[2]

1. Ali İmran surəsi, 103-cü ayə.
2. Bəqərə surəsi, 151-ci ayə.

Onlar yaxşı bilirlər ki, dinin təlim və göstərişlərindən heç biri sübutsuz və faydasız deyil. Əgər həmin əməlin səbəbini bilməsək belə, yenə də bu göstərişə əməl etmək bizim səadətimizə zəmanət verir.

Biz hamımız əvvəllər getmədiyimiz və tanımadığımız Cənnətə doğru gedən uzun bir yolu qət etməkdəyik. Bilikli və şəfqətli bir bələdçi olmadan bu yolu getmək oxunmayan dərsdən imtahan vermək kimidir.

Buna görə də mehriban Allah köməyimizə peyğəmbərlər göndərib ki, onlar özləri bu yolu tanıyır və bizə də məqsədə çatmaq üçün özümüzlə hansı azuqəni götürməli olduğumuzu öyrədirlər.

## Sinif işi

Dinin insanın xoşbəxtliyində əhəmiyyətini və bənzərsiz təsirini nəzərə alaraq, bizim din qarşısında vəzifəmiz nədir?

**Dini müdafiə etmək**

İslam tarixinə nəzər saldıqda anlayırıq ki, müsəlmanlar İslamın meydana gəldiyi ilk dövrdən etibarən daim Allahın sonuncu və ən kamil olan dini var gücü ilə qorumuşlar. Onlar dinin dünya və axirət səadətinə çatmağın yeganə yolu olduğunu bildiklərinə görə onu canlarından da əziz tuturdular. İslamı hər hansı bir təhlükə təhdid etdikdə, öz canlarını fəda edərək Allahın dinini qoruyurdular.

“... Mən ona görə cəbhəyə gəldim ki, Quranın İslamın təhlükədə olduğunu görürdüm. Müsəlman olduğum üçün İslamı və vətənimi qorumalı idim. Tarix boyu bu dinin ayaqda qalması üçün İmam Hüseyn (ə) və dostları kimi, cəbhədəki şəhidlərimiz kimi çoxlu qurbanlar verilib. Buna görə də onu müdafiə etmək mənə vacib idi. Böyük çətinliklər hesabına qorunub saxlanılan və müsəlmanların (onu müdafiə etmək üçün) dözümlülük göstərdikləri İslam dinini müdafiə etmək mənə vacib idi...”[1]

1. Şəhid Ramazan Amirinin vəsiyyətnaməsinin bir hissəsi.

## Daha çox bilək

Onu ilk dəfə görən hər kəs çiyinlərinin sağlam insanların çiyni ilə fərqləndiyini anlayırdı. Gənc qızlar və xanımlar Uhud döyüşünün əhvalatını bir neçə dəfə eşitdikləri halda yenə də istəyirdilər ki, Nusəybənin özü qolu ilə bağlı əhvalatı onlara danışsın ...

❀❀❀

"O zamanlar müharibə baş verdikdə qadınlar da döyüş meydanına yaxın əraziyə gəlir, yaralılara qulluq edir və döyüşçülərə su çatdırırdılar.

Döyüş günü ərim və iki oğlum Allahın Rəsulu (s) ilə birlikdə Uhuda yollandılar. Mən də bir qab su və yaralıların yarasını bağlamaq üçün parça götürüb yola düşdüm.

Həmin anlar döyüşəcəyim heç ağlıma da gəlməzdi!

O gün müsəlmanlar kafirlərdən sayca az olsalar da döyüşün əvvəlində kafirləri məğlub etdilər, onlar da qaçmağa başladılar. Müsəlmanların bir qrupu döyüşün bitdiyini güman edib silahları yerə qoydular və qənimət toplamağa başladılar. Hətta Uhud keçidini mühafizə edənlər də digər müsəlmanların qənimət topladıqlarını gördükdə, Peyğəmbərin (s) onlara heç bir vəchlə öz yerlərini tərk etməməli barədə tapşırığına məhəl qoymayaraq öz yerlərini tərk edib başqaları kimi qənimət toplamağa başladılar.

Uzaqdan bunu görən kafirlər birləşib onların arxasından, yəni Uhud keçidindən silahsız müsəlmanları haqlayıb

hücum etdilər. Çox sayda müsəlman öldürüldü, bir hissəsi yaralandı, qalanları da qaçmağa başladı. Yalnız Əli ibn Əbu Talib və Peyğəmbərin (s) əmisi Həmzə kimi az sayda həqiqi müsəlmanlar Allah Rəsulunu dövrəyə alıb müşriklərlə döyüşməyə başladılar.

Vəziyyət çox ağır idi, çox nigaran idim. İlahi, Peyğəmbərin (s) başına bir iş gəlməsin! Hiss etdim ki, din təhlükədədir. Əgər kafirlər bu az sayda müsəlmanı da öldürsələr, daha mənim dinimdən heç nə qalmayacaq!

Dözə bilmədim. Su qabını yerə atıb döyüş meydanına tərəf yollandım.

Kafirlərdən biri qışqırırdı: "Muhəmməd haradadır? Muhəmməd özü haradadır?"

Özümü ona çatdırdım və bir neçə qılınc zərbəsi endirdim. Birdən gördüm ki, əyninə üst-üstə iki zireh geyinib və mənim zərbələrim ona təsir etmir. Əlindəki qılıncla mənim çiynimə möhkəm bir zərbə endirdi və əlimdən qan fəvvarə vurdu.

Həzrət Peyğəmbər (s) özünü müdafiə etdiyi halda oğullarımdan birini səsləyib buyurdu: "Tez get, ananın yarasını bağla!"

Oğlum çiynimin yarasını bağladı. Qılıncı götürüb yenə Peyğəmbərə (s) yaxınlaşdım. Mən döyüşü davam etdirirdim, bu zaman oğullarımdan biri yaralandı. Dərhal özümü ona çatdırdım və yarasını bağlayıb dedim: "Tez ol, özünü Peyğəmbərin (s) yanına çatdır..."

Döyüş bitdikdən sonra həzrət Peyğəmbər (s) düşmənlərdən arxayın olmaq üçün onları təqib etməyi əmr etdi. Mənim bədənimdə bir neçə yara olduğu və çoxlu qan itirdiyim üçün daha davam edə bilmədim. Vəziyyətim çox ağır idi və yaşamağa heç ümidim yox idi. Çox çətinliklə döyüş meydanını tərk etdim.

Həmin gün İslam ordusu Mədinəyə qayıdanda Allahın Rəsulu (s) öz evinə getməmişdən əvvəl bir nəfəri mənim halımı soruşmaq üçün evimizə göndərdi.

Eşitdim ki, Peyğəmbər (s) sağ qaldığımı öyrənəndə çox sevinib, buna görə də xoşbəxtliyimin həddi-hüdudu yox idi.[1]

Öz özümə dedim: "Düzdür, yaralandım və çiynim çox ağrıyır, amma əvəzində bacardığım qədər Allahın Rəsulunu (s) və öz dinimi müdafiə etdim. Bu, Nuseybənin salamatlığından daha önəmlidir..."[1]

## Özünün sına:

1. İnsan Allahın göstərişlərindən istifadə etmədən xoşbəxtliyinə səbəb olan və maneə törədən amilləri əvvəlcədən bilərmi? İzah edin.

2. Peyğəmbərlərin hidayəti necə insanın dünyada və axirətdə xoşbəxtliyinə səbəb olur? İzah edin.

3. Necə düşünürsüz, əgər müsəlmanlar öz dinlərinin təlimlərinə diqqətli yanaşmasalar, onların aqibəti necə olacaq? Onların vəziyyəti dinsiz cəmiyyətlərin vəziyyətindən fərqlənəcəkmi?

---

1. Ustad Şəhid Mürtəza Mütəhhəri "Doğruların dastanı" ("Şərhi İbn Əbul-Hədid" əsərinə istinad olunur), c. 3, səh. 568-570).



# Beşinci dərs

## Səmanın nərdivanı

Əmirəl-möminin Əli (ə) buyurub:

**“Ey camaat, namazlarınızda diqqətli olun və namaz vasitəsilə Allaha yaxınlaşın. Eşitməmisinizmi ki, Cəhənnəm əhlindən: “Hansı əməl sizi buraya sürüklədi?” - deyə soruşduqda, onlar deyərlər: “Biz namaz qılanlardan deyildik!” Doğrudan da namaz vasitəsilə günahlar payız yarpaqları kimi yerə tökülür və günahların zənciri boyunlardan açılır. Allahın Rəsulu (s) namazı evin qarşısında olan bulağa bənzətmişdir ki, insan hər gün beş dəfə orada yuyunur və təmizlənir. Buna görə də heç vaxt onun bədənində çirk qalmaz”.**[1]

❁❁❁

Din rəhbərlərinin İslam hökmləri arasında namaz qədər təkidlə vurğuladığı və şiddətlə tövsiyə etdiyi başqa bir əməl yoxdur. İslam dinində bu böyük ibadət o qədər əhəmiyyətlidir ki, onu dinin sütunu və möminlərin meracı[2] adlandırırlar. Namazı tərk etmək insanı küfür və imansızlıq sərhədinə qədər aparıb çıxara bilər.

Görəsən, hər namaz insanın Allaha doğru ucalmasına səbəb olurmu?

Biz necə namaz qılmalıyıq ki, Allahın daha çox diqqətini özümüzə cəlb edə bilək?

**Namazın ədəbləri**

Keçən il namazın bəzi ədəbləri ilə tanış olduq.

Namazı vaxtında qılmaq, qılarkən təmiz paltarlar geyinmək və özünü səliqəyə salmaq bu ədəblərdəndi.

---

1. Nəhcül-bəlağə, 199-cu xütbə.
2. Merac - Allaha doğru ucalmaq vasitəsi.

Bu dərsdə sizi namazın digər hökmləri və ədəbləri ilə tanış edəcəyik. Bu qaydalara əməl etmək namazı Uca Rəbbimizin nəzərində daha dəyərli edə bilər.

**Namazdan əvvəl azan və iqamə oxumaq**

Həzrət Əli (ə) buyurur:

*"Azan və iqamə deyib namaza dayanan şəxsin arxasında mələklərdən ibarət ucu-bucağı görünməyən iki sıra namaza duracaqdır. Yalnız iqamə deyib namaza başlayan şəxsin arxasında isə mələklərdən ibarət bir sıra namaza duracaqdır".* *Vəsailuş-şiə, c. 5, səh. 371*

Bu nurani hədis namaz və iqamənin namazın tamamlanmasındakı yüksək dəyərini gözəl şəkildə bəyan edir. Azan və iqamənin mənasını xatırlayırsınızmı?

Allahı hər kəsdən böyük hesab etmək, Allahın birliyinə şəhadət vermək, həzrət Muhəmmədin (s) peyğəmbərliyini təsdiq etmək və ...

Bu məsələlər bütün dünya müsəlmanlarının ən ümdə əqidələridir ki, İslamın şüarı olaraq hər gecə-gündüz və hər namaz vaxtı uca səslə müsəlman şəhərlərinin və kəndlərinin səmasında əks-səda verir.

Əziz İslam Peyğəmbəri (s) bu dəyərli əməl barədə buyurur:

*"Bütün namaz qılanların savabının bir hissəsi müəzzinlərindir ki, insanlar onun azan səsi ilə namaza dururlar".*

*Vəsailuş-şiə, c. 5, səh. 371*

Din rəhbərlərinin azan demək barədə tövsiyələri müəzzinliyin bəyənilən və təqdirəlayiq bir əməl hesab olunmağına səbəb olmuşdur. Belə ki, müəzzinlər daim insanların etimad və əmanətdar hesab etdiyi, həmçinin digərləri ilə müqayisədə xüsusi etibara malik şəxslər olmuşlar.

**Məsciddə namaz qılmaq**

Məsciddə namaz qılmaq bu ibadətin digər ədəblərindən biridir ki, Allahın namaz qılana qarşı daha diqqətli olmasına səbəb olur. Həmçinin bu əməl özü ilə bərabər Allahın lütf və rəhmətini gətirir. İnsan məscidə getdikdə əslində, Allahın qonağı olur və aydındır ki, heç kəs qonaqpərvərlikdə Yaradandan daha böyük və qüdrətli ola bilməz.

İmam Sadiq (ə) buyurur:

*"Məscidə getməyə ciddi yanaşın, çünki məscidlər Allahın yer üzündəki evləridir. Hər kim təharətlə və təmiz halda məscidə getsə, Allah günahlarını silər və onu Öz ziyarətçiləri sırasında qərar verər".*

## Sinif işi

Sinifdə dostlarınızla birlikdə müzakirə aparıb namazın vacib hökmləri ilə ədəbləri arasındakı fərqləri izah edin. Bu işdə hörmətli müəlliminizdən də yardım ala bilərsiniz.

**Səhih namazın şərtləri**

Camaat namazı bitdikdən sonra Səid arxa sıradan gəlib mənim yanımda oturdu:

- Salam!

Mən həzrət Zəhranın (ə) təsbihatını deyə-deyə onun əlini sıxdım və salamını aldım.

Səid, sanki çox önəmli bir şey demək istəyirmiş kimi gözlərini mənə zilləmişdi, təsbihatımı bitirdikdən dərhal sonra dedi:

- Bilirsənmi ki, namazı təzədən qılmalısan?
- Nə üçün?
- Çünki indi qıldığın namaz batildir!

Çox təəccübləndim. Yenə soruşdum: - Nə üçün?

- Çünki köynəyinin qolunun arxasında qan ləkəsi var və nəcis paltarla namaz qılmaq olmaz.

- Əminsən?

- İnanmırsan? Bax, budur.

Çətinliklə köynəyimin qolunun arxasına baxdım və həmin ləkəni gördüm. Düz deyirdi, amma çox az, bəlkə də bir damcı idi.

- Amma bu çox kiçikdir. Əminsən ki, bu qədər qan namazı batil edir?

- İstəyirsən, gedib hacıdan soruşaq?

Birlikdə gedib məcsidimizin imam-camaatı hacı Həsənin yanında oturduq. Salamlaşandan və məsələni ona danışdıqdan sonra Səid dedi:

- Bağışlayın hacı, yəni Əlinin namazı batil deyil?

- Xeyr, çünki, birincisi özü namaz qılarkən paltarının nəcis olmasından xəbərsiz olub, ikincisi də Əlinin köynəyində olan qan ləkəsi balaca bir sikkədən  də kiçikdir.

- Onda mən bir neçə gün əvvəl kiçik qardaşımı qucaqlayanda və paltarım azca nəcis olanda onu namaz qılmaq üçün təmizləməyə məcbur deyildim?

- Bu miqdar yalnız qana aid olduqda icazəlidir, yəni əgər paltarınız və ya bədəniniz qandan başqa bir nəcisə bulaşsa, hətta bir damcı da olsa, onu namaz qılmaq üçün hökmən paklamalısınız.

- Hacı bağışlayın, mən eşitmişəm ki, əgər birinin corabı nəcis olsa onunla namaz qıla bilər. Bu düzdür?

- Baxın uşaqlar, əgər namaz qılan namazdan əvvəl paltarının və ya bədəninin nəcis olduğunu bilsə və bu vəziyyətlə namaz qılsa, batildir. Bundan əlavə, əgər paltarının və ya bədəninin nəcis olduğunu əvvəlcədən bilsə, lakin sonradan unudub onunla namaz qılsa, yenə də namazı batildir.

Lakin əgər namaz qılan namazdan əvvəl paltarının və ya bədəninin nəcis olduğunu bilməsə və namazdan sonra xəbərdar olsa, namazı səhih və düzgündür. Yalnız sonrakı namazlar üçün onları təmizləməlidir. Paltar sayılmayan nəcis corab, papaq və əlcəklə namaz qılmağın eybi yoxdur və namazı pozmur, bu şərtlə ki, quru olmalı  və onların nəcasəti bədənə və digər paltarlara bulaşmamalıdır. Bundan əlavə, namaz qılanın yeri və paltarı barədə digər şərtlər də var ki, onlara diqqət etməliyik:



Birincisi, namaz qılanın bədən və paltarından əlavə ibadət etdiyi yer (yəni səcdə olunan yer) də pak olmalıdır. Nəcis əşyaya səcdə etmək namazı batil edir.

İkincisi, namaz qılan qəsb[1] olunmuş yerdə namaz qılsa, ibadəti batil olar və həmin namazı başqa bir yerdə yenidən qılmalıdır.

Üçüncüsü, namaz qılanın paltarı qəsb edilmiş paltar olmamalıdır. Hətta əgər namaz qılanın paltarının düyməsi və ya bir hissəsi belə qəsbi olsa, onunla namaz qılmaq batildir.

Dördüncüsü, əgər insan haram yolla qazandığı pulla bir geyim alıb geyinsə, həmin paltarda namaz qılmaq olmaz.

Beşincisi, kişilərin üzük və boyunbağı kimi qızıl zinət əşyalarından istifadə etməsi haramdır və namaz qılarkən onları taxmaq kişilərin namazını batil edir.

Altıncısı, əti haram olan heyvanın dərisindən, yunundan, tükündən və digər üzvlərindən hazırlanmış geyimlə namaz qılmaq düzgün deyil. Hətta bu heyvanların kiçik bir hissəsi belə namaz qılanın üzərində olsa, namazı batil edər.

1. Qəsb - başqasına aid olan hər hansı bir şeyi icazəsiz istifadə etmək, zorla almaq.

## Sinif işi

Oxuduqlarımızı nəzərə alaraq, aşağıdakı cədvəldə qeyd olunan namazların hansı səhih, hansı batildir:

| Aşağıdakı qaydada namaz qılanın hökmü | Səhih | Batil |
|---|---|---|
| 1. Yaş paltarla nəcis xalçanın üzərində namaz qılır | | |
| 2. Bədəni nəcis olub, lakin özü bilmir və bu halda namaz qılır. | | |
| 3. Nəcis və quru corabla namaz qılır. | | |
| 4. Ayağı yaşdır və bu halda nəcis corabı ayağına geyinir | | |
| 5. Ayaqyoluna getdikdən sonra bədəninin nəcis olduğu yeri su ilə yumağı unudub. | | |
| 6. Qayışı inək dərisindəndir | | |
| 7. Pişiklə təmasdan sonra onun tükləri paltarının üzərində qalıb. | | |
| 8. Rüşvət alıb əldə etdiyi qazancla paltar alıb və bu geyimlə namaz qılır. | | |

## Təklif

Bəzi hallarda insan namaz qıldığı zaman bədəninin və ya paltarının nəcis olduğunu bilsə, namazı düzdür və onu davam etdirməlidir. Məsələn, kiminsə bədənini örtmək üçün yalnız bir paltarı olsa və namaz əsnasında onun nəcis olduğunu anlasa, həmin geyimlə namazını davam etdirə bilər.

Məlumatlı şəxslərlə məsləhətləşib onların köməyi ilə yuxarıda qeyd olunan hallardan başqa daha üç şərti tapın və onları sinifdə açıqlayın.

## Özünü sına

1. Əgər kimsə namazdan sonra bədəninin və ya paltarının nəcis olduğunu anlasa, namazını ikinci dəfə qılması vacibdirmi? İzah edin.
2. Ayağının altı yaş olan şəxs nəcis xalçanın üstündə namaz qıla bilərmi?
3. Qızıl boyunbağı və üzük taxmaq:

◯ Kişilərin və qadınların namazını batil edir.

◯ Yalnız qadınların namazını batil edir.

◯ Kişilərə haramdır və onların namazını batil edir.

◯ Bu kimi zinət əşyalarını taxmaq kişi və qadınların namazına heç bir təsir göstərmir.



# Altıncı dərs

## Bir qızıl fürsət

"Ey insanlar, Allahın böyük qonaqlığına dəvət olunmusunuz!

Üzünüzə gələn ay Allahın bərəkəti və bağışlanma ayıdır! Bu ayda nəfəslərinizin təsbih və yuxularınızın ibadət etmək qədər savabı vardır. Bu ayda əməlləriniz qəbul və dualarınız müstəcab olunur. Elə isə dua edin və Allahdan istəyin ki, sizi bu ayda oruc tutmağa və Quran oxumağa müvəffəq etsin.

Ey camaat, bu ayda yaxşı işlərin mükafatı digər aylardan 70 dəfə çoxdur. Hər kəs bu ayda çox salavat çəksə, Qiyamətdə yaxşı işləri ağır gələr. Hər kim bu ayda bir Quran ayəsi oxusa, bütün Quranı tilavət edənin savabını qazanar.

Ey insanlar, hər kim bu ayda bir oruc tutana iftar versə, Allah keçmiş günahlarını bağışlayar. Bu ayda əxlaqını gözəlləşdirən şəxs Qiyamətdə Sirat körpüsündən asanlıqla keçər. Hər kim bu ayda öz əlaltılarına qarşı yaxşı davransa, Allah da Qiyamətdə onunla yaxşı davranacaq".[1]

### Sinif işi

Əziz Peyğəmbərimiz (s) bu xütbəsində bizim axirət həyatımızda mühüm rol oynaya biləcək əməllərə işarə etmişdir.

Bu əməllərin üçünü bəyan edin və ölümdən sonrakı həyatda təsirləri barədə dostlarınızla müzakirə edin.

---

1. Həzrət Muhəmməd Peyğəmbərin (s) mübarək Ramazan ayılnın başlanması ərəfəsində etdiyi xütbənin bir hissəsi, Şeyx Səduq, "Əmali", səh. 93.

Biz hamımız Ramazan ayının ab-havasını təcrübə etmişik və bu gözəl ayla bağlı xatirələrimiz vardır. Bu xatirələr o qədər şirin olur ki, Ramazan ayı bitdikdən sonra onun gözəl obaşdanları və iftarları üçün darıxırıq və növbəti ildə gəlişini səbirsizliklə gözləyirik.

Quran qiraəti məclisləri, qonaqlıqlar və iftarlar, obaşdan oyanmaq, Qədr gecələri mərasimlərində iştirak etmək, iftar və obaşdan vaxtları müxtəlif dualar və münacatlar, - bütün bunlar bu ayı digər aylardan üstün edən əməllər və adətlərdir. Bəs Ramazan ayının digər aylardan əsas fərqi nədir?

❁❁❁

Ramazan ayında müsəlmanlara oruc tutmaq vacibdir.
Allahın Rəsulu (s) bu böyük ibadətin əhəmiyyəti barədə buyurur:

*"Oruc dünya çətinlikləri qarşısında bir sipər və axirət əzabı müqabilində bir qalxandır".* *(Misbahuş-şəriəh, səh. 135)*

Bu saleh əməl xüsusi əhəmiyyət daşıyır. Belə ki, din rəhbərləri insanlara mübarək Ramazan ayından başqa digər vaxtlarda da oruc tutmağı tövsiyə edərək qarşılığında Allah tərəfindən verilən dəyərli mükafatları da sadalayıblar.

Uca Rəbbimiz hansı faydasına görə oruc tutmağı bütün insanlara vacib buyurub?

## Orucun faydaları

### 1. Səbir və iradənin güclənməsi

Su arxlarının kənarında bitən ağaclara baxın. Onlar inkişaf etmək və böyümək üçün heç bir çətinliyə qatlaşmırlar.

Lakin dağlıq və suyu az olan ərazilərdə bitən ağaclar həyata davam etmək və möhkəm qalmaq üçün böyük çətinliklərlə üzləşirlər.

Sizcə, şiddətli bir tufan baş verdikdə bu ağacların hansı biri daha tez məhv olar?

Allahın əmri ilə oruc tutan şəxs aclıq və susuzluğun çətinliyinə dözür və ixtiyarında su, yemək olduğu halda onlardan istifadə etmir. Bu əməlin təkrar edilməsi insanın səbir və iradəsinin möhkəmlənməsinə səbəb olur.

Belə bir insan həyatın diqər məqamlarında, şeytanın vəsvəsəsi ilə üzləşdiyi hər yerdə Allahın köməyi ilə özünün möhkəm iradəsindən bəhrələnə və günahlara qarşı müqavimət göstərə bilər. Lakin ürəyi bir şey istədiyi zaman dərhal təslim olub ona sahiblənən şəxs şeytanın vəsvəsələrinə müqavimət göstərə bilməz və tez bir zamanda ona tabe olar.

### Sinif işi

Ağacların misalı ilə oruc tutmaq arasında hansı rabitə var? İzah edin.

**2. Yoxsullara diqqət**

Hamımız bu atalar sözünü eşitmişik: Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır?

Bəs bu atalar sözünün oruc məsələsi ilə nə əlaqəsi var?

Bir gün İmam Sadiqdən (ə) soruşdular: "Nə üçün Allah orucu insanlara vacib etmişdir?" İmam (ə) buyurdu:

*“Zənginlər heç vaxt aclıq dərdini hiss etmirlər, çünki istədiklərini əldə edə bilirlər. Buna görə də yoxsullara və aclıq çəkənlərə acımırlar. Mütaal Allah orucu insanlara vacib buyurdu ki, (bu ayda) hamı bərabər olsun, varlılar da aclığı dadsınlar, yoxsullara və ac insanlara qarşı mehriban olub onlara kömək etsinlər”.*

*(Mən la yəhzəruhul-fəqih, c. 2, səh. 73)*

**3. Sağlamlığın qorunması**

Xəstəliklərin çoxunun səbəbini bilirsinizmi?

Alimlərin və tədqiqatçıların araşdırmalarının nəticəsi göstərir ki, bir çox xəstəliklərin əsas səbəbi düzgün qidalanmama və çox yeməkdir. Buna görə də əksər mötəbər tibb kitablarının bir hissəsi düzgün qidalanma və çox yeməkdən çəkinməyin faydaları məsələlərinə həsr edilib.

Qida orqanizmin ehtiyacından çox qəbul edildikdə piy şəklində bədəndə toplanır və vücudun yaşlanmasını sürətləndirməklə yanaşı şəkər, təziq və çəkinin artmasına səbəb olur. Piy bədən əzələlərinin arasında toplandıqda bakteriyalar və mikrobların inkişafı üçün münbit şərait yaranır. Bir ay oruc

tutmaqla bədənin artıq piyləri sərf olunaraq əriyir və əslində, ildə bir dəfə bədəndə təmizlik işləri hesab olunur.

İndi Allah Rəsulunun (s) buyurduğu bu hədisin mənasını daha yaxşı anlayırıq:

“Oruc tutun ki, sağlam olasınız”.[1] صُوموا تَصِحُّوا

## Sinif işi

Aşağıdakı ayəni diqqətlə oxuyun:

“Ey iman gətirənlər! Oruc sizdən əvvəlkilərə vacib edildiyi kimi sizə də vacib edildi ki, təqvalı olasınız”.[1]

يا أَيُّهَاالَّذينَ آمَنوا
كُتِبَ عَلَيكُمُ الصِّيامُ
كَما كُتِبَ عَلَى الَّذينَ
مِن قَبلِكُم لَعَلَّكُم تَتَّقونَ.

1. Bu ayəni nəzərə alaraq, orucun ən əsas faydası nədir?
2. Sözügedən ayənin orucun bu dərsdə qeyd etdiyimiz hansı faydası ilə rabitəsi vardır?

### Orucu batil edən əməllər

Bəlkə də bəziləri güman edə bilərlər ki, yeməmək və içməmək oruc tutmaq üçün kifayət edər, lakin bu, doğru təsəvvür deyil. Oruc tutmaq o deməkdir ki, insan qərara alır ki, Allahın əmrini yerinə yetirmək üçün sübh azanından məğrib azanına qədər müəyyən işlərdən (orucu batil edən şeylərdən) çəkinsin. Bu qərara "Niyyət" deyilir. Niyyət orucun vacib əməllərindən biridir. Yəni kimsə oruc niyyəti etmədən bütün günü ac və susuz qalsa, özünü oruc tutan saya bilməz.

1. Mustədrəkul-vəsail, c. 7, səh. 73.
2. Bəqərə surəsi, 183-cü ayə.

## Orucu batil edən əməllər aşağıdakılardır:

**1 və 2. Yemək və içmək**

Əgər oruc tutan şəxs az miqdarda olsa belə su içsə, yemək yesə, dərman udsa və ya başqa hər hansı bir şeyi daxilə qəbul etsə, orucu batil olar. Hətta dişlərin arasında qalmış yeməyi udmaq da orucun batil olmasına səbəb olar. Buna görə də bizə tövsiyə ediblər ki, dişlərimizin arasında yemək qalıqlarının qalmaması üçün obaşdan yeməyindən sonra dişlərimizi fırçalayaq. Ağız suyunu udmaq orucu pozmur.

**3. Başı suya batırmaq**

Oruc tutan şəxs başını tam şəkildə suya daxil etməməlidir və əgər bu işi bir anlıq belə görsə, orucu batil olar. Amma oruc tutan şəxs duş altında qalsa və ya başına su töksə, orucu pozulmaz. Əgər başının bir hissəsini bir dəfə və digər hissəsini növbəti dəfə suya batırsa, yenə də orucu səhihdir.

**4. Toz-torpaq və ya qatı tüstü udmaq**

Oruc tutan şəxs toz-torpağın və ya qatı tüstünün boğazına çatmasına imkan verməməlidir. Buna görə də bir yerdə çoxlu toz-torpaq və ya qatı tüstü olsa, həmin yeri tərk etməli və ya parçadan, yaxud maskadan istifadə etməklə onun boğaza keçməsinin qarşısını almalıdır.

**5. Bilərəkdən qaytarmaq (qusmaq)**

Əgər oruc tutan şəxs bilərəkdən qaytarmaq üçün bir iş görsə, orucu batil olar. Lakin ixtiyarsız olaraq xəstəlik və ya başqa səbəbə görə qaytarsa, orucu səhihdir.

**6. Allah, Peyğəmbərlər və İmamların (ə) adından yalan danışmaq**

Əgər oruc tutan şəxs özündən bir söz desə və sonra yalandan bunu Quranın, yaxud Peyğəmbərin (s) və ya İmamların (ə) bəyan etdiyini iddia etsə, orucu batil olar.[1]

Qeyd edilən bütün bu altı hal o zaman orucun batil olmasına səbəb olur ki, oruc tutan şəxs bu əməlləri qəsdən və oruclu olduğunu bilərəkdən yerinə yetirmiş olsun. Lakin oruc tutduğunu unudaraq bu əməllərdən birini yerinə yetirsə, orucu səhihdir.

---

1. Orucu batil edən əməllər 9 dənədir, Gələn il bu əməllərin yerdə qalan üçünü də öyrənəcəyik.

## Özünü sına

1.Oruc tutmaq necə insanların yoxsullara və ehtiyaclılara mərhəmət göstərməsinə səbəb olur? İzah edin.
2. Orucu batil edən əməllərin dördünü sayın.
3. Əgər kimsə Ramazan ayında oruc tutduğunu unudaraq orucu batil edən əməllərdən birini yerinə yetirsə, hökmü nədir?
4. Suda üzmək orucu batil edirmi? İzah edin.

## Daha çox bilək

**Bıçaqsız cərrahiyyə əməliyyatı**

"Ən etibarlı, ən zərərsiz və ən təhlükəsiz müalicə metodu!

Biz bıçaqsız cərrahiyyə əməliyyatı növü kəşf etmişik ki, heç bir müalicə metodunu onunla müqayisə etmək olmaz! Bizim araşdırma qrupunun kəşf etdiyi budur: "Oruc tutmaqla müalicə!"

Müxtəlif təcrübələrdən sonra müşahidə etdik ki, mövcud tibbi metodlardan heç biri bədən hüceyrələrinin bərpasında və gəncləşdirilməsində bu metod kimi təsirli deyil. Onun xəstəliklərin profilaktikası və müalicəsindəki effekti təsəvvür edilməzdir! Sözügedən müalicə üsulu vücudumuza elə bir imkan yaradır ki, bir il fasiləsiz işlədikdən sonra bir az istirahət etsin və bədəndə yığılıb qalan artıq maddələri xaric etdikdən sonra yenidən özünü tənzimləsin.

Oruc tutmaq yalnız ac qalmaq deyil, həm də bədənin təmizlənməsi, bərpası və yenilənməsi üçün bir vasitədir. Bu möcüzəvi güc Allahın hər bir insanın vücudunda xəlq etdiyi bir hədiyyədir..."[1]

1. Herbert Şelton, "Aclıq - həyatımızı xilas edəcək", səh. 19.



## İlahi!

**Allahım!**
Ey Ramazan ayının sahibi, ey oruc tutanları sevən, oruc tutmaq üçün mənə səbir ver!
Mənə kömək ol ki, Quranın qonağı olum.
**İlahi!**
Sən Özün məni qonaqlığına dəvət etmisən,
elə isə obaşdanlarımı dualı, iftarlarımı səfalı et!
Mənə göz, dil və qulaq orucu nəsib et,
Bununla da pis görməyim, pis deməyim və pis eşitməyim!
**Pərvərdigara!**
**Ey ən böyük bağışlayan, ey ən pak olan,**
gözəl Qədr gecələrində
məni bağışla və hər kəs üçün ən gözəl tale qərar ver!

Arzu edirsənsə, sən də bir neçə cümlə ilə Allahla danış.

.........................................................................................
.........................................................................................
.........................................................................................

# Üçüncü fəsil: Məad

Keçən il öyrəndik ki, ölüm hər şeyin sonu deyil və yalnız dünya ilə axirət arasında bir körpüdür. Bunu da öyrəndik ki, Qiyamət günü hər kəsin vəziyyəti dünyada etdiyi əməllərinə uyğun olacaq. Əslində, hər kəsin Cənnəti və Cəhənnəmi bu dünyada və öz əli ilə hazırlanır.

Biz bu fəsildə dünya və axirət həyatının bir-biri ilə bağlılığına nəzər salaraq ölüm zamanında insanın vəziyyətinə təsir edəcək əməlləri araşdıracağıq.

Hazırkı fəsil iki dərsdən təşkil olunub: **"Acı və ya şirin" və "Xoşbəxtlik yolu".**

Yeddinci dərs (Acı və ya şirin) geniş bir hekayə şəklində insan həyatının bu dünyada doğuluşundan başlayaraq Cənnət və ya Cəhənnəmə çatana qədər müxtəlif mərhələlərinə işarə edir.

Səkkizinci dərsdə (Xoşbəxtlik yolu) ölüm əzabını ünsan üçün xeyli yüngülləşdirən üç əməl araşdırılacaq.



# Yeddinci dərs

## Acı və ya şirin

**Zirək**

Sarayın qiymətli taxtının üzərində oturub bugünkü qəribə hadisə barədə düşünürdü:

- Bu nə adətdir?! Nə üçün şəhərin bütün əhalisi onun qapısının qarşısında toplaşmışdı? Nə üçün məni görüb üstümə qaçdılar? Nə üçün məni çiyinlərində saraya gətirdilər? Bəyəm bu şəhərin bir hakimi, başçısı yoxdur?! Bəlkə məni başqası ilə səhv salıblar?!"

Hər şey onun üçün bir yuxu kimi idi, inana bilmirdi. Səhər ilk dəfə bu şəhərə qədəm basanda tək-tənha, yorğun bir yolçu idi, axşam isə bu məmləkətin sultanıdır!

❁❁❁

Günlər keçirdi, lakin heç kəs şahın suallarına doğru-düzgün cavab vermirdi.

Ətrafdakıların sirli hərəkətləri onu daha çox nigaran edirdi. Nəhayət bir gün ...

Gizli şəkildə şəhərin adi insanlarının paltarını geyinib saraydan çıxdı. Ətrafı gözdən keçirə-keçirə gəlib bazarın gur yerinə çıxdı.

Onun izdihamında və səs-küyündə hər kəs bir işlə məşğul idi. Maraqla hər yeri nəzərdən keçirirdi, birdən çiynində bir əlin istisini hiss etdi. Donub yerində qaldı. Başını çevirəndə mehriban bir qocanı gördü.



- Sultan həzrətləri, siz indi sarayda olmalısınız. Bu görkəmdə bazarda nə işiniz var?

Özünü itirdi və nə deyəcəyini bilmirdi. Qoca onu tanımışdı.

Kəsik-kəsik sözlərlə dedi: "İstəyirdim, istəyirdim, bilirsiniz ..."

Qoca gülümsəyib dedi: "İlk gündən də zirək və bacarıqlı olduğunuz bilinirdi. Yəqin ki, bu şəhərdə nə baş verdiyini və buranın əhalisinin qəribə rəftarının səbəbini öyrənmək istəyirsiniz. İndi isə yaxşı qulaq asın, mən sizin üçün izah edim:

Uzun illərdir ki, bu şəhərin əhalisi qədim bir ənənəyə sadiq qalaraq ilin müəyyən günündə şəhər qapısından daxil olan ilk şəxsi çiyinlərinə qaldıraraq saraya aparır və özlərinə hökmdar seçirlər. Onlar bir il boyunca bu hökmdarın bütün əmrlərinə tabe olub ona itaət edirlər. Növbəti ildə yenidən hamı şəhər qapısının qarşısında toplaşıb yeni hökmdar seçmək üçün gözlərini qapıya zilləyirlər. Buna görə də bu şəhərin heç bir hökmdarı bir ildən artıq hökmranlıq edə bilmir".

- Bəs əvvəlki hökmdar necə olur?

- Onu gəmiyə mindirib bir adaya aparır və orada saxlayırlar.

- Həmin adanın harada olduğunu bilirsiniz?
- Mən bunu əvvəlki sultanlara da demişəm, lakin onlar buna əhəmiyyət verməyib. İstəsəniz, həmin adanın yerini sizə göstərə bilərəm...

❁❁❁

Həmin gecə səhərə qədər sarayda var-gəl edib düşünürdü:

- Növbəti ilə qədər bu qəsrdə rahatçılıqla yaşayıb hakimiyyətdən ləzzət ala bilərəm. Hal-hazırda şəhərin hər şeyi mənim ixtiyarımdadır. Ümumiyyətlə, gələcək barədə düşünməklə özümü narahat etməyimə heç bir əsas yoxdur.

Amma yalnız bir il?! Bəs ondan sonra nə edim? Əgər bu bir ili xoş keçirmək istəsəm, həmin adada ac-susuz, evsiz-eşiksiz necə yaşaya bilərəm?!

Çox çətin seçim idi: bir illik rahatlıq və həmişəlik əzab, yaxud bir il əziyyət və əvəzində həmişəlik rahatlıq?

Nəhayət, səhərə yaxın qərarını verdi.

Həmin günün səhəri tabeliyində olan insanlar və onların problemlərinin həlli üçün sədaqətlə səy göstərməklə yanaşı bilikli qocanın köməyi ilə bir neçə etibarlı dost tapdı və öz planını onlara izah etdi.

O, şəhər əhalisinin gətirdiyi bütün hədiyyələri yaxın dostlarına verirdi ki, əvəzində onun üçün tikinti materialları, ağac tingləri və qoyun sürüsü alsınlar. O heç bir malını sarayda saxlamırdı.

Bir müddət sonra gündə bir dəfə şəhər əhalisindən xəbərsiz bir gəmi adaya gedir və həmin tikinti materiallarını, ağac tinglərini və qoyun sürülərini oraya daşıyırdı. Hökmdarın etibarlı əkinçiləri və işçiləri də hər gün onun yaxın xidmətçiləri ilə birlikdə adaya gedirdilər və ...

❁❁❁

Hər şey düşünüldüyü kimi gedirdi, lakin bir gecə...

Gecə yarısı birdən hiss etdi ki, əllərini hərəkət etdirə bilmir. Gözlərini aaçanda əcaib bir səhnə ilə üzləşdi.

Sarayın mühafizəçiləri sultanın əl-ayaqlarını bağlayıb aparmaq istəyirdilər:

- Bağışlayın, sultan həzrətləri! Sizin bir illik hakimiyyət dövrünüz sona çatdı və indi bizimlə gəlməlisiniz.

- Hara gəlim? Mən hazır deyiləm, mənə bir az fürsət verin!

- Təəssüf ki, belə bir şey mümkün deyil.

- Onda icazə verin, şəxsi əşyalarımı götürüm ...

- Çox təəssüf! Bizim belə bir icazəmiz yoxdur. Hakimiyyət dövrünüz bitib və sizi elə bu vəziyyətdə özümüzlə aparmalıyıq.

Onu sarayın qapısından çıxaranda camaat hökmdarlarını sonuncu dəfə görmək üçün oraya toplaşmışdı. Bu zaman sultanın gözü ona razılıqla baxan mehriban və bilikli qocaya sataşdı.

❁❁❁

Gəmi adaya çatanda mühafizəçilər sultanı sahilə yaxın bir yerdə suya buraxıb qayıtdılar. Onlar bilmirdilər ki, bu qaranlıq gecədə çox sayda insanlar əziz dostlarının, yəni sultanın gəlişini gözləyirdi və onun üçün bağın ortasında böyük bir saray ucaltmışdılar.

İllər sonra insanlar dənizçilərdən eşidirdilər ki, dənizin ortasında çox gözəl və bənzəri olmayan bir şəhər vardır ki...

## Sinif işi

- Sizcə zirək sultan bir illik iş və zəhmət əvəzində sarayda rahat, əyləncəli həyatı seçsəydi, bizim hekayəmiz necə sona çatardı?
- Əgər bir az düşünsək görərik ki, zirək insanın hekayəsi bizim dünya həyatımıza çox bənzəyir. Bu oxşarlıqları tapın və nümunədə olduğu kimi aşağıdakı boş yerləri doldurun:

1. Şəhərə ilk dəfə gələn zirək adamın tövsiyəyə ehtiyacı var idi.
Biz də dünyaya yalnız bir dəfə gəldiyimiz üçün xoşbəxtlik üçün peyğəmbərlərin tövsiyələrinə möhtacıq.
2. O bütün vaxtını sarayda istirahətə sərf edə bilərdi.
Biz də ..........................................................................................
3. Onun sultanlıq dövrü çox tez gəlib-keçdi. ..........................
......................................
4. Ümumiyyətlə, güman etmirdi ki, gözətçilər gecə yarısı onun sorağına gəlsinlər. ...........................................
5. Gözətçilər onu apararkən heç bir iş görməsinə icazə vermədilər. .................................................... ...............
6. O həmin gözəl adada özünün qabaqcadan hazırladığı yerdə yaşayırdı. ..........................................................................
7. Əgər bizim hekayənin yolçusu bu şəhərə daxil olmasaydı, heç vaxt gözəl ada və onun sakinlərinin hökmdarı ola bilməzdi. ..................................................................

- Necə düşünürsüz, zirək insanın hekayəsi ilə bizim dünyadakı həyatımız arasında daha hansı oxşarlıqlar var?

**Həyatın sonu**

Oxuduğumuz hekayənin qəhrəmanını tanıyırsınızmı?

Bu hekayənin yalnız bir qəhrəmanı yoxdur. Əslində, bizim hər birimiz öz həyatımızda bu sultanın taleyini yaşaya bilərik.

Gördüyümüz kimi, şəhərdən adaya gedən müxtəlif hökmdarların vəziyyəti bir-birindən fərqli idi. Bu dünyadan köçən insanların vəziyyəti də bir-birindən fərqlənir.

Hikmətli Allah Quranda buyurur:

*"Bunlar həmin şəxslərdir ki, mələklər onların canını tərtəmiz olduğu halda alıb deyərlər: "Sizə salam olsun! Etdiyiniz əməllərə görə Cənnətə girin!"*[1]

اَلَّذينَ تَتَوَفّاهُمُ المَلائِكَةُ طَيِّبينَ يَقولونَ سَلامٌ عَلَيكُمُ ادخُلُوا الجَنَّةَ بِما كُنتُم تَعمَلونَ.

Qurani-kərimin digər ayəsində isə belə buyurulur:

*"Əgər sən kafirləri mələklər onların üzünə və arxalarına vura-vura: "Dadın yandırıcı əzabı!" – deyib canlarını alanda görsən, (hallarına təəssüflənərsən)".*[2]

... اِذ يَتَوَفَّى الَّذينَ كَفَرُوا المَلائِكَةُ يَضرِبونَ وُجوهَهُم وَ اَدبارَهُم وَ ذوقوا عَذابَ الحَريقِ.

Bu iki ayənin mənasına diqqət yetirin.

Ayələri müqayisə etdikdə hansı nəticəni əldə edirsiz?

Öz həyatlarında Allaha və Onun peyğəmbərlərinə iman gətirən, ölümdən sonrakı həyatı düşünənlər şəhəri tərk etməkdə heç bir qorxusu olmayan zirək sultan kimidirlər. Belə ki, onlar yeni həyatlarında rahat və xoşbəxt olacaqlarını bilirlər.

Lakin bütün həyatlarını əyləncəyə və əyyaşlığa sərf edən, öz səfərləri üçün heç bir azuqə hazırlamayan kafirlər və pis əməl sahibləri dünyadan köçmək istəmir, çünki ölümün onlar üçün xoş günlərin sonu və çətinliklərin başlanğıcı olduğunu bilirlər.

---

1. Nəhl surəsi, 32-ci ayə.
2. Ənfal surəsi, 50-ci ayə.

## Özünü sına:

İndi isə bu sual yerdə qalıb: Biz axirət dünyasına səfər etdəcəyimiz zaman mələklərin salamı ilə qarşılaşmağımız üçün dünyada hansı əməlləri yerinə yetirməliyik?

Növbəti dərsdə bu sualı cavablandıracağıq.

1.Nə üçün zirək sultan adaya getməkdən heç qorxmurdu?
2. Ölüm hansı insanlar üçün qorxulu və xoşagəlməzdir? Nə üçün?
3. Möminlərin və kafirlərin ölüm anındakı vəziyyətini izah edin.



# Səkkizinci dərs

## Xoşbəxtlik yolu

*Bir nəfər Əbuzər Qəffaridən soruşdu: "Nə üçün biz ölümdən qorxuruq?"*

*Əbuzər dedi: "Çünki siz dünyanızı abad, axirətinizi isə viran etmisiniz. Aydındır ki, abadlıqdan viranlığa getmək istəmirsiniz."*

Əvvəlki dərsdə öyrəndik ki, insanların ölüm anındakı vəziyyətləri müxtəlif olur və hər kəsin keçirdiyi hisslər onun dünyadakı əməllərinə uyğundur.

Bəziləri ölümlə qarşılaşmaqdan qorxduğu halda, digərləri üçün ölüm mükafatlandırma mərasiminə getmək kimidir. Bəs bu fərqin səbəbi nədir?

Biz bu dərsdə axirət dünyasında həyatın asan və ya çətin olmasına səbəb olacaq əməlləri araşdırırıq.

**1. Ata və anaya yaxşılıq etmək**

"Müalicənin daha xeyri yoxdur, xəstəlik o qədər inkişaf edib ki, sağalmağa ümid yoxdur".

Həkimin sözü bitməmiş gənc yenidən ayıldı:

"Yox! Yox! Kömək! Mənə kömək edin! ... Siz Allah, məni xilas edin!.."

Qorxaraq ətrafa baxır və fəryad çəkirdi. Artıq neçənci dəfə idi ki, ayılan kimi yalvarıb kömək diləyirdi. Sanki ölümqabağı bu anlarda dilinə gətirə bilmədiyi şeylər görürdü. Bu dəfə də az müddətdən sonra qorxudan huşunu itirdi ...

- Ey Allah Rəsulu, müsəlman bir gənc ürəkdağlayan bir vəziyyətdə can verməkdədir. Əgər evinə gəlib onun üçün dua etsəniz, bəlkə də rahatlanar".

Rəhmət və mehribanlıq elçisi gəncin evinə gəldi. Gənc özünə gəldi və gözü Peyğəmbəri-Əkrəmin (s) nurani çöhrəsinə sataşdıqda yalvararaq dedi: "Ey Allahın Rəsulu! Mənə kömək elə! Yenə də həmin iki qorxunc varlıq gəlir. Onlar məni özləri ilə Cəhənnəmə aparmaq istəyirlər. Bilirəm ki, ölüm vaxtım çatıb, dadıma çat və məni onların əlindən xilas elə! Xahiş edirəm!"



Yenə huşunu itirdi.

Allahın Rəsulu üzünü həmin gəncin anasına tutub buyurdu:

- Oğlundan narazısan, elədirmi?

Ana əsəblərini cilovlaya bilməyib uca səslə ağlamağa başladı:

- Ey Allahın Rəsulu, mən oğlumu böyütmək üçün çox zəhmət çəkib əzab-əziyyətə qatlaşmışam. Gecələr oyaq qalırdım ki, o yatsın. Özüm ac qalıb yeməyimi ona verirdim. Bütün bunlara baxmayaraq, böyüdükdə çəkdiyim bütün əziyyətləri heçə saydı, mənimlə kobud, acı danışdı, hörmət qoymadı, hətta söyüş də söydüyü vaxtlar oldu. Ey Allahın Rəsulu, oğlum qəlbimi qırıb, mən də ondan Allaha şikayət etmişəm".

Peyğəmbər (s) buyurdu: "Ona halallıq ver".

Əzab-əziyyət görmüş ana övladına mərhəmətlə baxıb dedi: "Allahım, hörmətli Peyğəmbərinin xatirinə övladımı bağışla!"

Peyğəmbər (s) Allahdan gənc üçün əfv dilədi.

Həzrət Muhəmmədin (s) duası və ananın halallığı öz işini gördü. Gənc ömrünün son anlarında yenidən gözlərini açıb təbəssümlə dedi: Ey Allahın Rəsulu, həmin iki qorxunc varlıq getdi, indi iki gözəl və gülərüz mələk mənə tərəf gəlir".

Sonra gənc Allahın təkliyinə və həzrət Muhəmmədin peyğəmbərliyinə şəhadət verərək təbəssümlə əbədi olaraq gözlərini yumdu.[1]

❀❀❀

İmam Sadiq (ə) buyurub:

*"Hər kim qohumları ilə əlaqələrini möhkəm etsə, ata-anası ilə xoşrəftar və mehriban olsa, ölüm çətinlikləri onun üçün asan olar və dünyada da heç vaxt yoxsul olmaz".*[2]

---

1. Şeyx Müfid, "Əmali", səh. 287-288
2. Biharul-ənvar, c.71, səh. 66.

## Sinif işi

1. Ata-anamızı özümüzdən necə razı sala bilərik?
2. Hansı əməllər valideynlərimizin bizdən narazı qalıb inciməsinə səbəb olur?

Bu suallar haqqında sinifdə müzakirə edin və bu müzakirənin nəticəsini evdə ata-ananızla bölüşün.

### 2. Əvvəl vaxtda qılınan namaz

Allah Rəsulu (s) buyurub:

*"Rəbbiniz buyurub: "Hər kim gündəlik namazları əhəmiyyətli sayıb onları vaxtında qılsa, söz verirəm ki, Mənim görüşümə gəldiyi gün onu Cənnətə aparacağam".* *(Vəsailuş-şiə, c. 4, səh. 110)*

Bəlkə özümüzdən bunun necə mümkün olacağını soruşaq?
Bu sualın cavabını Qurani-kərimdə görə bilərik:

... وَ اَقِمِ الصَّلاةَ
اِنَّ الصَّلاةَ تَنهى عَنِ
الفَحشاءِ وَالمُنكَرِ.

*"... namaz qıl, çünki namaz (insanı) çirkinliklərdən və günahdan çəkindirir".*[1]

Namazı düzgün və vaxtında yerinə yetirmək insanı günahdan və pis işlərdən çəkindirir. insan günahdan nə qədər uzaqlaşsa, bir o qədər cənnətə yaxın olur.

1. Ənkəbut surəsi, 45-ci ayə.

### 3. Xoşxasiyyətlik

Həzrət Muhəmməd peyğəmbərə (s) xəbər verdilər ki, Səəd ibn Muaz[1] dünyadan köçüb. Peyğəmbər (s) Səədin dəfnində iştirak etdi və ayaqyalın tabutun bir küncündən yapışıb çiyninə qoydu. Qəbristana çatdıqda öz mübarək əli ilə onu qəbrə qoydu və üzərinə torpaq tökdü. Peyğəmbər (s) belə buyurdu: "Cəbrailin başqa mələklərlə birlikdə Səədin dəfnində iştirak etdiyini gördüm".

Səədin anası Peyğəmbərin (s) bu sözünü eşidəndə üzünü oğlunun qəbrinə tutub dedi: "Ey Səəd, Cənnət sənə nuş olsun!"

Allah Rəsulu (s) buyurdu: "Bu qədər əminliklə danışma, Səəd indi qəbir əzabından əziyyət çəkir".

Səhabələr təəccüblə bunun səbəbini soruşdular. Həzrət (s) buyurdu: "Səədin qəbir əzabının səbəbi budur ki, evdə ailəsi ilə pis rəftar edirdi".[2]



1. Səəd həzrət Peyğəmbərin (s) dostlarından və yaxın səhabələrindən idi.
2. Biharul-ənvar, c.6, səh. 220.

## Sinif işi

Aşağıdakı halların hər birində xoşxasiyyət və bədxasiyyət insanların rəftarını bir-biri ilə müqayisə edin:

| | |
|---|---|
| Bir yoxsul ondan kömək istəyir. | Xoşxasiyyət: |
| | Bədxasiyyət: |
| Anası ondan bir işdə kömək etməsini xahiş edir. | Xoşxasiyyət: |
| | Bədxasiyyət: |
| Bir nəfər ona qarşı düzgün davranmayıb və üzrxahlıq edir. | Xoşxasiyyət: |
| | Bədxasiyyət: |
| Yarışların birində bir nəfər onu itələyir. | Xoşxasiyyət: |
| | Bədxasiyyət: |
| Dostu ondan dərsi izah etməsini xahiş edir. | Xoşxasiyyət: |
| | Bədxasiyyət: |
| Qəzəbləndiyi zaman... | Xoşxasiyyət: |
| | Bədxasiyyət: |

Bu dərsdə oxuduqlarımız ölümün və ölümdən sonrakı həyatın rahat olmasına səbəb olan gözəl əməllərin bir hissəsi idi. Doğrudur, çoxlu yaxşı işlər vardır ki, onları yerinə yetirməklə bu dünyadan köçdükdə Allahın mükafatına layiq olmaq mümkündür. Ümumilikdə bu əməllər vacibatları yerinə yetirməkdən və günahları tərk etməkdən ibarətdir".

Əmirəl-möminin həzrət Əlidən (ə) soruşdular: "Siz necə özünüzü ölümə hazırlamısınız ki, ondan qorxmursunuz?"

İmam (ə) buyurdu:

*"Günahlardan çəkinən, vacib əməlləri yerinə yetirən və gözəl əxlaqa sahib olan şəxs üçün necə ölməyi fərq etmir. And olsun Allaha, Əbu Talibin oğlu üçün fərq etmir ki, özü ölümə tərəf getsin, ya ölüm ona tərəf gəlsin!"*

*(Şeyx Səduq, "Əmali", səh. 97.)*

## Özünü sına

1. İmam Sadiqin (ə) buyurduğu hədisi nəzərə alaraq, ata-anaya yaxşılıq etmək bizim dünyadakı və axirətdəki həyatımıza necə təsir edir?
2. Səəd ibn Muazın qəbir əzabının səbəbi nə idi?
3. Namazı vaxtında qılmaq insanı necə Cənnətə aparır? İzah edin.

## Təklif

Ata-ananı razı salan və ya narahat edən əməllər barədə evdə valideynlərinizlə və bacı-qardaşlarınızla müzakirə edin və nəticəsini sinifdə deyin.

## Daha çox bilək

Bəzi insanlar güman edir ki, valideynlərə yaxşılıq etmək yalnız onlar bu həyatda olduqları zaman mümkündür və əgər kimsənin ata-anası dünyadan köçübsə, daha onlar üçün yaxşı bir iş görmək mümkün deyil. Lakin bu təsəvvür doğru deyil. Biz insanlar diri insanları özümüzdən razı və narazı sala bildiyimiz kimi ölülərimizi də öz əməllərimizlə şad və ya qəmgin edə bilərik. Aşağıdakı hadisə valideynə ölümündən sonra yaxşılıq etməyin bir nümunəsidir:

Bir gün həzrət İsa (ə) qəbristanlığın yanından keçirdi. Bir qəbrin yanından keçəndə onun sahibinin günahlarına görə əzab içində olub nalə çəkdiyini eşitdi. Həzrət İsa (ə) yoluna davam edib getdi. Bir il sonra təsadüfən həmin yerdən keçəndə gördü ki, qəbirdən səs gəlmir. Öz-özünə dedi: "İlahi, keçən il buradan keçəndə qəbir sahibi əzab içində idi, lakin indi əzabdan bir əlamət yoxdur. Səbəb nədir?"

Uca Allah İsaya (ə) vəhy göndərib buyurdu:

"Bu qəbir sahibinin saleh bir övladı var və yenicə böyüyüb. O bu müddət ərzində iki yaxşı əməl yerinə yetirib. Birincisi, insanların dağılan gediş-gəliş yolunu düzəldərək onların çətinliyini həll edib. İkincisi, bu günlərdə bir yetimə sığınacaq verib. Mən bu övladın yaxşı əməllərinə görə atasını bağışladım və onu əzabdan xilas etdim".[1]

İndi siz deyin: ata-anası vəfat etdikdən sonra onlar üçün dua edən, Quran oxuyan və başqa saleh əməllər yerinə yetirən şəxslə valideynlərinin vəfatından sonra onları unudan və hətta pis əməlləri ilə onları incidən şəxs eynidirmi?

1. Kafi, c. 6, səh. 3.

# Dördüncü fəsil: Rəhbəri tanımaq

Keçən il gözəl nümunənin insanın kamilləşməsindəki təsiri ilə tanış olduq. Bildik ki, Peyğəmbərlər və Allah övliyaları gözəl nümunələr olublar, onların həyatına diqqət yetirmək və davranış xüsusiyyətlərini davam etdirmək İlahi hədəfə çatmaq yolunda ən gözəl bələdçimiz ola bilər.

Lakin bu fəsildə cavabını tapmaq istədiyimiz sual bundan ibarətdir: Bizim bu nümunələr qarşısında vəzifəmiz nədən ibarətdir?

Hazırkı dərs iki dərsdən ibarətdir: "Allah övliyalarının ziyarəti" və "Gizli günəş".

- Doqquzuncu dərs (Allah övliyalarının ziyarəti) ziyarətin bəzi faydalarını araşdıraraq bizə göstərir ki, Allah övliyaları nəinki sağ ikən, hətta ölümlərindən sonra da möminlər üçün rəhmət və bərəkət qaynağıdırlar. Bu dərs davamında ziyarətin qaydalarına işarə edir və qüsl almağın yolunu bizə öyrədir.

• Onuncu dərs (Gizli günəş) İmam Zamanın (ə.c.) zühurundan sonrakı hadisələri bəyan edir və “intizar”ın düzgün mənasını açıqlayaraq zühurun həqiqi müntəzirlərinin xüsusiyyətlərini tanıtdırır.



# Doqquzuncu dərs

## Allah övliyalarının ziyarəti

Peyğəmbərlər və İmamlar (Allahın salamı olsun onlara) insanların hidayəti və xilası üçün hər növ çətinliyə qatlaşıblar. Onlar bu yolda hətta özlərinin və yaxınlarının belə canından keçiblər. İmam Hüseynin (ə) və əziz səhabələrinin Kərbəlada şəhadəti bu misilsiz fədakarlığın bir nümunəsidir.

Bəs biz bütün bu fədakarlıqların əvəzində onlar üçün nə etmişik? Heç bu barədə indiyədək düşünmüsünüzmü?

❀❀❀

Hikmətli Allah Özünün hidayət kitabında buyurur:

قُل لا اَسـاَلُكُم عَـلَيـهِ اَجـرًا اِلَّا الـمَـوَدَّةَ فِى الـقُربىٰ.

*"De: "Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (Əhli-beytimə) sevgidən başqa bir mükafat istəmirəm".*[1]

### Sinif işi

Sizcə, Peyğəmbərlərin və İmamların (ə) aramızda olmadığı və həyatdan köçdüyü hazırkı dövrdə biz onlarla necə mehriban ola bilərik?

1. Şura surəsi, 23-cü ayə.

Allah övliyalarının qəbirlərinin ziyarəti və onlar üçün dua etmək bu şəxsiyyətlərin zəhmətlərini dəyərləndirməmiz üçün ən gözəl yollardan biridir.

Bu dəyərli əməl yalnız bizə aid deyil, din rəhbərləri özləri də Allahın dostlarının ziyarətinə gedirdilər. İslamın əziz Peyğəmbəri (s) və onun dəyərli qızı hər həftənin bazar ertəsi və cümə axşamı günləri Uhud şəhidlərinin qəbirlərini zirayət etməyə gedər, onlar üçün dua edib namaz qılardılar.

Görəsən, ziyarətin Allahın dostlarına təşəkkür etməkdən başqa faydaları da varmı?

## Ziyarətin faydaları

İlk dəfə idi ki, məktəbimizin təşkil etdiyi Məşhəd ziyarətinə gəlir. İstirahət etdikdən sonra ziyarət qüslu alıb təmiz paltarlarımızı geyindik, dəstəmaz alıb hərəmə tərəf yollandıq.

Zöhr azanına az qalmışdı və ziyarətgahın həyətində namaz qılmaq üçün sıralar yavaş-yavaş düzülürdü.

Sara xanım dedi: - Uşaqlar, əvvəlcə namaz qılarıq, sonra ziyarətə gedərik.

Biz də sıraya düzüldük.

Mənim kimi Nərgiz də ilk dəfə idi ki, sinif yoldaşları ilə Məşhədə gəlirdi. O dedi: "Heç düşünmürdüm bu qədər xoş keçər, mən gələn il də Məşhəd səfəri üçün adımı yazdıracağam. Heç bir səfər mənim üçün bu qədər gözəl keçməyib!"

Dodaqaltı zikr edən Sara xanım bu sözü eşitdikdə bir az sükut edib dedi: - Uşaqlar, dostlarla səfərə çıxmaq həmişə yaxşı və maraqlıdır, lakin bilin ki, bu səfər yalnız əylənmək üçün deyil. Belə səfərlərin gəzinti və əyləncədən başqa daha mühüm faydaları da vardır.

Nərgiz soruşdu: Bağışlayın Sara xanım, hansı faydaları nəzərdə tutursunuz?

- Siz hansı məqsədlə ziyarətə gəlmisiniz?

- Doğrusu, mən gəlmişəm İmam Rzadan istəyim ki, mənim və bacımın imtahanlardan keçməyimiz üçün Allaha dua etsin.

- Bu, ziyarətin faydalarından biridir. Biz həmişə və bütün işlərdə Allahın köməyinə möhtacıq. Buna görə də hər hansı bir çətinliklə

qarşılaşdıqda əllərimizi Allaha doğru uzadıb, Ondan kömək diləyirik.

Uca Rəbbimizdən yardım istəməyin ən yaxşı yollarından biri də budur ki, Peyğəmbərlərin və İmamların sorağına gedib və onlardan bizim üçün dua etmələrini istəyək. Belə ki, onlar ən saleh bəndələrdir və Allah onların dualarına daha çox diqqət ayırır. Doğrudur, çətinliklərin həlli üçün yalnız dua etmək kifayət deyil və məqsədimizə çatmaq üçün var gücümüzlə çalışmalıyıq.

Bəs sizcə, ziyarətin daha hansı faydaları var?

Reyhanə dedi: - Mən bir hədisdə oxumuşam ki, əgər bir şəxs İmamların və Peyğəmbərlərin ziyarətinə getsə, Allah onun günahlarını bağışlayar və dualarını qəbul edər.

Sara xanım dedi: - Afərin, bu, ziyarətin digər mühüm faydalarından biridir. Lakin ziyarətin ən mühüm və dəyərli faydası bizimlə Allah övliyaları arasında ünsiyyət və məhəbbət yaratmasıdır. Bu da öz həyatımızda onlardan nümunə götürməyimizə səbəb olur. Ziyarət qəlbimizdə Allah dostlarının məhəbbətinin çoxalmasına və onların da bizi daha çox sevməsinə səbəb olur. İndi siz deyin əgər kimsəni həqiqətən sevsək, onu pis işlərimizlə özümüzdən narazı sala bilərikmi?

Aydındır ki, bizim din rəhbərlərinə qarşı məhəbbət və mərifətimiz[1] nə qədər çox olsa, gözəl əməllərimiz də daha çox olar. Nəticədə Allahın daha böyük və daha dəyərli mükafatlarından bəhrələnə bilərik.

Sara xanımın sözü bu yerə çatanda hərəmin hündür minarələrindən yüksələn azan səsi ətafı bürüdü. O dedi: - Yaxşı uşaqlar, inşallah növbəti günlərdə ziyarətin qalan faydaları haqqında daha geniş danışacağıq. İndi isə yaxşı olar sıranıza düzüləsiniz ...

İmam Baqir (ə) öz dostlarından birinə buyurur:

*"Bizim salamımızı dostlarımıza çatdır və onlara de ki, Allahın mükafatlarını və bizim vilayətimizi yalnız təqva və saleh əməl ilə əldə edə bilərlər".*[2]

1. Mərifət: Din rəhbərlərimizi tanımaq və onların qarşısında daşıdığımız vəzifələrə diqqət yetirmək.
2. Mən la yəhzəruhul-fəqih, c. 2, səh. 584.

Sinif işi

Sizcə, İmam Rza (ə) onu ziyarət edənlərin hansı əməllərini gördükdə şad olur? Bu əməllərin bir neçəsini sadalayın.

**Ziyarətin qaydaları**

Ziyarətin qaydaları dedikdə müstəhəb əməllər nəzərdə tutulur ki, biz onları yerinə yetirdikdə Allah dostlarının diqqətini özümüzə daha çox cəlb etmiş oluruq.

Həzrət Muhəmməd Peyğəmbər (s) və məsum İmamların (ə) ziyarətnamələrində oxuyuruq:

*"Mən şəhadət verirəm ki, sən indi məni görür, səsimi eşidir, salamımın cavabını verir və mənim vəziyyətimdəm xəbərdarsan".*

Bu səbəbdən bizə tövsiyə olunub:

Ziyarətdən əvvəl qüsl alaq;

Ziyarətgahlara təmiz və pak geyimdə daxil olaq;

Faydasız və çirkin sözlərdən çəkinək;

Sakitliyimizi qoruyaq;

Dəstəmazla ziyarətə gedək;

Başqalarına maneçilik yaratmayaq.

Qeyd olunduğu kimi, ziyarətin İslamda təkidlə vurğulanan qaydalarından və ədəblərindən biri də ziyarət qüslüdür. İndi isə qüslün alınma qaydasına nəzər salaq.

**Qüslün alınma qaydası**

Qüslun 4 mərhələsi var.

1. Əvvəlcə niyyət etməliyik. Yəni məqsədimiz bu olmalıdır ki, Allahın razılığı üçün qüsl alırıq.

2. Sonra baş və boyun hissəmizi tam şəkildə yuyuruq (bu mərhələdə başımızı yuyarkən qulaqların və burnun içini yumağa ehtiyac yoxdur,

sadəcə baş və üzün görünən hissələrini yumaq kifayətdir).

3. Baş və boyun hissələrini yuduqdan sonra bədənin sağ tərəfini yumaq lazımdır, yəni sağ çiynin yuxarı hissəsindən sağ ayağın barmaqlarının ucuna qədər tam şəkildə yumaq lazımdır. Bu mərhələdə qarın, sinə, belin sağ hissəsi, sağ ayaq və sağ əl bütövlükdə yuyulur.

4. Qeyd olunan mərhələdən sonra sol tərəf də sağ tərəf kimi tam şəkildə yuyulmalıdır.

***Yadda saxlayaq:***

- Bütün vacib və müstəhəb qüsllar bu şəkildə yerinə yetirilir və yalnız onların niyyətləri fərqlidir.
- Qüslda su bədənin hər yerinə çatmalıdır və buna görə də əgər suyun bədənə çatmasına maneə yaradan hər hansı bir şey vücudumuzda olsa, qüsldan əvvəl onu təmizləmək lazımdır.
- Hər tərəfin tamamilə yuyulduğuna əmin olmaq üçün hər mərhələdə azca digər tərəfdən də yumaq lazımdır.

## Daha çox bilək

**İmamların ziyarətçilər barədə duaları**

İmam Sadiqin (ə) səhabələrindən biri deyir:

“Bir iş üçün həzrətin evinə getdim. Dedilər İmam namaz və münacatla məşğuldur. İçəriyə daxil oldum və duası bitənə qədər bir küncdə oturdum. Eşitdim ki, İmam Allahla münacatında belə deyir:

“İlahi, atam Hüseynin ziyarətçilərini bağışla! O kəsləri ki, bizi ziyarət etmək üçün mallarını xərcləyir və vücudlarını əziyyətə salırlar. O kəsləri ki, bizə ehsan etməklə Sənin Peyğəmbərinin qəlbini şad edirlər. Pərvərdigara, onlar Sənin

və Peyğəmbərinin razılığı üçün bu çətinliklərə dözürlər, elə isə Sən də gecə-gündüz onları hifz et və ailələrini, övladlarını onlar üçün qoru! Daim onların yanında ol və onları hər zalımdan və şeytandan amanda saxla. İlahi, onların nə arzuları və hacətləri varsa, ən gözəl şəkildə yerinə yetir və..."[1]

## Özünü sına

1. Ziyarətin ən mühüm faydası nədir? İzah edin.
2. Hansı əməllərə ziyarət ədəbləri deyilir? Onlardan üçünü qeyd edin.
3. Düzgün qüsl almaq qaydasını izah edin.

## Təklif

"Məfatihul-cinan" kitabının bir hissəsi ziyarətin qayda və ədəblərinə həsr olunub. Valideynlərinizin köməyi ilə bu hissəni oxuya və ziyarətin ədəblərindən bir neçəsini qeyd edib sinifdəki dostlarınıza danışa bilərsiniz.

1. Vəsailuş-şiə, c. 14, səh. 413.

## İlahi!

**İlahi!**
Sənə şükürlər olsun!
Şükürlər olsun ki, Muhəmməd və onun ailəsini tanımağı mənə nəsib etdin,
onların məhəbbətini qəlbimə saldın,
və məni onların dostu olaraq seçdin!
**Pərvərdigara,**
ey gözümü onların məzarlarını ziyarət etməklə nurlandıran!
Qəlbimi onların məhəbbətinin işığı ilə sirab et
və qiyamətdə onlara yoldaş olmağı mənə nəsib et!
**İlahi,**
Mənə nəsib et ki, onların razılığı yolunda çalışım,
bu Sənin də razılığındır!
Və onların mehriban əllərindən
imanın saf şərbətini içim!

Arzu edirsinsə, sən də bir neçə cümlə ilə Allahla danış.

........................................................................................

........................................................................................

........................................................................................



# Onuncu dərs

## Gizli günəş

"... Bu gündən etibarən bir həftə vaxtınız var!

Hər gün qəzetlərdən birinin ən mühüm xəbər başlığını qeyd edin. Yaxud hər axşam televiziyada yayımlanan vacib xəbərlərdən birini qısa şəkildə yazın. Unutmayın ki, növbəti dərsdə qeyd etdikləriniz əlinizdə olmalıdır".

Yusif müəllim (dini tədris müəllimimiz) bu tapşırığı növbəti dərs üçün verdi, heç birimiz bu tapşırığının məqsədini bilmirdik. Yalnız gələn həftə olacaq dərsə aid olduğunu ehtimal edirik...

Növbəti həftə dərs başlayanda Yusif müəllim şagirdlərin bir neçəsindən seçdikləri xəbərləri uca səslə oxumağı xahiş etdi:

- İki ölkənin hərbi qüvvələri arasında qanlı döyüş.
- Afrikada milyonlarla insanın aclıq çəkməsi.
- Günəş enerjisi ilə işləyən avtomobillərin istehsalı
- Rabitə peykinin kosmosa buraxılması
- İrqçilərin qaradərililərə hücumu
- Boşanmaların, zorakılığın və ailədaxili problemlərin kəskin artması.
- Milli futbol komandasının yarışlarda qələbə qazanması.
- ...

Bunlar əksər şagirdlərin qeydə aldığı xəbərlərdən idi.

Onların oxunuşu bitdikdən sonra Yusif müəllim dedi: - Uşaqlar, bu xəbərləri eşitdikdə sizdə hansı hisslər yarandı?

Möhsün dedi: - Müəllim, düzdür, bu xəbərlərin içində bir neçə yaxşı xəbər də var idi, lakin əksəriyyəti məyusedici və narahatedicidir.

Yusif müəllim dedi: - Hər insan bu acı hadisələri eşitdikdə məyusluğa və ümidsizliyə qapanır. Lakin mən gələcəyə ümidliyəm, çünki mənim apardığım qeydlər sizinkilərdən fərqlidir. İndi görək, siz də bu xəbərləri eşitdikdə mənim kimi ümidli olacaqsız, yoxsa yox?

Sonra Yusif müəllim öz qeydlərini bizim üçün oxudu:

"... İnanmamağa haqqınız var! Lakin indi ədalət bütün dünyanı əhatə edib, zorakı və zalım hakimiyyətlərdən əsər-əlamət qalmayıb. Elm və bilik o qədər inkişaf edib ki, tarix boyu bəşəriyyətin əldə etdiyi uğurlar bununla müqayisədə heç nədir. Buna görə də daha kimsə naməlum xəstəliklərdən dünyasını dəyişmir.

Daha məhkəmələr və həbsxanalar aşıb-daşmır. Səbəbi də məlumdur, insanın dərrakəsi o qədər inkişaf edib ki, kimsənin başqasının haqqına əl uzatması çox az rast gəlinir. Doğrusu, bir müddətdir ehtiyacı olan şəxsə maddi yardım etmək istəyirəm, lakin nə qədər axtardımsa, möhtac adam tapa bilmədim. Bu günlər daha cəmiyyətdə yoxsul insan görmək olmur.

Camaat daha daş heykəlin və ya özləri kimi olan bir insanın qarşısında səcdə etmir. Göydən və yerdən bərəkət yağır. Nə quraqlıq var, nə də aclıq. Hər yer yam-yaşıldır. Kaş bütün dövrlərin insanları indi burada olaydılar və hamı birlikdə xoşbəxt həyat sürərdilər..."[1]

Uşaqlar, oxuduqlarımın hansı dövrə aid olduğunu bilirsinizmi?

❀❀❀

1. Biharul-ənvar, zühur rəvayəti, c.53.

## İntizar

Oxuduqlarımız həzrət Mehdinin (ə.c.) zühurundan sonra baş verəcək hadisələrdir, yəni o zaman ki, İmam Mehdi bütün dünyada ədalətli hakimiyyət yaradacaq və bu işlə tarixin bütün Peyğəmbərlərinin və möminlərin arzusunu yerinə yetirəcək. Bu mühüm hadisə həzrət Peyğəmbərin (s) və məsum İmamların (ə) kəlamlarında "Fərəc" adlandırılır. "Fərəc" - yəni işlərin həll olunması və çətinliklərin aradan qalxması.

Həzrət Peyğəmbər (s) fərəcin intizarında olmaq barədə buyurub:

*"Mənim ümmətim üçün ən yaxşı əməl fərəcin intizarında olmaqdır".*[1]

Bəs biz necə bu böyük hadisənin intizarında ola bilərik?

Görəsən, əlimizi əlimizin üstünə qoyub İmam Zamanın (ə) özünün zühur edib hər şeyi düzəltməsini gözləməyimiz kifayətdirmi?

Əgər siz uzun müddətdən sonra əziz bir qonağı evinizə dəvət etsəniz və o, yaxın saatlarda sizin evinizə gəlməyə hazırdırsa, onu qarşılamaq və ona qulluq göstərmək üçün nə edərsiniz?

Mühüm bir qonağının gələcəyini bilən, lakin onu qarşılamaq üçün heç bir proqramı və planı olmayan biri, qonağının gəlişinin intizarında olduğunu iddia edə bilərmi?!

Həzrət İmam Rza (ə) həqiqi intizarda olanların vəzifələri haqqında buyurur:

*"Fərəcin intizarında olmağın bir neçə xüsusiyyəti var: səbirli olmaq, başqaları ilə xoşrəftar olmaq, yaxşı qonşuluq etmək, yaxşı işlərə təşviq etmək, başqalarını incitməkdən çəkinmək, gülərüz olmaq, möminlərə qarşı xeyirxah və mehriban olmaq".*[2]

1. Biharul-ənvar, c. 52, səh. 122.
2. Tuhəful-uqul, səh. 415.

## Sinif işi

İmam Rzanın (ə) hədisində İmam Zamanın (ə.c.) həqiqi intizarında olanların bəzi xüsusiyyətlərinə işarə olundu. Siz də başqa xüsusiyyətləri qeyd edin və bu məsələni sinifdə müzakirə edin.

Bu xüsusiyyətləri özündə yaratmağa çalışan şəxs əslində, İmam Zamanın (ə.c.) intizarı toxumunu öz ruhunun torpağına səpir. Aydındır, həzrətin zühurunun bahar vaxtı yetişdikdə bu torpaqların toxumları cücərib İmam Zamanın (ə.c.) həqiqi dostlarını başqalarından ayırd edəcək.

Ümumiyyətlə, hazırkı dövrdə kimlər o həzrətin diqqətini cəlb edə bilər?

**Siz müsəlman olun ...**

...Sevincindən yerə-göyə sığmırdı. Tələsik özünü dəmirçilər bazarına çatdırdı. Ürəyi həyəcandan yerindən çıxırdı. Gözü qıfıl düzəldən qocanın dükanına sataşdı...

İnanmırdı ki, bir çox çətinliklərə dözdükdən sonra nəhayət, bu gün özünün neçə illik arzusuna çatacaq! Dili tutulmuşdu, yerindən tərpənə bilmirdi. Bu bir günəş idi ki, qocanın dükanında oturub onunla səmimi şəkildə söhbət edirdi.

Qırıq-qırıq salam verdi.

İmam Zaman (ə.c.) mehribanlıqla salamının cavabını aldı və sonra işarə ilə bildirdi ki, sakit durub tamaşa etsin.

Beli bükülmüş və əsa ilə yeriyən bir qarı əlində bir qıfıl dükana daxil oldu və dedi: - Allah sizə xeyir versin, mənim üç dinara ehtiyacım var. Bu qıfılı məndən üç dinara alın.

Qoca kişi qıfıla baxıb dedi: - Bacım, bu qıfıl salamatdır və dəyəri səkkiz dinar edir.

Qarı dedi: Mənə üç dinar verin, sizin üçün dua edərəm. Bu bazarda qıfılı kimə göstərdimsə, onun üçün iki dinardan çox pul vermədi. Mənim də yalnız üç dinara ehtiyacım var.

Qoca kişi tam səmimiyyətlə dedi: - Bacım, sən müsəlmansan, mən də müsəlmanam. Nə üçün camaatın malını ucuz alıb kimsənin haqqına girim?

Bu qıfılın qiyməti səkkiz dinardır. Əgər mən də xeyir götürmək istəsəm, onu yeddi dinara alıb səkkiz dinara sataram ki, bir dinar xeyrim olsun. Satmaq istəyirsənsə, mən onu yeddi dinara alıram. Yenə təkrar edirəm, bunun əsl qiyməti səkkiz dinardır, mən dükan işlədirəm, mənim də xeyrim olmalıdır, ona görə də bir dinar daha ucuzuna alıram.

Qarı buna inana bilmirdi. Dodaqaltı deyirdi: - Onlara nə qədər yalvardımsa, iki dinardan artıq vermirdilər, bu kişi isə səkkiz dinar deyir.

Qarı pulu alıb getdi.

Kişi mat-məəttəl qalıb susmuşdu və qocaya baxırdı. Dərin düşüncələrə dalmışdı ki, İmamın (ə) səsi onu ayıltdı: “Bizi görmək üçün özünüzü zəhmətə salmayın. Siz əgər belə olsanız, biz özümüz sizi görməyə gələrik. Mən bu şəhər əhalisi içində bu adamı özümə dost seçdim, çünki o, dindar və Allahı tanıyandır. Hər həftə onun halını soruşmaq və görmək üçün yanına gəlirəm. Siz də onun kimi olun ki, sizi görməyə gəlim.”

❀❀❀

İndi bilirik ki, bizim əməllərimiz İmam Zamana (ə.c.) gizli deyil və bütün yaxşı və pis əməllərimizdən xəbərdardır. Belə olduqda yaxşı olar ki, biz öz əməllərimizə qarşı daha diqqətli olaq, çünki saleh əməllərimiz onu sevindirir, pis əməllərimiz isə onu incidir.

## Özünü sına

1. Bir neçə qısa cümlədə İmam Zamanın (ə.c.) zühur edəcəyi dövrün xüsusiyyətlərini bəyan edin.
2. Sizcə, biz nə etməliyik ki, həzrət Mehdinin (ə.c.) zühurunun həqiqi müntəzirlərindən olaq?

## Təklif

Valideynlərinizin köməyi ilə həzrət Mehdi (ə.c.) üçün gözəl bir mətn yazın və onu sinif yoldaşlarınıza oxuyun.

## İlahi!

اَللّٰهُمَّ كُن لِوَلِيِّكَ الحُجَّةِ بنِ الحَسَنِ
صَلَواتُكَ عَلَيهِ وَ عَلىٰ آبائِهِ
في هٰذِهِ السّاعَةِ
وَ في كُلِّ ساعَةٍ وَلِيًّا وَ حافِظًا وَ قائِدًا وَ ناصِرًا
وَ دَليلًا وَ عَينًا
حَتّىٰ تُسكِنَهُ اَرضَكَ طَوعًا وَ تُمَتِّعَهُ
فِيها طَويلًا.

İlahi! Öz vəlin Höccət ibn Həsənə və əcdadlarına salavat və rəhmətini nazil et, bu zamanda və bütün zamanlarda ona himayəçi, qoruyucu, rəhbər, kömək və yol göstərən ol. O vaxta qədər ki, onu yer üzərində meyil və rəğbətlə məskunlaşdırasan və yer üzündə bəhrələndirəsən.

(Təhzibul-əhkam, c. 3, səh. 102.)

# Beşinci fəsil: Əxlaq

Biz insanların hər birinin özünəməxsus əxlaqi xüsusiyyətləri vardır ki, bunlar bəyənilən və ya bəyənilməyən kimi səciyyələndirilə bilər. Əslində, əxlaqi xüsusiyyətlər bizim rəftarlarımızı təyin edir. Məsələn, pis xüsusiyyətləri olan bir şəxsdən yaxşı rəftar gözləmək olmaz.

İslam dini insanı tərbiyələndirmək və onun əxlaqını islah etmək üçün xüsusi bir proqrama malikdir. Biz bu proqramların bəziləri ilə keçən dərs ilində tanış olduq.

Bu fəsildə bizim taleyimizə çox təsiri olan bəzi əxlaqi xüsusiyyətlər haqqında danışacağıq. Hazırkı fəsil üç dərsdən ibarətdir: **"Cənnət ağacından bir budaq", "Vərdişlər və zərərlər", "Əməyin dəyəri".**

• On birinci dərs (Cənnət ağacından bir budaq) səxavət və xəsislik xüsusiyyətlərini təhlil edərək bu xüsusiyyətlərin hər birinin insan həyatındakı təsirini göstərir və davamında səxavət və israf arasında sərhədi bəyan edir.

• On ikinci dərs (Vərdişlər və zərərlər) əvvəlcə bizə bir vərdişin necə meydana gəldiyini izah edir. Davamında **səbirsizlik və əyləncədə həddi aşmaq** kimi vərdişləri şərh edir və sonda pis vərdişlərə qalib gəlməyin yolunu öyrədir.

• On üçüncü dərs (Əməyin dəyəri) əməyin insan həyatındakı rolunu və onun İslamda fəzilətini xatırladır. Sonra haram qazanc mövzusunu irəli sürərək haram malın necə insanın dünyasını və axirətini məhv etdiyini göstərir.



# On birinci dərs

## Cənnət ağacından bir budaq

Həzrət İbrahim (ə) evinə daxil olanda təəccüblə orada əyləşən şəxsə baxdı.

- Ey Allahın bəndəsi, kimin icazəsi ilə evimə daxil olmusan?

- Evin Rəbbinin icazəsi ilə.



Doğrudanmı düz eşitmişdi?! Sualını yenə təkrarladı və həmin cavabı aldı. Bu sual-cavab üçüncü dəfə də təkrarlandıqdan sonra İbrahim (ə) kiminlə danışdığını anladı. Bu, vəhy mələyi və Allahın əmanətdarı olan Cəbrail (ə) idi.

İbrahim peyğəmbər (ə) Allaha həmd edib Cəbrailin danışmasını gözlədi.

- Rəbbim məni bəndələrinin birinin yanına göndərib ki, onu Özünün səmimi dostu olaraq seçsin.

- Necə böyük iftixar! Bu şəxs kimdirsə, xoş halına!

Allahın səmimi dostu?! Bu şəxsin kim olduğunu mənə de, bundan sonra daim onun xidmətində olacağam.

- Sən özünsən!

- Mən?! Mənim bu məqama seçilməyimin səbəbi nədir?

- İki xüsusiyyətinə görə. Birincisi ona görə ki, indiyədək kimsədən bir şey istəməmisən.[1] İkincisi, indiyədək səndən bir şey istəyən heç kəsi əliboş geri qaytarmamısan.[2]

**Səxavətin faydaları**

Siz hansını bəyənirsiniz:

○ Səxavətli və bağışlayan

○ Simic və xəsis

Xəsis və simic şəxslərdən xoşu gələn birini tanıyırsınızmı? Özü simic olan şəxs başqa xəsis adamları xoşlayırmı?

Uca Allah bizi elə yaradıb ki, kimsə bizə yaxşılıq etsə, onu sevirik. Başqalarına yaxşılıq etməyin ən gözəl və ən sadə yollarından biri də onlara bəxşiş verməyimizdir. Buna görə də deyirlər ki, kiminsə səni sevməsini istəyirsənsə, ona hədiyyə və bəxşiş ver.

Görəsən, bəxşişin faydası elə bundan ibarətdir?

Əziz Peyğəmbərimiz (s) buyurur:

“Səxavətli insan Allaha yaxındır, Cənnətə yaxındır və insanlara yaxındır, Cəhənnəm odundan isə uzaqdır. Xəsis insan Allahdan uzaqdır, Cənnətdən uzaqdır və insanlardan uzaqdır, Cəhənnəm oduna isə yaxındır”.[3]

1. Yəni kimsəyə aciz və ehtiyaclı olduğunu bildirməmisən.
2. Kafi, c. 4, səh. 40.
3. Mustədrəkul-vəsail, c. 7, səh. 13.

## Sinif işi

Sədəqə vermək səxavətliliyin ən sadə nümunələrindən biridir. Sizcə, bu əməlin sədəqə verən üçün hansı faydası vardır?
Bəs cəmiyyət üçün?

**Səxavətin nümunələri**

Həzrət Muhəmməd Peyğəmbər (s) buyurur:

*"Ən xəsis insan başqalarına salam verməyə simiclik edən şəxsdir".*

*Vəsailuş-şiə, c.7, səh. 27; Suyuti, "Camius-səğir", c. 1, səh. 173.*

Səxavət və xəsislik yalnız maddi məsələlərə şamil olunmur. Səxavətli olmaq budur ki, biz malik olduqlarımızdan başqalarını faydalandıraq. Məsələn, təşəkkür etmək üçün bir söz demək və ya gülümsəmək ata-analarımızın yorğunluğunu aradan aparar. Bəyəm bizim onlara təşəkkürümüz və gülümsəməyimiz bəxşiş deyil?

Başqalarına dərs öyrətmək, bizim üçün hər hansı zəhmət çəkənə təşəkkür etmək, yaxınlarla gülərüz olmaq və s. səxavətin bizi Cənnətə yaxınlaşdıra biləcək nümunələridir.

Bu səbəbdəndir ki, İmam Rza (ə) buyurur:

*"Səxavət, budaqları yerdə olan Cənnət ağacıdır. Hər kim bu ağacın budaqlarından birinə yapışsa, onu Cənnətə çatdıracaq".*

*Mustədrəkul-vəsail, c. 7, səh. 13.*

**Həddə riayət et, hədd təyin etmə!**

Aşağıdakı ayəyə fikir verin:

وَالَّـذيـنَ اِذا اَنـفَـقوا
لَم يُسـرِفوا وَ لَم يَقتُـروا
وَ كانَ بَينَ ذٰلِـكَ قَـواماً

*"Onlar Allah yolunda xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar".*[1]

İmam Sadiqin (ə) səhabələrindən biri deyir: "Bir gün imamdan bu ayənin mənasını soruşdum.

İmam (ə) yerdən bir ovuc qum götürdü və onu ovcunda elə möhkəm saxladı ki, bir dənənəsi belə yerə tökülmədi. Sonra buyurdu: "Bu, Allahın buyurduğu xəsislikdir".

Bunun ardınca İmam (ə) ovcunu açıb barmaqlarını araladı və ovcundakı qum dənəciklərinin hamısı yerə töküldü. Buyurdu: "Bu israfdır".

Sonda yenə bir ovuc qum götürdü və əlini azca açdı. Bu zaman qum dənəciklərinin bir hissəsi yerə töküldü, bir hissəsi isə ovcunda qaldı. İmam buyurdu: "Bu orta yol və mötədillikdir".[2]

## Sinif işi

A) Siz öz həyatınızda daha hansı xəsislik və səxavət nümunələrini qeyd edə bilərsiniz?

B) Aşağıdakı sualları diqqətlə oxuyun. Hər birinin cavabı təqdim edilən ayələrin birində bəyan edilib. Surələrin adlarını və ayələrin nömrələrini müvafiq sualların altında qeyd edin.

- Hansı əməllər bizim bəxşişlərimizi batil edir?

  surə ................ ayə .........
- Hansı şeyləri başqalarına bəxşiş etməməliyik?

  surə ................ ayə .........
- Salehlərin məqamına necə çatırıq?

  surə ................ ayə .........

1. Furqan surəsi, 67-ci ayə.
2. Kafi, c. 4, səh. 54.

1. "Salehlərin məqamına yalnız sevdiyiniz şeyləri başqalarına bəxşiş etməklə çata bilərsiniz".[1]
2. "Ey iman gətirənlər! Sədəqələrinizi malını minnət qoymaq və (yoxsullara) əziyyət verməklə puça çıxarmayın".[2]
3. "Göz yumaraq aldığınız pis, yaramaz şeylərdən başqalarına vermək fikrində olmayın!"[3]

## Özünü sına

1. Həzrət Peyğəmbərin (s) hədisini nəzərə alaraq, insanın Allaha və Cənnətə yaxınlaşmasına nəyin səbəb olduğunu deyin. Xəsisliyin nəticəsi nədir?
2. Görəsən, yalnız zəngin və varlı insanlar səxavətli ola bilərlər? İzah edin.
3. Səxavətdə israf etmək nədir? Bunun iki nümunəsini bəyan edin.

## Təklif

Siz də səxavət haqqında bir hekayə, şeir və ya zərbülməsəl yazın və onu sinifdə dostlarınız üçün oxuyun.

---

1. Ali İmran surəsi, 92-ci ayə.
2. Bəqərə surəsi, 264-cü ayə.
3. Bəqərə surəsi, 267-ci ayə.



# On ikinci dərs

## Vərdişlər və zərərlər

Təsəvvür edin, sabah ilk dəfə olaraq sübh saat beşdə yuxudan oyanmalısınız.

Bu saatda yuxuya qalmamağınız üçün nə edərsiniz?

Bəlkə siz də başqaları kimi oyanmaq üçün zəngli saatdan istifadə edirsiniz və ya ata-ananızdan sizi oyatmanızı xahiş edirsiniz.

Lakin bəzi insanlar müəyyən bir saatda oyanmaq üçün saata və ya başqalarının köməyinə ehtiyacları yoxdur, özləri çox rahatlıqla həmin vaxtda oyanırlar.

Bunun səbəbini bilirsinizmi?

Biz bir işi davamlı şəkildə etdikdə həmin iş bizim üçün vərdişə çevrilir və onu tərk etmək çətin olur.

Sizin nəzərinizcə, bir işi yerinə yetirməyə adət etmək yaxşıdır, yoxsa pis?

Məhəmməd təhsil ilinin ilk günündən hər gün 3 saat mütaliə edəcəyinə söz verir.

Birinci həftələrdə bu işi görmək onun üçün çətin olsa da, verdiyi sözə ciddi şəkildə əməl etdiyindən bu çətinliyə dözür və bir müddətdən sonra gündəlik mütaliəyə öyrəşir.

Məhəmmədin qardaşı yay tətilində hər gecə gec yatar və buna görə də səhərlər yuxudan çox gec durardı. Dərslər başlasa da o hələ də yuxu vaxtını tənzimləyə bilməyib və gec yatmağa vərdiş edib.

## Sinif işi

1. Necə düşünürsünüz, Məhəmməd və qardaşının vərdişləri eynidirmi?
2. Məhəmməd və qardaşının vərdişlərinin fərqlənməsinin səbəbi nədir?

Gördüyümüz kimi, insanların vərdişləri bir-birindən fərqlənir.

Bəziləri yaxşı işləri təkrarlamaqla özlərində gözəl vərdişlər yaradırlar, bəziləri isə pis vərdişlər əldə edirlər.

Həzrət Əli (ə) buyurur:

*"Pis vərdişləri davam etdirənlər heç vaxt yüksək məqamlara çata bilməzlər".*

*Ğurərul-hikəm, s. 238.*

Buna görə də, əgər biz inkişaf etmək və həyatda xoşbəxt olmaq istəyiriksə, aşağıdakılara əməl etməkdən başqa çarəmiz yoxdur:

- Özümüzü yaxşı vərdişlərə alışdırma mexanizmini və mütaliəni gücləndirək.
- Çox yemək və tənbəllik kimi pis vərdişləri tanıyıb onları tərk edək.

Biz bu dərsdə inkişaf etməyimizə mane olan və bizi həqiqi xoşbəxtlik yolundan uzaqlaşdıran iki pis vərdişi təhlil edəcəyik.

**1. Faydasız əyləncələr**

"Evə gələn kimi tələsik salamlaşır və paltarını belə soyunmadan televizoru yandırır.

Bu iş Əmir üçün vərdişə çevrilib. O, məktəbdən gələn kimi çantasını bir küncə atıb televiziya izləməyə başlayır: uşaq və yeniyetmələr üçün proqramlara, idman verilişlərinə, televiziya yarışlarına, kinofilmlər və teleseriallara...

Əmir şövqlə bütün proqramları izləyir. Başqalarının xəbərdarlıqlarına, yəni bu işdə həddi aşmamağa dair tövsiyələrə məhəl qoymur. Gecə isə yorğun halda dərslərini oxumamış yatır.

Bu vəziyyət imtahanlar başlayana qədər beləcə davam edir. Bütün şagirdlər imtahanlarda uğur qazanmaq üçün səylərini artırırlar, Əmir isə bütün il boyu başqa bir işlə məşğul olmadığı üçün yalnız televiziya proqramlarını rahatlıqla pis vərdişini tərk edə bilmir. Buna görə də ..."

### Sinif işi

1. Sizcə, televiziya izləmək pis işdir?
2. Əmirin bu bir ildə səhvi nə idi?
3. Əgər siz Əmirə tövsiyə vermək istəsəydiniz, ona nə deyərdiniz?

Əyləncələr iki növdür:

Birinci növ əyləncələr özü-özlüyündə pis deyil, lakin bu məsələ həddi aşmaq digər vəzifələrdən geri qalmağa və əsas işi unutmağa səbəb olur. Televiziya izləmək bu növ əyləncələrdəndir.

İkinci növ əyləncələr isə insanda çox pis izlər buraxır və daha böyük zərərlərə səbəb ola bilər. Bəzi uyğun olmayan kinofilmlər və təhlükəli komputer oyunları bu növdən olan əyləncələrdir ki, onlarla məşğul olmaq günahdır.

**2. Dözümsüzlük**

Yəqin ki, bu zərbülməsəli eşitmisiniz: "Əziyyət çəkmədən xəzinə əldə etmək olmaz".

Bunu izah edə bilərsinizmi?

İnsanın həyatında məqsədlərinə çatmamasına səbəb olan vərdişlərdən biri də dözümsüzlük və səbirsizlikdir. Dostları arasında hamıdan güclü



olmaq istəyən idmançını təsəvvür edin. O bu məqsədinə çatmaq üçün nə qədər məşq etməlidir?
Bəs bu idmançı olimpiya yarışlarında iştirak edib ən güclü idmançılarla yarışmaq istəsə, həmin yarışlarda qələbə çalmaq üçün nə qədər çalışmalıdır?
Tam aydındır ki, həyatda məqsədimiz nə qədər böyük olsa, ona çatmaq da bir o qədər çətin olar.
Beləliklə, dünya və axirət səadəti kimi böyük bir məqsədə çatmaq dözümsüzlük və səbirsizliklə mümkün olarmı?
İmam Baqir (ə) buyurur:

*“Hər kim həyatın çətinliklərinə və sıxıntılarına sinə gərsə, Cənnətə daxil olar”.*

Ramazan ayında digər müsəlmanlar kimi oruc tutmalı olan dözümsüz bir şəxsi təsəvvür edin. Günün bir hissəsi keçdikdən sonra susuzluq və aclıq ona qalib gəldikdə təslim olur və Allahın əmrini ayaq altına salır. Aydındır ki, o Allahın oruc tutanlar üçün hazırladığı böyük mükafatlarından məhrum olmaqdan əlavə, Qiyamət günündə mühakimə olunmaq üçün də hazır olmalıdır.

Bəs görəsən, dözümsüz insan şeytanın vəsvəsələrinə müqavimət göstərə bilərmi?

## Sinif işi

Aşağıdakı halların hər birində səbirli və səbirsiz insanların rəftarını müqayisə edin:

| | |
|---|---|
| Əsəbləşdikdə... | Səbirli: |
| | Səbirsiz: |
| Ana evi təmizlərkən bütün pəncələri silməyi ona tapşırdıqda... | Səbirli: |
| | Səbirsiz: |
| Kiçik qardaşına "Fatihə" surəsini öyrətmək üçün bir saat sərf etdi, lakin hələ də qardaşı bu surəni səhvsiz oxuya bilmir. | Səbirli: |
| | Səbirsiz: |

## Özünün sına

1. Bir əməlin insan üçün vərdişə çevrilməsinə nə səbəb olur?
2. Cənnəti əldə etmək üçün səbir və dözümlülüyün rolu barədə bir neçə misal çəkin.
3. Hazırkı dərsdə öyrəndiklərimizi nəzərə alaraq:

a) Əyləncələrin neçə növ olduğunu izah edin.

b) Bu əyləncələrin hansında ifratçılıq bəyənilmir.

## Daha çox bilək

**Ziyanın yarısından qayıtmaq da xeyirdir**

Yəqin, sizi də bu sual maraqlandırır: Özümüzdə bəyənilməyən vərdiş aşkar etdikdə nə etməliyik?

1. Allahdan yardım istəmək

Bilməliyik ki, Uca Allah bizim hamımıza "İradə" adlı çox güclü və dəyərli bir qüvvə bəxş etmişdir və biz bu qüvvə ilə hər bir çətin işin öhdəsindən uğurla gələ bilərik. Elə isə Yaradandan yardım istəyib ümidvar olmalıyıq.

2. Ciddi qərar

Pis vərdişi tərk etməkdə ən önəmli addım bu adətdən uzaqlaşmaq üçün ciddi qərar verməkdir. Bu qərarı qəbul etmək üçün isə həmin pis vərdişin yaratdığı problemlər haqqında düşünməliyik.

3. Davamlı çalışmaq

Üçüncü addım bütün gücü səfərbər edib bu işi təkrarlamamaq üçün çalışmaqdır. Bir vərdişi tərk etmək əvvəldə çox çətin görünsə də, bir müddət özünü alışdırmaqla və davamlı çalışmaqla hər bir vərdişi tərk etmək mümkündür.

4. Şəraitin dəyişdirilməsi

Növbəti addım insanda pis vərdişlərin yaranmasına səbəb olan şəraitin dəyişdirilməsidir. Məsələn, dostlarının pis bir vərdişə aludə olduğu şəxs həmin dostlarla birlikdə olduğu müddətdə onların bəyənilməyən vərdişini tərk edə bilməz. Yaxud tək olduğu vaxtlarda ağlına xoşagəlməz düşüncələr gələn şəxs bu vərdişi tərk edənə qədər uzun müddətə tək qalmaqdan çəkinməlidir.

5. Məyusluq və ümidsizlikdən çəkinmək

Əgər hər hansı bir işi daha təkrar etməyəcəyimiz barədə qərar versək və bir müddətdən sonra bilməyərəkdən onu təkrar etsək, bundan ümidsiz olmamalı və bu vərdişi tərk etmək üçün səylərimizi dayandırmamalıyıq. Bunu bir dəfə baş verən hadisə hesab edib yenidən yaxşı və təzə vərdişin yaranması üçün qərarımızda daha qətiyyətli olmalıyıq.

## İlahi!

**Ey yaxşılıqların Xaliqi!**
Sənə həmd edirəm ki, mənim əxlaqımı və xasiyyətimi gözəl yaratdın
və məni bəyəndiyin şeyə tərəf hidayət etdin!
**İlahi!**
Düşmənlərimə qalib gəlməyim üçün məni müvəffəq et:
mənə vəsvəsə edən Şeytana,
mənim çalışqanlığımı azaldan qəflətə
və məni Sənin Cənnətindən uzaqlaşdıran tənbəlliyə!
**İlahi!**
Mənə güc ver ki, Sənə şükür edən olum.
Öz eyblərimə göz yummayım
Və özümü olduğumdan daha yaxşı görməyim!

Arzu edirsinsə, sən də bir neçə cümlə ilə Allahla danış.

.........................................................................................

.........................................................................................

.........................................................................................



# On üçüncü dərs

## Əməyin dəyəri

**Böyük ibadət**

"Addımlarını sürətləndirdi. Özünü tezliklə evə çatdırmaq istəyirdi. Sanki göydən od yağırdı. Mədinədə günün bu isti vaxtında yalnız vacib işləri olanlar evdən bayıra çıxırdı. O, sürətlə yeriyərkən uzaqdan gözü qızmar günəşin altında əkinçiliklə məşğul olan bir şəxsə sataşdı. Öz-özünə dedi: "Necə də dünya malına hərisdir! Bəyəm var-dövlət nə qədər dəyərlidir ki, insan onu ələ gətirmək üçün özünü bu qədər zəhmətə salsın?! Yaxşı olar ona nəsihət edim".



Bir az da yaxınlaşanda təəccübü daha da çoxaldı:
- Düzmü görürəm? Bu, Muhəmməd ibn Əlidir (İmam Baqir)?! - Daha da diqqətlə baxdı. - Bəli, özüdür! Necə də qan-tər içində işləyir.

Salamun əleykum!

İmam (ə) təngnəfəs halda və tər tökə-tökə salamını aldı və işinə davam etdi.

- Qureyş qəbiləsinin böyüklərindən biri bu isti havada belə tərləyərək dünya malını əldə etmək üçün işləyərmi?! Əgər elə indi ölüm sizi haqlasa və bu halda dünyadan köçsəniz, nə edərsiniz?

Həzrət (ə) əlini saxlayıb buyurdu: "Əgər bu halda

ölüm məni haqlasa, Allaha ibadət edərək dünyadan köçəcəyəm. Mən işləməklə özümü və ailəmi başqalarının köməyindən ehtiyacsız etməyə çalışıram. Bu, Allaha ibadətdir. Əgər qorxmalı olsam, gərək günah halında bu dünyadan köçməyimə görə qorxum”.

Başını aşağı salıb fikrə getdi. "Necə də hikmətli cavabdır. Mən ona nəsihət vermək istəyirdim, amma o mənə nəsihət verdi. Allaha şükürlər olsun ki, öz səhvimi anladım...”[1]

**Əmək və çalışqanlığın səmərələri**

Başqalarına möhtac olmamaq üçün işləmək və çalışmaq nəinki bəyənilən deyil, əksinə İslam dinində böyük ibadətlər sırasında yer tutur.

Allahın Rəsulu (s) bu haqda buyurur:

*“İbadət ondur, doqquzu halal ruzi əldə etməkdir”.*[2]

İşləməyin başqa bir faydası da infaq etmək, bəxşiş vermək və xeyriyyə işlərində iştirak etmək üçün lazımi imkana malik olmaqdır.

Elə bir ağıl sahibi yoxdur ki, Allahın səxavətli insanlara verdiyi mükafatdan məhrum olmaq istəsin. Özü başqalarının köməyinə möhtac olan şəxs başqalarına infaq edə bilərmi?

Əgər bir şəxsin qazancı olmasa, öz var-dövlətini səxavətlə xeyriyyə işlərində (məscid, məktəb və kitabxana tikmək kimi) xərcləyə bilərmi?

Çalışmağın faydalarından biri də ictimai problemləri həll etməkdir. Ekspertlərin bildirdiyinə görə, münasib iş və əmək fəaliyyəti ümumi nizam intizamın pozulması və dilənçilik kimi bir çox ictimai cinayətlərin və qarışıqlığın qarşısını ala bilər.

1. Vəsailş-şiə, c. 17, səh. 20.
2. Camiul-əxbar, səh.139.

## Sinif işi

Sizcə, işsizlik cəmiyyətdə daha hansı problemləri yarada bilər?

İndi isə bu sualı cavablandırmağın vaxtı yetişib: Özümüzə var-dövlət toplamaq üçün hər yola əl atmağa haqqımız varmı?

**Halal qazanc**

İmam Sadiqin (ə) səhabələrindən biri həzrətdən soruşdu: “Bir şəxs haram yol ilə var-dövlət ələ gətirir və günahını təmizləmək üçün həmin maldan yoxsullara sədəqə verir, qohumlarına yardım edir və Allah evinin ziyarətinə gedir. Onun bu əməlləri Allahn nəzərində necədir?”

İmam (ə) buyurdu:

*“Günahları pak edən yaxşı işlərdir, lakin haram əməl başqa bir haram əməli təmizə çıxara bilməz”.* *Kafi, c. 5, səh. 126.*

Buna görə də, əgər kimsə haram yol ilə var-dövlət əldə etsə, böyük günaha batmışdır və əgər həmin var-dövlətin hamısını yaxşı işlərə sərf etsə, nəinki günahları paklanmaz, əksinə günahlarının üzərinə biri də əlavə olunar.

Haram malın insanın həyatına daxil olmasının ona daha hansı təsirlər edəcəyini ehtimal verə bilərsiniz?

## Sinif işi

Bir nəfər həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: "Ey Allahın Rəsulu! Allahdan mənim duamı yerinə yetirməsini istəyin!"
Peyğəmbər (s) buyurdu: "Əgər bunu istəyirsənsə, halal ruzi qazanmaqla məşğul ol".
Bu hədis haram malın həyatda təsirlərindən birinə işarə edir: **duaların qəbul olunmaması.**
İndi isə aşağıdakı iki hədisə nəzər salın və yuxarıdakı nümunədə olduğu kimi hər hədisin haram mal barədə olan mesajını qeyd edin:
1) İmam Rza (ə) buyurur: "Haram yol ilə əldə olunan mal çoxalmaz, çoxalsa da bərəkətsiz olar".
Mesaj: ...........................................................................

2) Əmirəl-möminin Əli (ə) buyurur: "Haram yol ilə əldə olunan mal haram işlərdə əldən gedər".
Mesaj: ...........................................................................

**İşdə xəyanət**

Hamımız bilirik ki, insan oğurluq, qumar və qaçaq mal alış-verişi kimi yollarla qazanc əldə etsə, həmin mal haramdır və kimsənin ondan istifadə etməyə haqqı yoxdur.

Lakin bəzən insanın işi və peşəsi halal, həmin peşə ilə əldə etdiyi mal isə haram olur. Məsələn, kimsə keyfiyyətsiz malı keyfiyyətli və yaxşı qablaşdırma ilə baha qiymətə satır. Onun malı artıq aldığı pul qədər haram olur. Həmin məbləği alıcıya qaytarmaq vacibdir. Yaxud hər gün çalışdığı yerdə müəyyən işləri görməli olan işçi iş saatlarında üzərinə düşən vəzifəni yerinə yetirməsə, aldığı pul onun haqqı deyil və həmin puldan istifadə etmək onun üçün haramdır.

Beləliklə, görürük ki, insan istənilən peşədə və işdə öz vəzifəsini yerinə yetirmədikdə harama bata bilər.

Böyük Allah Özünün hidayət kitabında bu kimi şəxslərə Cəhənnəm əzabı vəd edir və buyurur:

وَیلٌ لِلمُطَفِّفینَ الَّذینَ اِذَا
اکتالوا عَلَی النّاسِ یَستَوفونَ وَ
اِذا کالوهُم اَو وَزَنوهُم یُخسِرونَ
اَلا یَظُنُّ اُولٰئِکَ اَنَّهُم
مَبعوثونَ لِیَومٍ عَظیمٍ یَومَ
یَقومُ النّاسُ لِرَبِّ العالَمینَ.

*“O kəslər ki, özləri insanlardan ölçü ilə bir şey aldıqda onu tam ölçüb alarlar, onlar üçün bir şey ölçdükdə və ya çəkdikdə isə onu əskildərlər. Məgər onlar güman etmirlərmi ki, diriləcəklər böyük bir gündə?!”*[1]

## Özünü sına

Növbəti dərslərdə başqalarının haqqlarını tapdalayanıların aqibəti ilə daha yaxından tanış olacayıq.

## Təklif

1. Sizcə, işləməyin özümüz və cəmiyyət üçün hansı faydaları var? Onlardan üçünü qeyd edin.
2. Müsəlmana yerinə yetirilməsi və ondan əldə olunan qazancdan istifadə edilməsi haram olan işlərin bir neçəsinə işarə edin.
3. Üç halal peşəni sadalayın və bu peşə sahiblərinin qazancının necə haram ola biləcəyini izah edin.
4. Haram qazancın insanların həyatında hansı pis təsirləri var?

“Qara bazar” hekayəsini (Şəhid Murtaza Mütəhhərinin yazdığı “Doğruların dastanı” kitabının 33 saylı hekayəsi) oxuyub ailəniz və dostlarınız üçün danışın.

1. Mutəffifin surəsi, 1-6-cı ayələr.

**Bərəkət**

Yəqin ki, siz də bu deyimi eşitmisiniz: "Səndən hərəkət, Allahdan bərəkət!"

Bu zərbülməsəlin mənası nədir?

Gəlin baxaq:

Daha taqəti qalmamışdı. O qədər yoxsullaşmışdı ki, hətta uşaqları üçün yemək ala bilmirdi, nə edəcəyini bilmirdi.

- Bizim üçün yalnız bir yol qalıb, bu gün Peyğəmbərin (s) yanına get və ondan kömək istə. O hökmən sənə kömək edər!

Bu, həyat yoldaşının təklifi idi.

Heç kəsdən kömək diləmək istəmədiyi halda ağlına başqa bir şey gəlmirdi. Məscidə gəldi. Allah Rəsulu (s) səhabələrinin arasında oturub onlarla söhbət edirdi.

Bir küncdə oturub onların söhbətinə qulaq asmağa başladı. Peyğəmbərin (s) ətrafının boşalması və sözünü ona deyə bilməsi üçün fürsət gözləyirdi. Bu arada qəflətən Peyğəmbər (s) sözünü kəsib ona baxmadan buyurdu:

- Hər kim bizdən kömək istəsə, ona kömək edərik, lakin əgər kimsə Allahdan başqasına əl uzatmasa Allah onu ehtiyacsız edər!

- Görəsən, Peyğəmbər (s) kimi nəzərdə tuturdu? Məni?!

Həmin gün heç nə deməyib evinə qayıtdı. Səhərə qədər heç nə baş vermədi, yoxsulluq və aclıq əvvəlki tək onu və ailəsini sıxırdı. Növbəti gün yenə həmin məqsədlə məscidə gəldi. Yenə Allah Rəsulu (s) ona işarə etmədən buyurdu:

- Hər kim bizdən kömək istəsə, ona kömək edərik, lakin əgər kimsə Allahdan başqasına əl uzatmasa, Allah onu ehtiyacsız edər!

Daha əmin idi ki, Peyğəmbər (s) onu nəzərdə tuturdu. Yenə heç bir söz demədən evə qayıtdı.

Növbəti gün üçüncü dəfə Allahın Rəsulunun (s) yanına getdi və yenə də bu sözləri o həzrətdən eşitdi. Öz-özünə dedi:

- Yəqin, Peyğəmbərin bu sözlərində bir hikmət vardır ki, hər dəfə bunları təkrar edir. Daha heç kəsdən kömək istəməyəcəyəm! Allaha arxalanıb Onun mənə verdiyi güc-quvvədən istifadə edəcəyəm. Rəbbimdən istəyirəm ki, bu yolda mənə kömək olsun və mən bir daha heç kəsə kömək üçün əl uzatmayım.

Qərarını verib evinə qayıtdı. Öz-özünə düşündü: "Mən nə bacarıram? Ən azından səhraya gedib bir az odun gətirə və onu sata bilərəm".

Qonşusundan baltanı əmanət aldı. Səhraya gedib bir az odun yığdı, şəhərə gətirib satdı və uzun müddətdən sonra ilk dəfə olaraq öz zəhmətinin qazancını evinə apardı.

Bu işi davam etdirib tədricən özünə balta, digər lazımi alətlər və yük heyvanı aldı. Beləcə, işini davam etdirib nəhayətdə özü sərmayəsi və işçiləri olan bir sahibkara çevrildi.

Bir gün Allahın Rəsulu (s) ona rast gəlib təbəssümlə buyurdu:

- Demədim hər kim bizdən kömək istəsə, ona kömək edərik, lakin əgər kimsə Allahdan başqasına əl uzatmasa, Allah onu ehtiyacsız edər?!

## İlahi!

**Ey ruzi bəxş edən Kərim!**
Ey mənə çalışmağı öyrədən!
Mən də boş əllərimi doldurdum!
Bəxşiş etmək ləzzətini mənə dadızdırdın
və ruzimi başqaları ilə bölüşdürdüm, Sənə
şükürlər olsun!
Şükürlər olsun ki, süfrəmi halal çörəklə bəzədin
və məni başqalarının bəxşişindən ehtiyacsız
etdin!
**İlahi!**
Mənə kömək ol ki, zəngin olduqda yalnız
özümü görməyim!
**Allahım!**
İndi ki həyatımı yaxşı işlərlə bəzədin,
əlimi və dilimi Sənə şükür etməklə zinətləndir!

Arzu edirsinsə, sən də bir neçə cümlə ilə Allahla danış.

.......................................................................................

.......................................................................................

.......................................................................................

# Altıncı fəsil:
# İslam cəmiyyəti

Yaşadığımız cəmiyyət hər birinin özünəməxsus əxlaqı və baxışı olan müxtəlif fərdlərdən təşkil olunub. Digər tərəfdən, hamımız bir cəmiyyətdə yaşayırıq və hər birimizin rəftarı bütün cəmiyyətə təsir edə bilər.

İslam dini bir cəmiyyətin fərdlərinin münasibətlərini tənzimləmək üçün müəyyən proqrama malikdir. Keçən tədris ilində onun bir hissəsi ilə tanış olduq. Bu fəsildə İslamın ictimai təlimlərinin digər proqramlarını öyrənəcəyik ki, onları icra etmək cəmiyyətimiz üçün daha gözəl və sağlam həyat ərməğan edə bilər.

Hazırkı fəsil üç dərsdən təşkil olunub: "Həqqünnas" (insanların haqqı), "İzzət nişanəsi" və "Ümumi məsuliyyət".

- On dördüncü dərs (Həqqünnas) insanın özü, Allah və başqaları qarşısında daşıdığı məsuliyyəti barədədir. Bu dərsdə İslam dinində həqqünnasın əhəmiyyəti xatırlanır. Həmçinin ümumi hüquqlar və hər kəsin bu hüquqlar qarşısında vəzifəsi qeyd olunur.
- On beşinci dərsdə (İzzət nişanəsi) İslamda hicabın, abır-həyanın, iffətli olmağın əhəmiyyəti xatırlanır.

On altıncı dərs (Ümumi məsuliyyət) cəmiyyətin bütün fərdlərinin ən mühüm vəzifələrindən birinə - yaxşılığa əmr etmək və pislikdən çəkindirmək məsələsinə işarə edir. Bu əməlin İslamda əhəmiyyətini bəyan etməklə bərabər yanaşı müxtəlif formalarını bizə öyrədir.



# On dördüncü dərs

## Həqqünnas

**Sonuncu dayanacaq**

Əməlləri qeydə alan mələk onun əməl dəftərinin bu son fəsilin səhifələrini nəzərdən keçirdikdən sonra oraya möhür vurur. Az qalmışdı ki, ürəyi həyəcandan qopsun. Mələk möhürü qaldırdıqdan sonra sevincdən fəryad çəkir:

Qəbul olundum!

Rahat bir nəfəs çəkir. Bu dayanacaqdan da salamat keçdiyinə inana bilmirdi. Dönüb arxaya baxır. Müxtəlif dayanacaqlarda durub qalmış çoxlu sayda insanları görür. Namazları kamil olmayanlar namaz dayanacağında, orucları tam olmayanlar oruc dayanacağında, mallarının zəkatını verməyənlər zəkat dayanacağında, bir dəstə həcc dayanacağında, bir dəstə də yaxşılığa əmr etmək və pislikdən çəkindirmək dayanacağında...

Yadına salır ki, özü də dünyada namazlarının bəzilərini düzgün yerinə yetirmədiyinə görə uzun müddət namaz dayanacağında gözləmişdi və əgər Allahın rəhməti ona şamil olmasaydı, başına nə gələcəyi bilinmirdi.

Yavaş-yavaş uzaqdan Cənnətin qapıları görünürdü. İndi bircə dayanacaq qalıb və əgər bundan da qəbul möhürü ilə keçə bilsə az sonra Cənnətdə olacaq! Bu həqqünnas (insanların haqqı) dayanacağı idi.

Əməlləri yoxlamağa məsul olan əməl dəftərinin sonuncu fəslinə baxır və onu yüksək bir yerə aparmağı əmr edir. Oradan hamını görürdü, insanlar da onu görürdülər. Sonra məmurlardan biri uca səslə onu təqdim edir və deyir: - Hər kəsin bu şəxsin boynunda haqqı var, gəlib haqqını alsın!

Az sonra özünü Cənnətdə təsəvvür etdiyi halda qəflətən çox sayda insanın əhatəsində giriftar olur. Məmurlar hamını sıraya düzürlər ki, bir-bir gəlib sözlərini desinlər.

Birinci şəxs irəli keçdi: - Məni xatırlayırsan? Biz qonşu idik. Yadındamı, danışanda dilim topuq vurduğu üçün məni ələ salardın? Mən səndən razı deyiləm və qoymaram Cənnətə gedəsən!

İkinci şəxs: - Biz səninlə bir sinifə oxuyurduq. Sən məndən güclü idin və sənə gücüm çatmadığını bildiyin üçün müxtəlif bəhanələrlə məni incidirdin. Yadındadı, bir dəfə dalaşdıq və sən mənə güclü bir sillə vurdun? Mən səndən narazıyam!

Üçüncü şəxs bir mağaza sahibi idi: - Yadındadı, bir gün mənim mağazama gəlmişdin və pulun az idi, istədiyin şeyləri götürüb dedin ki, gedib tez qayıdaram və pulunu gətirərəm? Lakin getdin və daha qayıtmadın. İndi isə borcumu istəyirəm!

Sonrakı şəxs dedi: - Yadındadı sən meyvə dükanında işləyirdin? Bir dəfə meyvə almaq üçün sənin yanına gəlmişdim və sən üstdəki meyvələri xarab olmayan altdakıların isə çürük olduğu bir yeşik meyvəni mənə satdın. Altdakı meyvələrin çürük olduğunu bilə-bilə mənə heç nə demədin və məni aldatdın. İndi ya pulumu qaytar, ya da mənə salamat meyvə ver!

Və belə növbəti şəxs və ...

Tamamilə başını itirmişdim: - Çürük meyvə satmışam? Ələ salmışam? Döymüşəm?..

Yalvararaq məmurlara deyir: Axı mən bu vəziyyətdə pulu haradan alım?! Siz bir şey deyin!

Lakin məmurlar deyirlər: - Çarə yoxdur, onların razılığını almalısan.

Bir müddət keçir. Əməl dəftərində yaxşı işlərdən başqa heç nəyi olmadığı üçün məcbur olub yaxşı əməllərin bir hissəsini birinci şəxsə verir və onun razılığını alır. İkinci şəxs də onun yaxşı əməllərinin bir hissəsini alır. Üçüncü şəxs və ... Bir qədər sonra bütün yaxşı əməlləri bitir, iddiaçılar isə hələ bitməyib. Daha nə edəcəyini bilmirdi. Növbəti iddiaçı onun daha yaxşı əməllərinin qalmadığını görüb deyir: "Mənim günahlarımın bəzilərini boynuna götür ki, mən də öz haqqımdan keçim". Növbəti şəxs başqa günahlarını və ...

Sankı hər şey onun başına fırlanırdı. Halı heç yaxşı deyildi. Nə qədər çalışırdısa, daha Cənnətin qapılarını görə bilmirdi. Ona tərəf gələn Cəhənnəm şölələrini görürdü. Başı gicəllənir və ayağının altı boşalırdı. Ucadan fəryad çəkir və qəflətən ...

## Üç hüquq

Gün ərzində yerinə yetirdiyimiz işlərə nəzər salaq:

1) Yemək yeyirik.
2) Namaz qılmaq üçün məscidə gedirik.
3) Avtobusa minmək üçün sıraya dururuq.

Əgər bir az diqqətlə baxsaq görərik ki, bizim hər gün yerinə yetirdiyimiz bəzi işlər özümüzün sağlamlığı və hər bir cəhətdən inkişaf etməyimiz üçündür. Bu işlərə “Həqqünnəfs”, yəni "Nəfsin haqqı" deyilir. Yemək yemək, istirahət etmək, dişləri fırçalamaq və mütaliə etmək bu qəbildən olan işlərdir. Nəfsin haqqına diqqət yetirmək Allahın bizim hər birimizin öhdəsinə qoyduğu mühüm vəzifələrdən biridir.

Bəzi işləri də Allahın əmrinə tabe olduğumuz üçün yerinə yetiririk. Bu işlərə “Həqqullah”, yəni "Allahın haqqı" deyilir. Namaz qılmaq, yaxşı işlərə əmr etmək, günahlardan çəkinmək bu qəbildən olan əməllərdir.

Digər qism əməllər bizim insanlar qarşısında daşıdığımız vəzifələrimizdir. Biz yoxsullara kömək etməyə, başqalarını incitməməyə, insanların haqqı pozmamağa və kimsəyə zülm etməməyə borcluyuq. Bu işlərə “Həqqünnas”, yəni "İnsanların haqqı" deyilir.

### Sinif işi

1. Nümunələrə fikir verin və aşağıdakı cədvəli bir neçə başqa misal ilə tamamlayın.

| | |
|---|---|
| Allahın haqqına etinasızlıq | 1. Ramazan ayında üzürlü səbəb olmadan oruc tutmayan şəxs. |
| | 2. |
| | 3. |
| Həqqünnasa etinasızlıq | 1. Başqalarına böhtan atan şəxs. |
| | 2. |
| | 3. |
| Nəfsin haqqına etinasızlıq | 1. Ömrünü və vaxtını boş yerə sərf edən şəxs. |
| | 2. |
| | 3. |

2. Sizin fikrinizcə, bu üç vəzifənin hansı birinin icrası daha çox əhəmiyyətlidir?

Mütaal Allah Qurani-kərimdə həqqünnasın bəzi nümunələrinə işarə edərək buyurur:

يا اَيُّهَا الَّذينَ آمَنُوا اجتَنِبوا
كَثيرًا مِنَ الظَّنِّ انَّ بَعضَ الظَّنِّ
إِثمٌ وَ لا تَجَسَّسوا وَلا يَغتَب
بَعضُكُم بَعضًا اَيُحِبُّ اَحَدُكُم اَن
يَأكُلَ لَحمَ اَخيهِ مَيتًا فَكَرِهتُموهُ
وَ اتَّقُوا اللّٰهَ...

*"Ey iman gətirənlər! Zənn və gümanların çoxundan uzaq durun. Çünki zənn edilənlərin bir qismi günahdır. (Başqalarının şəxsi həyatı ilə bağlı) axtarış aparmayın, bir-birinizin qeybətini qırmayın. Sizlərdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Hamınız bundan iyrənirsiniz. Təqvalı olun!.."*[1]

Bu ayə asanlıqla göstərir ki, həqqünnas yalnız insanların mal-mülk haqqına aid deyil, həm də onların abrının, sirlərinin və şəxsiyyətlərinin də qorunması həqqünnas hesab olunur.

Başqalarının hüquqlarının əhatəsi o qədər genişdir ki, bəzən insanlar müəyyən işləri görərkən özlərinin də xəbəri olmadan bir çox insanın haqqını tapdalamış olurlar və nəticədə Qiyamətdə çox sayda iddiaçı ilə qarşılaşacaqlar.

Məsələn, təsəvvür edin bir nəfər meşədə od yandırır və sonra oranı tərk etdikdə odu söndürmür. Onun bu diqqətsizliyi meşənin böyük bir hissəsinin yanmasına səbəb olar. Sizcə, bu şəxs diqqətsizliyi ucbatından təmiz havadan məhrum olan bütün insanlar qarşısında məsuliyyət daşımırmı?

Çaylara zəhərli maddə buraxıb ümumi istifadədə olan suyu zəhərləyən şəxs insanlar qarşısında məsuliyyət daşımırmı?

1. Hucurat surəsi, 12-ci ayə.

Sevimli peyğəmbərimiz həzrət Muhəmməd (s) bu kimi şəxslər barədə buyurub:

*“Ümumi istifadədə olan istirahət və dayanacaq yerlərini zibilləyən və insanların gediş-gəliş yolunu bağlayan şəxs Allahın rəhmətindən uzaqdır”.* *Kafi, c. 3, səh. 16.*

Gördüyümüz kimi, bəzi yerlər və şeylər vardır ki, bütün insanlar onlardan istifadə etmək haqqına sahibdirlər. Meşələr, çaylar, dənizlər, yaşıllıqlar, dağlar və s. bu ümumi yerlərin nümunələridir ki, mehriban Allah onları bütün məxluqların istifadə etməsi üçün yaratmışdır.

İslam dini ətraf mühitin qorunmasında fəal olmağı bütün müsəlmanlara tövsiyə etməklə yanaşı, bu İlahi nemətlərin inkişafına dəstək olmağı və onları qorumağı ibadət hesab edir.

## Sinif işi

1. Əgər bir nəfər bir ağacı sındırmaqla bütün insanların haqqını pozmuş olsa, bu böyük haqqı necə kompensasiya edə bilər?
2. Ümumi hüquqların pozulmasına dair bir neçə misal çəkin.

## Özünü sına

1. Allahın Cənnətini əldə etmək istəyən şəxs kimlərin hüquqlarına riayət etməlidir?
2. Əgər bütün insanlar bir-birinin hüququna diqqətsizliklə yanaşsalar cəmiyyətdə nə baş verər?
3. Sinif yoldaşlarınızın sizin üzərinizdəki haqqdan üç nümunəni bəyan edin.
4. Ailə üzvlərinizin (ata, ana, qardaş, bacı və ...) sizin üzərinizdəki hüquqlarından üç müsal çəkin.

**Ən pis oğurluq**

Həmin gecə qardaşı Əlinin (ə) qonağı olan Əqil onunla birlikdə "Darul-imarə"nin damında oturub söhbət edirdilər. Əqil əsas məsələni demək üçün münasib fürsət axtarırdı.

Yavaş-yavaş şam yeməyinin vaxtı çatdı. Özünü xilafət sarayının qonağı hesab edən Əqil rəngarəng bir süfrə gözləyirdi. Lakin süfrə açılanda onun çox sadə olduğunu gördü. Bu, Kufənin ən yoxsul insanlarının yemək süfrəsi kimi idi.

Əqil təəccüblə soruşdu: - Yemək elə bundan ibarətdir?!

Əli (ə) buyurdu: - Bəyəm bu, Allahın neməti deyil? Mən Allaha bu nemətlərinə görə çox şükür edirəm!

Əqil bir az düşünüb dedi: - Elə isə xahişimi deyib tez gedim. Mənim borcum var və bu yükün altında sıxılıb qalmışam. Əgər qardaşına kömək etmək istəyirsənsə, əmr elə mənim borclarımı beytül-maldan ödəsinlər.

- Borcun nə qədərdir?

- Yüz min dirhəm.

- Yüz min dirhəm? Nə çox! Təəssüf edirəm, qardaş! O qədər pulum yoxdur ki, sənin borclarını verim. Amma aylıq məvaciblərin verilmə vaxtına qədər səbir elə. Öz şəxsi maaşımdan götürüb sənə verərəm və qardaşlıq haqqımı yerinə yetirərəm. Əgər ailəmin ehtiyacları və xərcləri olmasaydı, bütün payımı sənə verərdim və özüm üçün heç nə saxlamazdım.

- Necə? Aylıq məvacibin verilmə vaxtına qədər səbir edim?! Ölkənin beytül-malı və xəzinəsi sənin əlində olduğu halda mənə deyirsən ki, aylıq məvacibin verilməsinə qədər səbir edim və sən də öz payından mənə verəsən?! Sən istədiyin qədər xəzinədən və beytül-maldan

götürə bilərsən, nə üçün məni aylıq məvacibin verilmə vaxtına qədər gözlədirsən? Bundan əlavə, sənin beytül-maldan aylıq məvacibinin məbləği nə qədərdir ki?! Əgər bütün məvacibini də mənə versən, dərdimə dərman olmaz!

- Belə bir təklif etdiyinə görə çox təəccüb edirəm! Xəzinədə pulun olub-olmamağı sənə və mənə nə aidiyyəti var? Mən və sən digər müsəlmanlardan biri kimiyik. Doğrudur, sən mənim qardaşım olduğun üçün mən bacardığım qədər sənə kömək etməliyəm, amma bunu müsəlmanların beytül-malından deyil, öz malımdan etməliyəm.

Bu söhbət uzanırdı və Əqil müxtəlif sözlərlə öz istəyini təkrarlayırdı.

- İcazə ver, beytül-maldan mənə lazım olan qədər pul versinlər, mən də gedim işimin dalınca!

Darul-imarənin aşağısında Kufə bazarı yerləşirdi və damın üstündən bazar tacirlərinin pul sandıqları görünürdü. Əqil öz istəyində israr etdiyi zaman Əli (ə) buyurdu:

- Əgər yenə israr edirsənsə və sözümü qəbul etmirsənsə, sənə bir təklifim var. Əgər qəbul etsən, bütün borclarını ödəyə bilərsən, üstəlik ondan da artığı səndə qalar.

- Nə edim?

- Aşağıda pul sandıqları var. Ara xəlvət olub bazarda kimsə olmadıqda buradan aşağı düş və o sandıqların qıfılını qırıb ürəyin istədiyi qədər pul götür.

- Sandıqlar kimindir?

Bu mağaza sahiblərinindir. Nağd pullarını həmin sandıqlarda saxlayırlar.

- Əcəb!? Mənə təklif edirsən ki, camaatın sandıqlarını qırıb min cür zəhmətlə əldə edib bura qoyduqları pullarını

götürüm?! Halbuki onlar bu sandıqları Allaha təvəkkül edib sahibsiz qoyublar.

- Elə isə sən mənə necə təklif edə bilərsən ki, müsəlmanların beytül-malını sənə görə açım?! Bəs bunlar kimindir?! Bunlar da hal-hazırda evlərində rahat yatan insanlara məxsusdur! Əgər mənim birinci təklifimi qəbul etmirsənsə, başqa bir təklif verim, istəsən, onu qəbul et.

- Daha nə təklif?

- Hazırsansa, öz qılıncını götür, mən də öz qılıncımı götürürəm. Bu yaxınlıqda qədim Hirə şəhəri yerləşir. Orada çoxlu varlılar və tacirlər yaşayır. Gecə ikən onların birinin evinə basqın edib çoxlu sərvət əldə edərik.

- Qardaşcan, mən oğurluq etmək üçün gəlməmişəm ki, sən bu sözləri deyirsən. Mən deyirəm ki, sən göstəriş verəsən ixtiyarında olan beytül-maldan və dövlət xəzinəsindən mənə bir miqdar pul versinlər, mən də onunla öz borclarımı ödəyim!

- Necə olur ki, bir nəfərin malını qılıncla ələ keçirmək oğurluqdur, amma camaatın malını ələ keçirmək oğurluq deyil?! Sən elə bilirsən ki, oğurluq təkcə kimsəyə hücum edib zorla əlindəkini ondan almaqdır?Ən pis və ən çirkin oğurluq sənin indi mənə təklif etdiyin oğurluqdur!

# İlahi!

Ey bütün hacətlərin və ehtiyacların əlində olduğu Allah!
Muhəmmədə və ailəsinə salavat göndər!
**İlahi!**
Zülm etdiyim bəndələrinin hər birini,
abır-həyalarını apardığım hər kəsi,
həmçinin mallarını əllərindən aldığım,
o kəslər ki, onların qeybətini etdiyim,
çətinliklərə saldığım,
sitəm etdiyim şəxsləri,
**İlahi,**
indi Sən Özün onları məndən razı et!
Mənim əlim qısadır və haqqlarını ödəməkdə acizəm ... [1]

*İmam Səccad (ə)*

---

1. Biharul-ənvar, c. 87, səh. 176; Məfatihul-cinan, Bazar ertəsi gününün duası.



# On beşinci dərs

## İzzət nişanəsi

Şəkil müsabiqəsinə sadəcə iki gün vaxt qalsa da, mən hələ də bu müsabiqəyə qatılmaq üçün bir mövzu seçməmişdim. O gün məktəb yolunda gözüm piyadalar üçün nəzərdə tutulmuş səkinin kənarındakı güllərə sataşdı. Ağ, çəhrayı və qırmızı rəngli qızıl güllər otların arasında göz oxşayırdı. İrəli gedib onlara daha yaxından tamaşa etməyə başladım. Güllər rəsm müsabiqəsi üçün ən gözəl mövzu idi. Ancaq təəssüflər olsun ki, fotoaparatım yanımda deyildi. Özlüyümdə fikirləşdim ki, sabah, mütləq, fotoaparatımı gətirib bu güllərin bir neçə şəklini çəkərəm.

Səhərisi gün evdən həmişəkindən bir qədər tez çıxıb həvəslə güllərin olduğu yerə doğru getdim. Güllərin olduğu yerə çatmağa bir neçə addım qalmış təəccübdən donub yerimdə qaldım. Ətraf solmuş gül ləçəkləri ilə dolu idi. O cür gözəl güllərdən əsər-əlamət qalmamışdı. Gördüyüm bu səhnə məni çox sarsıtdı. Bütün varlığımla narahat oldum.

Həmin gün günortaya qədər o güllərin acı aqibəti barədə düşündüm. Digər tərəfdən isə şəkil müsabiqəsi üçün başqa bir mövzu tapmaq məcburiyyətində idim. Fikirləşdim ki, sabah hara getsəm, fotoaparatımıda özümlə götürüm, qarşıma çıxan fürsəti əldən verməyim.

**Növbəti gün məktəbə gedən yolda ...**

Sanki yuxu görürdüm. Üzərində çoxlu güllər olan böyük bir qızıl gül kolu gözümə sataşdı. Öz-özümə fikirləşdim ki, axı necə ola bilər dünən bütün gülləri qırıb korlamış rəhimsiz əl bu gözəl güllərə zərər yetirməyib? Bir qədər diqqət yetirdikdə sualımın cavabı bircə kəlmədən ibarət idi: hasar

Elə bilirsiniz ki, güllərin ətrafını hasara almış bağban onun çevrəsini daraldır? Hasar çəkməkdə məqsəd nədir? Nəyi nədən qoruyur?

Hamımız qiymətli əşyalarımızı təhlükə və risklərdən qorumağa çalışırıq. Qiymətli əşyaların seyflərdə saxlanılması bunun ən bariz nümunəsidir.

## Sinif işi

Dostlarınızla fikir mübadiləsi apararaq qiymətli əşyaların qorunmasına dair digər nümunələr göstərin.

**Arxayınlıq və təhlükəsizlik**

Allah-taalanın insan ruhunun təmizliyi məqsədini güdən hikmətli göstərişlərindən biri də hicab hökmüdür. İnsanların güclü və zəif cəhətlərini hamıdan yaxşı bilən qüdrətli və bilikli Yaradan belə buyurmuşdur:

يَا أَيُّهَا النَّبِيُّ قُل لِّأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاء الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَابِيبِهِنَّ

Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin övrətlərinə de ki, örtüklərini örtsünlər.

(Əhzab surəsi, 59-cu ayə)

Bu ayə cəmiyyətin bütün üzvlərini ictimai pozğunluqlardan qorumaq məqsədi güdür. Buna görə də qadınların öz örtüklərini örtməsi iffət və həyanın təmin edilməsi anlamına gəlir. Beləliklə də kişilər naməhrəm qadınlarla hər hansı qeyri-qanuni münasibətdən uzaq olurlar.

Ərəb dilindəki “جَلَابِيب” sözünün mənası “evdən çölə çıxarkən geyilən geyim” deməkdir.

## Daha çox bilək

Qərb ölkələrində qadınlardan sui-istifadə ilə bağlı olduqca narahatedici statistika mövcuddur. Əksər mütəxəssislər diqqəti qadınların geyiminin məziyyətlərinə çəkməyə çalışmışlar. İslami hicab qadın üçün cəmiyyətin bir fərdi olaraq həddən artıq müsbət təsirə malikdir. Hicab əslində şəxsi və ictimai iffətin təminatıdır. Bir sıra avropalı ideoloqlar qadınların geyindiyi bədəni göstərən geyimlər haqqında həyəcan siqnalı çalaraq hicabın cəmiyyətdə həya və iffətin təmin edilməsində böyük rol oynadığını bildirmişlər.

**Ailəni qorumaq**

İslami hicabın faydalarından biri də ailədaxili səmimiyyət və mehribançılığı qoruyub saxlamaqdır. Sağlam bir cəmiyyətdə həm kişi, həm də qadın hər ikisi işləyir. Hər biri üzərinə düşən vəzifəni yerinə yetirməklə onların ailədaxili ehtiyacları təmin olunur. Bir-birinə olan sevgi və məhəbbəti düzgün şəkildə ifadə edirlər. Sağlam olmayan cəmiyyətdə isə aşırı həddə bəzəkdən istifadə edib bədəni göstərən paltarlar geyinən qadınlar ya bilərəkdən, ya da bilmədən kişilərin diqqətini cəlb edib onları yoldan çıxarırlar.

Sizcə bir nəfər öz ailəsinə qarşı nə qədər mühafizəkar ola, öz sevgisini ifadə edə bilər? Sizcə düzgün geyim tərzi insanın ailəsinə necə təsir göstərə bilər?

**Sinif işi**

Sizcə bəzi qadınların uyğun olmayan geyimdə, həm də aşırı dərəcədə bəzənmiş halda cəmiyyət arasına çıxmasının nə kimi səbəbləri ola bilər?

**Qarşılıqlı məsuliyyət**

İndiyə qədər öyrənmişik ki, hicab İslam dininin ən önəmli göstərişlərindən biridir. Elə təsəvvür edilməməlidir ki, hicab inkişaf və nailiyyətin qarşısını alır. Bu gün dünyaca məşhur simalar arasında hicablı xanımlara da rast gəlirik. Elə düşünürsünüz ki, cəmiyyətin sağlam olması sadəcə qadınlarınmı vəzifəsidir?

Allah-taala Qurani-Kərimdə belə buyurur:

"(Ya Rəsulum!) Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar). Bu onlar üçün (ədəb-ərkan, təmizlik baxımından) daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır! Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar); öz-özlüyündə görünən (əl, üz) istisna olmaqla, zinətlərini (zinət yerləri olan baş, boyun, boğaz, qol, ayaq və s. naməhrəmə) göstərməsinlər."

(Nur surəsi, 30-31-ci ayələr)

Sizcə nəyə görə hikmət sahibi olan Allah bu ayələrdə həm kişiləri, həm də qadınları ayrı-ayrılıqda nəzərdə tutaraq hər iki dəstəyə eyni göstərişi vermişdir?

Bu ayələr göstərir ki, yalnız geyim məsələsinə riayət etmək cəmiyyətin sağlam şəkildə qorunub saxlanılması üçün yetərli deyil. Deməli, istər kişilər, istərsə də qadınlar həm də öz davranışında, həm də danışığında həyalı olmalıdırlar.

İslam dininə görə insanı haram işə çəkəcək istənilən əməl günah sayılır. Misal üçün dar paltarlar geyinmək, ehtiraslandırıcı söhbətlər etmək, uyğun olmayan geyimlər geymək və naməhrəmin diqqətini cəlb edə biləcək istənilən əməli qeyd etmək olar. Bu nöqteyi-nəzərdən kişi ilə qadın arasında heç bir fərq yoxdur.

**Bəzi şəriət hökmləri**

1- Qadınların əl (biləkdən barmaqların ucuna qədər) və üz istisna olmaqla bədənin bütün hissəsini örtməsi vacibdir.

2- Naməhrəm qadının bədən və tükünə baxmaq haramdır. Əgər onun üzünə baxmaq da günaha səbəb olarsa, o da haram sayılır.

3- Qadınların naməhrəm kişinin bədəninə baxması haramdır.

4- Qadınlara məhrəm sayılan kişilər aşağıdakılardır: Ata, həyat yoldaşı, oğul (eləcədə nəvələr), qardaş, baba, qaynata, əmi, dayı, qardaşoğlu, bacıoğlu, qardaş nəvəsi, bacı nəvəsi. Bunlardan başqa kişilər qadınlara naməhrəm sayılırlar. Qadın qeyd olunmuş kişilərdən başqalarının yanında örtünməlidir.

5- Kişilərə məhrəm sayılacaq qadınlar aşağıdakılardır: Ana, həyat yoldaşı, qızı (eləcədə nəvələri), bacısı, nənə, qaynana, bibi, xala, qardaşqızı, bacıqızı. Bunlardan başqa qadınlar kişilərə naməhrəm sayılırlar. Əgər qeyd olunan qadınlardan başqası hicabsız olarsa, kişi onlara baxmamalıdır.

## Özünü sına

1. Quran ayələrinə görə qadınlar üçün hicabın ən böyük faydası nədir?

2. Cəmiyyətin sağlam olması üçün kişi və qadınların qarşılıqlı məsuliyyəti nədən ibarətdir?

3. Qadınların bədəninin hansı hissəsini örtməsi vacibdir?

4. Sizcə qadınlar naməhrəm kişilərin qarşısında corabsız gəzə bilərmi? Niyə?

## Daha çox bilək:

**Allahın əmrinin dəyəri**

Hicab hökmünə qarşı çıxanlar əsasən öz məqsədlərini qadınların iffətsiz olmasında görən həvəsbaz siyasət adamlarıdır. Onlar çalışırlar ki, (müxtəlif informasiya vasitələrindən tutmuş hicab qadağası haqqında qanunlar təyin etməyə və hicablı qadınlara psixoloji təzyiqlərə qədər) cəmiyyəti hicabsızlığa yönəltsinlər. Bəzi ölkələrdə hicablı qızların orta və ali məktəblərə girişinə qoyulan qadağalar bunun bariz nümunəsidir. Aşağıda Raziyə Nadiran adlı 10 yaşlı bir qızın hicablı olduğuna görə məktəbə buraxılmaması haqqında yazdığı məktubu diqqətinizə çatdırırıq:

Fransaya gəldiyimiz ilk ildə hicablı olduğuma görə məni məktəbə buraxmadılar. Mən bir il boyunca evdə qalıb dərslərimi də evdə oxudum. Növbəti ildə isə uzun-uzadı danışıqlardan sonra nəhayət mənim hicabla məktəbə getməyimə icazə verildi. Təhsil müddəti ərzində mən məktəbdəki dərslərlə yanaşı evdə dini dərslərimi də oxuyurdum. Bu il sinif rəhbərim dərsə hicabla gəlməyimə razılıq versə də məktəbin direktoru mənə qarşı təzyiqlər etməyə başladı. O, hər gün atama məktub yazaraq bildirirdi ki, məktəbə hicabsız gəlməyimə razılıq versin. Elə təsəvvür edirdi ki, mən atamın təzyiqi nəticəsində hicab örtürəm. Direktor sonuncu məktubunda belə yazmışdı: "Əgər Raziyə hicabını açmasa, daha onu məktəbə buraxmayacağıq." O, bu məktubu səhər mənə vermişdi. Günortadan sonra kitab-dəftərimi məktəbdən götürmək üçün getdikdə gördüm ki, bir neçə müəllimlə birlikdə məktəbin qapısının qarşısında dayanıb. O,sinifə getmək istədiyimi düşünüb əsəbi və sərt şəkildə dedi: "Yox, yox, Raziyə, olmaz." Həmin an mən həddən artıq narahat idim. Əsəb boğazımı tutduğu üçün çətinliklə də olsa özümü toparlayıb direktora dedim: "Çantamı götürmək üçün gəlmişəm." O gündən sonra mən

bir daha məktəbə getməyib dərslərimi evdə davam etdirirəm. Məktəb direktorunun pis və etikadan kənar davranışını heç vaxt unutmaram.

O hadisədən sonra Fransa televiziyasının bəzi müxbirləri məndən müsahibə götürərkən soruşdular ki, hələ də hicab taxmaq fikrindəsən? Cavab verdim ki, hicab mənə vacibdir. Mən 9 yaşımdan hicab taxmışam və ömrümün sonuna qədər də taxacağam. Mən öz yaşıdlarımla birlikdə oynamağı, məktəbə getməyi çox istəyirəm, ancaq dinimi hər şeydən daha artıq istəyirəm. Evdə tək qalmağa razıyam, təki Allah məndən razı qalsın. Qızlara müraciət edərək demək istəyirəm ki, fransızların bu səs-küyündən və antiislam siyasətindən narahat olmasınlar. Öz mübarizələrinə davam etsinlər. Şübhəsiz ki, sonda qələbə bizimlə olacaq.

*Fransanın Klermon-Feran şəhərindən 10 yaşlı Raiyə Nadiran.*

## İlahi!

**Allahım,**
Muhəmməd və onun ailəsinə salavat göndər
və İslam ordusunu qalib et!
Qəlblərini səbirli, səngərlərini alınmaz,
silahlarını kəsərli et!
və bütün hallarda onları birləşdir!
**İlahi!**
Bilmədiklərini onlara öyrət
və görə bilmədiklərini onlara göstər!
Düşmənlə üz-üzə gəldikdə Cənnətdə
onlar üçün hazırladıqlarını onların gözünün
önünə gətir ki, bir an belə düşmənə arxa
çevirməsinlər!
**Ey qalib və ey məğlubedilməz!**
Düşmənlərin qəlbini qorxu ilə doldur,
və gücü-qüvvəti onlardan al!
Rahatlığı onlardan uzaqlaşdır
ki, müsəlmanların əleyhinə birləşməsinlər
və bəndələrinlə müharibə etməyə tamah
salmasınlar ...

"Səhifeyi-səccadiyyə" 27-ci duadan seçmələr.

# On altıncı dərs

## Ümumi məsuliyyət

Əhalisi yaxşı və imanlı olan bir şəhər təsəvvür edin. Onlar dini əmrlərinə əməl etməyə və həyatda doğru yolu seçməyə çalışırlar.

Bir müddətdən sonra bu şəhərdə çirkin və pis işlərlə məşğul olan bir dəstə peyda olur. Onlar rahat şəkildə başqalarının gözünün qabağında günah edir və imanlı şəxsləri gördükdə onları ələ salırlar. Heç kəs də onların çirkin əməllərinə etiraz etmir və hamı etinasız şəkildə onların yanından keçir.

Sizcə, onların çirkin əməlləri başqalarına necə təsir edər? Bu günahkarların rəftarlarını müşahidə edən uşaqlar və yeniyetmələr onlardan nə öyrənərlər?

Necə düşünürsünüz, pis işləri görüb yanından etinasızca keçib gedənləri doğru əməl sahibi hesab edə bilərikmi?

Kaş bütün insanlar doğru danışan və saleh olaydılar və özlərini günahlardan, pis işlərdən uzaq tutaydılar. Lakin gerçək budur ki, onların hamısı belə deyil. Yaradılışın əvvəllindən indiyədək daim bir qrup şəxs bilərəkdən və ya bilməyərəkdən pis işlər görüb və öz vəzifələrinə əməl etməyiblər.

Sizcə, bizim belə bir zamanda vəzifəmiz nədən ibarətdir?

Hikmətli Allah yaxşı işləri yaymaq və pis işlərin qarşısını almaq üçün müsəlmanlara kamil bir proqram öyrətmişdir:

كُنتُم خَيرَ اُمَّةٍ اُخرِجَت لِلنّاسِ تَأمُرونَ بِالمَعروفِ وَتَنهَونَ عَنِ المُنكَرِ وَ تُؤمِنونَ بِالله.

"Siz insanlara xeyir vermək üçün yaradılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız".[1]

Yaxşı işlər görməyi əmr etmək" yəni başqalarını öz dini vəzifələrini yerinə yetirməyə dəvət etmək və "Pis işləri qadağan etmək", yəni başqalarını bəyənilməyən və günah işlərdən çəkindirməkdir.

Əmirəl-möminin həzrət Əli (ə) bu mühüm vəzifə barədə buyurur:

*"Yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək" bütün yaxşı əməllərlə, hətta Allah yolunda cihad etməklə müqayisədə böyük və dərin bir dənizlə bir damcı su kimidir. Sübhan Allah sizdən əvvəlki qövmlərə yalnız "yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək" əməlini yerinə yetirmədikləri üçün əzab göndərdi. Beləliklə, onların ağılsızlarını günah etdikləri üçün, ağıllılarını isə pisliklərdən çəkindirmədiklərinə görə əzaba düçar etdi.*[2]

1. Ali İmran surəsi, 110-cu ayə.
2. Nəhcül-bəlağə, Hikmətli kəlamlar, 374-cü kəlam və 192-ci xütbə.

## Sinif işi

Qeyd olunanları nəzərə alaraq, aşağıdakı cədvəli doldurun:

| Hadisə | “Yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək” əməlini yerinə yetirmək | “Yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək” əməlini yerinə yetirməmək |
|---|---|---|
| Bir şagird məktəbin ümumi malını dağıdır. | | |
| Bəziləri münasib olmayan geyimlə cəmiyyətə çıxırlar. | | |
| Bir nəfər başqaları haqqında pis sözlər danışır və qeybət edir. | | |
| Sinifdə bir nəfər başqalarının diqqətini yayındırır. | | |
| Bir mağaza sahibi malı baha qiymətə satır | | |
| Bir nəfər namaz qılanları ələ salır. | | |
| ........................................ | | |
| ........................................ | | |

**"Yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək" əməlinin metodları**

Əgər paltarınızın üzərinə az miqdarda gips tökülsə, onu necə təmizləyərsiniz?

Bəs paltarınıza qələminizin mürəkkəbi düşsə, onu çırpmaqla təmizləmək mümkündürmü?

Hər iki halda məqsəd paltarı təmizləməkdir, lakin metodlar və yollar müxtəlifdir.

"Pis işlərdən çəkindirmək" əməlində bizim məqsədimiz budur ki, səhv yolda olan şəxs bu səhvini davam etdirməsin.

Bəzən səhv yolda olan şəxs əməlinin çirkinliyini dərk etmir. Bu zaman biz mehriban şəkildə ona səhv yolda olduğunu başa salmalı və ehtiramla ondan bu əməlindən əl çəkməyini istəməliyik.

Yaxud da bir kəsin günah işlə məşğul olduğunu gördükdə üzümüzü çevirib həmin şəxslə soyuq davranmağımız həmin günahın qarşısını almaq üçün kifayət edər.

Bəzən də bir günahın yerinə yetirilməsindən narahat olduğumuzu bildirmək üçün həmin məkanı tərk etməliyik.

İnsanların abrını qorumaq üçün imkan daxilində onların səhvlərini başqalarının yanında deməməyə diqqət etməliyik.

### Sinif işi

Necə düşünürsünüz, bu metodlarla həmişə günahların qarşısını ala bilərikmi? Məsələn, narkotik maddə ticarəti ilə məşğul olan şəxslə söhbət etməklə onu bu böyük günahdan çəkindirmək mümkündürmü?

Elə isə bu hallarda bizim vəzifəmiz nədir?

Biz yaxşı işləri başqalarına öyrətmək və ya onları yaxşı işlərə təşviq etmək üçün müxtəlif metodlardan istifadə edə bilərik. Bu metodlardan biri və ən asanı söz ilə yaxşılığa dəvət etməkdir. Biz bu vasitə ilə başqaları ilə söhbət etməklə yaxşı işləri onlara öyrədir və onları saleh əməllərə təşviq edirik.

Lakin başqalarına daha çox təsir edən metod əməl ilə yaxşılığa dəvətdir.

**Gəlin bir yerdə baxaq:**

Bir qoca dəstəmaz alırdı, lakin bu işin düzgün yolunu bilmirdi. O zaman azyaşlı uşaqlar olan İmam Həsən və İmam Hüseyn (ə) qocanın dəstəmaz aldığını gördülər. Onlar qocanın bu xətasını düzəltməli idilər. Amma necə? Əgər açıq şəkildə aldığı dəstəmazın səhv olduğunu desəydilər, yəqin ki, narahat olardı. Bəlkə də bu narahatlığına görə tərslik edib dəstəmazın düzgün qaydasını da öyrənməzdi.

Onlar bir az fikirləşib bir-birinə dedilər:

- Bax, mənim dəstəmazım daha düzgündür, yaxşı bax!
- Xeyr, mənim dəstəmazım daha düzgündür!

Onlar qocanın da eşidə biləcəyi uca səslə bir-biri ilə danışmağa başladılar və hər biri özünün dəstəmazını digərindən daha düzgün aldığını iddia edirdilər.

Sonra qocanın yanına gedib ona dedilər: - Biz dəstəmaz alırıq, siz baxın bizim hansımız dəstəmazı daha düzgün alır?

Qoca razılaşdı. Onların hər biri qocanın yanında daha düzgün və səhih dəstəmaz aldılar. Sonra qocadan soruşdular: - Hansı birimizin dəstəmazı daha düzgün idi?

Düzgün dəstəmaz almağın yolunu təzəcə öyrənən qoca mehriban şəkildə dedi: - Sizin hər ikinizin dəstəmazı düzgündür. Dəstəmazı düzgün yerinə yetirməyən bu qoca idi ki, o da bunu indi sizdən öyrəndi![1]

## Özünü sına

1) "Yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək" nə deməkdir?
2) Pis işlərdən çəkindirməyin üç metodunu qeyd edin.
3) Yaxşılığa dəvət etməyin ən təsirli metodu hansıdır? Misal çəkin.

1. Biharul-ənvar, c. 43, səh. 319.

Hörmətli müəllimlər, valideynlər və şagirdlər!

**Biz sizin rəylərinizi qiymətləndirir və onlardan gələcək kitablarımızdakı dəyişikliklər və təkmilləşdirmələr etmək üçün istifadə edəcəyik. Zəhmət olmasa rəylərinizi aşağıdakı e-poçt ünvanına göndərin:**

**info.amag77@gmail.com**